Here, when fuel burns, up to 20,000 C of heat is released, 20-30% of the released heat is spent on heating the parts. The average temperature during engine operation is 800-9000 C.
The cooling system is necessary to remove heat from the mechanisms and parts of the engine.
The thermostat ensures rapid heating of a cold engine, so when the engine is started, the thermostat valve is in the closed state, which ensures a small circulation of the coolant. When the engine reaches operating temperature, the thermostat valve opens and a large circulation begins, so that the engine continues to operate at a temperature of 90-95 0C.
Keywords: Cooling system, Thermostat, engine, Pump (water pump)

ŞƏHƏR NƏQLIYYATINDA PROQNOZLAŞDIRMA VƏ MODELLƏŞDIRMƏ

Qalibə Rza qızı Məmmədova
q.memmedova@atu.edu.az
Zaur Şakir oğlu Paşayev
zaur.pasayev.92@mail.ru
Azərbaycan Texnologiya Universiteti

XXI əsrin ən gənc elm sahəsi olan nəqliyyat logistikasının missiyası malların və xidmətlərin hərəkətini və paylanmasını optimallaşdırılmaqdan ibarətdir. Ona görədə bu sahədəki tədqiqatlar, nəqliyyat axınlarının idarə edilməsi, yol sıxlığının proqnozlaşdırılması, resursların səmərəli istifadə edilməsi və ümumi əməliyyat xərclərinin azaldılması kimi əsas məsələlərə yönəlir. Qeyd olunan məsələlər konkret götürülmüş nəqliyyat logistikasında ayrı ayrılıqda problem xarakteri daşıyır.Bu problemlərin effektiv həlli üçün modelləşdirmə və proqnozlaşdırma metodları geniş istifadə olunur.

Modelləşdirmənin və proqnozlaşdırmanın metod kimi xüsusi rolu və əhəmiyyətini aşağıdaki kimi ifadə edə bilərik:

- Nəqliyyat logistikası tədqiqatlarında modelləşdirmə, resursların idarə edilməsi, nəqliyyat axınının optimallaşdırılması və tələbatın proqnozlaşdırılması üçün mühüm rol oynayır.
- Modelləşdirmə, müxtəlif faktorları nəzərə alaraq, hər bir qərarın nəticəsini əvvəlcədən təxmin etməyə kömək edir. Bu prosesdə dinamik proqramlaşdırma metodlarından geniş istifadə olunur.

Aparılan tədqiqatlar və metodiki araşdırmalar dinamiki modelləşdirmə ilə avtobus sərnişininin və yükün optimallaşdirilmasına yönəldilmişdir.İlkin mərhələdə dinamiki modelləşdirmə avtobus sərnişini üçün aşağıdaki kimi tədqiq olunub:

- Məlumdur ki, şəhər nəqliyyatı tələbin və resursların düzgün idarə edilməsi baxımından çətinliklər yaradır. Ona görədə qeyd olunan məsələnin həllində dinamik modelləşdirmə əsas metodlardan biridir.Dinamik modelləşdirmə, nəqliyyat sistemlərində zamanla dəyişən prosesləri izləmək və optimallaşdırmaq üçün çox mühüm bir yanaşmadır. Avtobusla sərnişin daşıma və yük daşınması məsələlərini modelledərkən, məqsəd bu proseslərin idarə olunması və optimallaşdırılmasıdır. Əvvəldə qeyd etdiyimiz kimi ilk növbədə avtobusla sərnişin daşımanın dinamiki modelini qurmaq üçün şəhərdə bir avtobus xətti üzrə sərnişin axını izlənir. Hər dövr üçün sərnişin sayı zamanla dəyişir. Bunun üçün dinamik proqramlaşdırma metodlarından istifadə edərək, sərnişinlərin gəlməsi, oturması və getməsi nəzərə alınır.Modelin quraşdırılması üçün növbəti dövrün sonunda avtobusdakı sərnişin sayı aşağıdakı qaydada hesablanır [1]:

$$x(t+1)=x(t)+u(t)-d(t)$$

burada:

- **x(t)** - dövr t-də avtobusda olan sərnişinlərin sayı;
- **u(t)** - dövr t-də yeni sərnişinlərin avtobusa minmə sayı;
- **d(t)** - dövr t-də avtobusdan düşən sərnişinlərin (məsələn, dayanacaqlarda sərnişinlərin düşməsi) sayı.

Anoloji olaraq yük daşınması üçün də dinamik modelləşdirmə qurula bilər. Çünki,Yük daşınması məsələsi də şəhər nəqliyyatı sahəsində mühüm bir aspektdir. Yük daşınması zamanı da dinamikanı modelləşdirmək lazımdır. Burada da yükün daşınması və nəqliyyat vasitələrinin idarə olunması ilə əlaqədar bir neçə amil var. Şəhər nəqliyyatında olduğu kimi, nəqliyyat logistikası məsələlərində də resursların təhlili və səmərəli istifadəsi üçün aşağıdakı dinamik model tətbiq edilə bilər. Modelin quraşdırılması üçün növbəti dövrün sonunda yük daşınması aşağıdakı qaydada hesablanır [2]:

$$x(t+1)=x(t)+u(t)-d(t)$$

burada:

- **x(t)** dövr t-də yolda olan nəqliyyat vasitələrinin və ya yükün miqdarını;
- **u(t)** idarəetmə qərarlarını (məsələn, yük daşınması üçün resursları təmin etmək və ya nəqliyyat vasitələrinin marşrutlaşdırılması) göstərir;
- **d(t)** isə tələbatı və yük sıxlığını ifadə edir, məsələn, yükün təyinat yerinə çatdırılması və ya yolda olan sıxlıq.

Təbii ki, istənilən prossesin modelini qurmaq mümkündürsə, onun gələcəkdə özünü necə aparmağını əks etdirən proqnozlaşdırma prossesinidə xüsusi metodlarla təsvir etmək mümkündür. Nəqliyyat logistikası sahəsində proqnozlaşdırma metodları, nəqliyyat axınlarının və tələbin dəyişməsini əvvəlcədən təxmin etməyə imkan verir. **Reqressiya analizi** və **time-series** (zaman seriyası) modelləri bu məqsəd üçün istifadə olunur. Proqnozlaşdırma metodları, tələbin dəyişməsi və ya yol sıxlığının artması kimi məsələləri əvvəlcədən müəyyənləşdirərək müvafiq tədbirlər alınmasına kömək edir.Aparılan ədəbiyyat axtarışları və analizi göstərdi ki, modelləşdirmə və proqnozlaşdırma metodlarının tətbiqi konkret olaraq **trafik axın** və **yüklərin tələbi** barədə daha doğru qərarların verilməsinə imkan verir. Məsələn, zaman seriyası analizi ilə yol sıxlığı və yük daşınması əvvəlcədən proqnozlaşdırılaraq, optimal idarəetmə qərarları qəbul edilə bilər. Bu, nəqliyyat logistikası məsələlərində daha səmərəli və iqtisadi cəhətdən effektiv nəticələr əldə etməyə imkan yaradır.

Nəqliyyat logistikası tədqiqatlarında dinamik modelləşdirmə və proqnozlaşdırma metodları, şəhər nəqliyyatında olduğu kimi, digər nəqliyyat növlərində də resursların optimallaşdırılmasına və tələbin proqnozlaşdırılmasına kömək edir. Bu metodlar, nəqliyyat sistemlərinin daha səmərəli işləməsini və xərclərin minimallaşdırılmasını təmin edir.

Nəticədə, nəqliyyat logistikası sahəsində dinamik modelləşdirmə və proqnozlaşdırma metodları nəqliyyat axınının optimallaşdırılması üçün əvəzsiz vasitələrdir.

ƏDƏBİYYAT

1.Taha,H.A. 2017. Operations Research: An Introduction. Pearson. Google Books Link
2**.** Law, A.M., & Kelton, W.D. 2000. Simulation Modeling and Analysis. McGraw-Hill. McGraw-Hill Link

FORECASTING AND MODELING IN URBAN TRANSPORTATION

Qaliba Rza Mammadova
q.memmedova@atu.edu.az
Zaur Shakir Pashayev
zaur.pasayev.92@mail.ru
Azerbaijan University of Technology

The material examines the importance and effectiveness of applying modeling and forecasting methods in transport logistics research, mainly for urban transport.
Keywords: Transport logistics, Dynamic modeling, Dynamic programming, Freight transportation

İNNOVATİV TEXNOLOGİYALARIN YARADILMASINDA KREATİV FƏALİYYƏTİN ROLU

[1]Şahlar Mahmud oğlu Babayev
shaxlaraqromexanika@mail.ru
[2]Afət Abbas qızı Əsgərova
atu.mss.a.askerova@gmail.com.
[3]Azər Cabbar oğlu Məmmədov
a.mamedov72@mail.ru
[4]Akifə Çingiz qızı Xəlilova
xelilovaakife95@gmail.com
[5]Səbinə Vladimir qızı Kazımova
sabina.kazimova79@mail.ru
[2]Azərbaycan Texnologiya Universiteti
[1,3,4,5]"Aqromexanika" ETİ, Gəncə şəhəri

Çoxsaylı analitik tədqiqatların nəticələrinə əsasən [1;2] qeyd etmək olar ki, tətbiqi-fundamental yönümlü və digər elmlər üzü Aristoteldən bəri dəyişməz "İstəklərin gerçəkləşməsi" tərifinə xidmət edir.

Məqalənin subyektiv anlayış olan "istəklər"-i subyektivlikdən çıxararaq, elmi (fiziki-laborator) üsulla qiymətləndirməyə imkan verən kreativ fəaliyyətə həsr olunduğunu nəzərə alsaq, qarşıya qoyulan məsələnin aktuallığı istisna təşkil etməz. Sərbəst, müstəqil düşüncə nəticəsində məlum elmi biliklərə əsaslanan fəaliyyət olan kreativliyin dəyərləndirilməsində

Patent səviyyəsində innovativ texnologiyaların yaradılması xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, fikrimiz istisna təşkil etməz.

Aktuallığını nəzərə alaraq, məqalədə aşağıdakı məsələlər araşdırılmışdı:

Materialın yeni təyinatla tətbiqi

-içərisində maye preparativ formalı funqisid-(bitkilərin xəstəliklərə qarşı dərmanlanması üçün kimyəvi preparat) olan qaba salınmış paralonun üst səthi ilə ona sıxılaraq, lentli baraban və ya kirkirə tripli nəqletdiricilərin köməyi ilə məcburi hərəkət etdirilən kənd təsərrüfatı bitkiləri toxumların paralonun üst səthində yaratdığı sinusoidal rəqsi hərəkət nəticəsində toxumların xarici səthinin keyfiyyətli dərmanlanmasını təmin edən-porşenli nasos rolunu oynayan paralondan istifadə olunması nəticəsində həmin toxumlardan alınan-gələcək məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsində xüsusi əhəmiyyət kəsb edən səpin materialının zədələnmədən, keyfiyyətli dərmanlanmasına, kütlələrinə görə çeşidlənməsinə, ətraf mühit, torpaqlar və su tutarlarının izafi funqisid kütləsi ilə çirklənməsinin qarşısının alınmasına nail olunması;

-sahədə mədəni bitkidən hündür alaq otlarının məhvi üçün nəzərdə tutulmuş fitil qurğularında paralondan fitil kimi istifadə olunması nəticəsində ətraf mühit, torpaqlar və su tutarlarının izafi pestisid kütləsi ilə çirklənməsinin qarşısının alınmasına nail olmaq.

Qurğularda yeni həndəsi formanınb tətbiqi

-aqrar sektorda maye preparatların fasilələrlə və ya fasiləsiz çilənməsi zamanı sərfiyyat normasını avtomatik tənzimləyən qurğuların müvafiq olaraq fırlanan tıxac tipli maye bölücüsünün gövdə və tıxacında, həmçinin siyirtməsinin gövdə və şiberində açılmış xüsusi həndəsi yerə malik kvadrat və trapesiya formalı pəncərələrdən istifadə etməklə sistemdə texnoloji prosesi pozan-hidravlik zərbənin aradan qaldırılması, verildiyi səthdə preparatların bərabər sıxlıqla paylanmasına nail olunması;

Mühəndis elminin tədqiqat obyekti

İnkişaf:

- intelektual mülkiyyətin maddiləşməsi;
- standartlaşdırma;
- texnologiya.
- Mühəndis elmi: forma-həndəsi, preparativ; parametr-konstruktiv, rejim.

-Müxtəlif mühitlərdə emal: təzyiq, temperatur, duz, elektrik sahəsi, maqnit sahəsi.

-Materialın yeni tətbiq sahəsi: yeni həndəsi formanın tətbiqi.

En kəsiyi çevrə qövsü formalı şırımdan istifadə

-maye pestisidləri torpaqda açılmış-en kəsiyi çevrə qövsü formalı şırımın daxili səthinə çiləməklə işçi məhlulun zolağın en götürümü üzrə bərabər sıxlıqla paylanmasına, ekoloji mühitin çirklənməsinin qarşısının alınmasına və kimyəvi pereparatların təsir mexanizminin yüksəldilməsinə nail olunması.

Yeni avtomatlaşdırma vasitələri

- çiləmə zamanı çiləyici ştanqın yerin səthindən olan məsafənin avtomatik nizamlanması;
- çiləmə zamanı çiləyici ştanqın traktorun hərəkət istiqamətinə perpendikulyar müstəvidə arzuolunmaz rəqslərinin aradan qaldırılması;
- çiləmə zamanı məhlul sərfi normasının, kollektorun vəziyyətinin bəzi epizodik təsirlərdən yaranan çatışmazlıqlarının avtomatik tənzimlənməsi.

Konkret təyinatlı yeni qurğuların tətbiqi

- işçi məhlulun tələb olunan obyekt (bitkinin səthinə və ya torpağa) üzərinə məcburi çökdürülməsi üçün təklif olunan qurğunun köməyi ilə kimyəvi preparat israfçılığının qarşısının alınması, bitkinin hündürlüyü boyu bütün yaruslarının kimyəvi preparatlarla daha keyfiyyətlə təmasda olmasına nail olunması;

-lentli, baraban tipli, kirkirə tipli dərmanlayıcılardan istifadə etməklə mürəkkəb forma və parametrli pambıq, taxıl və başqa kənd təsərrüfatı toxumlarını zədələmədən yüksək keyfiyyətlə və böyük məhsuldarlıqla dərmanlanmasına və çeşidlənməsinə nail olunması.

ƏDƏBİYYAT

1.Ş.M. Babayev Standartlaşdırmada mühəndis elminin rolu. Gəncə Regional Elm Mərkəzi. Xəbərlər məcmuəsi. №10. Gəncə. 2013-cü il

2.Ş.M. Babayev və b. İxtisasa giriş, (dərs vəsaiti). Az.RTN-nin qrifli nəşri. Bakı 2014, s. 100-104

THE ROLE OF CREATIVE ACTIVITY IN THE CREATION OF INNOVATIVE TECHNOLOGIES

[1]Shahlar Mahmud oglu Babayev
shaxlaragromexanika@mail.ru
[2]Afat Abbas gizi Askerova
atu.mss.a.askerova@gmail.com
[3]Azer Jabbar oglu Mammadov
a.mamedov72@mail.ru
[4]Akifa Chingiz gizi Khalilova
xelilovaakife95@gmail.com
[5]Sabina Vladimir gizi Kazimova
sabina.kazimova79@mail.ru
2Azerbaijan University of Technology
1,3,4,5"Agromexanika" Research Institute, Ganja city

The article is dedicated to examining some issues that are key elements of creative activity in the creation of innovative technologies.

Keywords: innovation, technology, development, creative activity

CAUSES OF DESTRUCTION OF RAILWAY WHEELS DURING OPERATION

[1]Ihor Alex. Vakulenko
[1]vakulenko_ihor@ukr.net
[2]Serhii Plitchenko
[2]plit4enko@ukr.net
[1,2] Dniprovsky State Technical University. Ukraine

During interaction railway wheel with a rail, in a thin layer of rim metal, development of strain hardening processes is accompanied by different intensity accumulation of crystalline structure defects in the phase components of carbon steel. Considering structure of the steel wheel after manufacture consists of grains of structurally free ferrite and pearlite colonies different dispersion, degree of accumulation of crystalline structure defects determines their resistance to the formation centers of destruction. During braking of a rolling stock, from wheel slippage along a rail, the metal is heated along the contact surface to temperatures of the beginning of phase transformations.

Based on this, the total effect of plastic deformation with high localization and high-speed heating with subsequent cooling lead to the replacement of ferrite-pearlite structures after manufacture of a railway wheel with a multiphase mixture consisting ferrite-cementite mixture of different dispersion and morphology to bainite-martensite structures. As a result of significant differences in the crystalline structure of the indicated phase components and their ability to flow plastically, the interphase boundaries become places where the nuclei of metal destruction are formed.

The process formation surface damage of a railway wheel can be represented as consisting of successively developing processes structural changes of metal. Indeed, non-uniform plastic deformation on the rolling surface and subsequent heating of metal during braking of a rolling stock lead to formation structures with different morphology of cementite particles. In fact, the carbide phase, in comparison with a pearlite colony, which is capable of acting as a single whole during deformation, actually turns into particles at form of fragments from cementite plates.

Subsequent heating to the average temperature range leads to different degree development of cementite spheroidization processes. As a result, particles of carbide phase of different morphology and dispersion are present in the steel structure, which are not capable of plastic deformation. Thus, the presence of adjacent micro volumes of metal with significant differences at complex of properties and ability to plastic deformation become places probable formation of metal destruction. Thus, with a certain degree of confidence it can be assumed that the change at morphology of the carbide phase is the initial moment of qualitative changes in the metal and, as a consequence, a set of properties. As a result, change at ability of the metal

to strain hardening, its resistance to the formation of defect nuclei on the rolling surface of the railway wheel changes. Proportionally to the growth braking intensity of the rolling stock, the corresponding increase at heating temperature of the metal can exceed onset of phase transformations in carbon steel. In this case, high-speed heating, with a significant temperature gradient over the metal cross-section leads to the formation of a multiphase structure consisting of austenite and carbide particles different dispersion. Subsequent accelerated cooling of the wheel metal with such a structure leads to the transformation of austenite by an intermediate or shear mechanism.

Differences in the crystalline structure of the phase components determine their ability to participate at propagation of local plastic deformation over the rolling surface of the railway wheel. The formed sections of the structure, consisting of a martensite-bainite mixture, after only minor plastic deformations turn into places of metal destruction Thus, the main causes of damage to the rolling surface of a railway wheel are arranged in a certain sequence. The ratio of the plastic deformation gradient on the rolling surface, heating to the temperatures onset of phase transformations and cooling determine the structural state of metal rim of a railway wheel as a whole. Heating of plastically deformed steel to the average temperature range provides effect of embrittlement from substructure strengthening. An increase at heating temperature to the austenitic state from the wheel sliding on the rail with subsequent cooling leads to the transformation of austenite by an intermediate or shear mechanism [1]. The resulting areas of metal with a bainite or martensite structure become places formation of micro cracks on the rolling surface of the wheel [2, 3].

REFERENCES

1. Bhadeshia, H. K. D. H. 2017. Atomic mechanism of the bainite transformation. HTM Journal of Heat Treatment and Materials,7 (6):340-345 https://doi.org/10.3139/105.110338

2. Vakulenko, I.O., Vakulenko, L.I., Bolotova, D.M., Kurt, B., Asgarov, H., & Colova, O. (2022). Influence structure on the plasticity of carbon steel of the railway wheel rim in operation. Scientific Journal of Silesian University of Technology, Series Transport, 115, 183-192. http://dx.doi.org/10.20858/sjsutst.2022.115.13

3. Vakulenko, I., Proidak, S., & Perkov O. (2016). Investigation of slide mechanism of tread during operation of railway wheel. Scientific journal of silesian university of technology. Series transport, 90, 185-193.

THE EFFECT FERRITE GRAIN SIZE ON THE CYCLIC STRENGTH OF LOW-CARBON STEEL

[1]Ihor Alex. Vakulenko

[1]vakulenko_ihor@ukr.net

[2]Serhii Plitchenko

[2]plit4enko@ukr.net

[3] Kateryna Shevelieva

[3] katerin.120201@gmail.com

[1-3] Dniprovsky State Technical University. Ukraine

The effect of ferrite grain size on strength properties under static and cyclic loading was studied for low-carbon steel. Based on the analysis of study results, it was found that under static deformation, effect of ferrite grain boundaries begins to prevail over solid-solution strengthening, starting with grain sizes less than 250 μm. Under cyclic loading, a similar relationship between the indicated effects shifts to the region of grain sizes approximately an order of magnitude smaller.

The purpose of the work. Explanation behavior of low-carbon steel with different ferrite grain sizes under static and cyclic loading.

The material for study was low carbon steel with a carbon content of 0.1 %. The ferrite grain size was obtained using various thermal and thermomechanical treatments. The study

of the behavior of the metal under static and cyclic loading was carried out with a symmetric cycle of alternating bending. The ferrite grain size was determined using quantitative metallography methods. The assessment of the separate effect of the state of the solid solution and ferrite grain boundaries on the yield stress and fatigue strength of the metal was carried out by analyzing Hall-Petch diagrams.

For the low-carbon steel, under cyclic loading with alternating bending under at symmetrical cycle, the stress of the cycle amplitude under unlimited fatigue life (σ_{-1}) decreases with increasing ferrite grain size (d). The nature of the dependence is subject to the relationship:

$$\sigma_{-1} = \sigma_i + k_y d^{-0.5} \quad (1)$$

where σ_i is the cycle amplitude under infinitely large grain size, k_y is the value of grain boundary resistance to deformation propagation under cyclic loading.

Extrapolation the graphically constructed dependence $\sigma_{-1}=f(d^{-0.5})$ to intersection with the ordinate axis (at $d^{-0.5}=0$) allowed us to determine value of σ_i equal to 90 MPa, and k_y of the order of 11 N/mm$^{3/2}$. From the graphic dependence $\sigma_{-1}=f(d^{-0.5})$, σ_i is a characterizes the stress resistance of the metal to the movement of dislocations during elementary shear in ferrite under cyclic loading. By its nature, σ_i is similar to the friction stress of a crystal lattice under static deformation.

Comparative analysis showed that σ_i=90 MPa significantly exceeds the similar characteristic of static loading (σ_i^1=50 MPa). Considering that σ_i is a sensitive characteristic to changes at concentration of impurity atoms forming the interstitial solid solution, it can by change significantly. Absolute values of σ_i, caused primarily by the concentration of impurity atoms in ferrite, are actually capable of explaining the nature of the influence of the structural state of the metal on the strength properties at cyclic loading after various thermal and thermomechanical treatments of carbon steel.

Thus, for static loading of low-carbon steel, parameters equation (1) were σ_i^1 = 50 MPa and k_y^1 = 27 N/mm$^{3/2}$. Under cyclic loading, the excess for σ_i was 40 MPa. While k_y^1 exceeds the similar characteristic of cyclic loading by approximately 2.5 times. One explanation for this is a more effective blocking of mobile dislocations by carbon atoms when the stress sign changes within the cycle. This mechanism of influence is confirmed by the results of studies on changes at nature of moving dislocations. Under the same degree of plastic deformation, replacing unidirectional loading with alternating loading is accompanied by an increase at probability of dislocation slip in another crystallographic system [1-3]. Thus, if for a cubic body-centered lattice, depending on the temperature, static deformation is provided by the movement of dislocations along one of three crystallographic planes {110}, {112) or {123} with directions <111>, then cyclic deformation has its own characteristics [4].

Indeed, if we imagine that when the sign of loading changes during a cycle, the reverse movement of dislocations in ferrite is accompanied not only by annihilation, but also by their transition to other slip systems. As a result of changing the crystallographic slip system, the probability of dislocation blocking by carbon atoms should increase, which is confirmed by the increase at value of σ_i. For another characteristic of equation (1) k_y, a difference was also found compared to static deformation. Indeed, if we consider that after the current stress reaches the level σ_i, further propagation of dislocations into the neighboring ferrite grain will be controlled only by the value of k_y. Compared to static deformation, effect grain boundaries of the ferrite on the strength of steel under cyclic loading is significantly less.

Based on this, conditions for the propagation of plastic deformation during the transition from static to cyclic loading are as follows:

$$\sigma_i > \sigma_i^{\,1},\ k_y < k_y^{\,1} \quad (2)$$

In accordance with relations (1) and (2) and the analysis of the behavior of low-carbon steel from the loading scheme, it was found that during static deformation, the effect of ferrite grain boundaries begins to prevail over solid-solution strengthening, starting from grain sizes less than 250 μm. Under cyclic loading, a similar ratio between effects on strength of steel at by solid solution and ferrite grain boundaries shifts to the region of grain sizes approximately an order of magnitude smaller.

REFERENCES

1. Vakulenko, I. A., & Proydak, S.V. 2014. The Influence Mechanism of Ferrite Grain Size on Strength Stress at the Fatigue of Low-Carbon Steel. Science and Transport progress, 1(49), 97-104
2. Cizek, P., Kada, S.R., Wang, J., Armstrong, N., Antoniou, R.A., Slater, S., & Lynch, P.A. (2024). Dislocation structure evolution during room temperature dwell loading of a Ti-6Al-4 Valloy.MaterialsCharacterization,209,113757.https://doi.org/10.1016/j.matchar.2024.113757
3.Dannoshita, H., Hasegawa, H., Higuchi, S., Matsuda, H., Gong, W., Kawasaki, T., Harjo, S., & Umezawa, O. (2022). Evolution of dislocation structure determined by neutron diffraction line profile analysis during tensile deformation in quenched and tempered martensitic steels. Materials Science and Engineering: A, 854, 143795. https://doi.org/10.1016/j.msea.2022.143795
4. Vakulenko, I. Alex., Vakulenko, L., Dal, S., Asgarov, H., Bolotova, D., & Kurt, B. (2023). Structure Evolution in Steels of Railway Wheels at Manufacture and Operations. Ankara: Nobel Bilimsel, Eserler. ISBN-13: 978-6253930561.

ОСОБЕННОСТИ И ПРОБЛЕМЫ РАЗВИТИЯ ЭРГАТИЧЕСКИХ СТРОИТЕЛЬНЫХ СИСТЕМ

Алияр Баларза Оглы Гасанов[1]
Виктория Алексеевна Гаевская[1]
aliargasanov57@gmail.com
Республика Украина,
Харьковский Государственный Биотехнологический Университет[1]

Понятие «эргатическая система» относится к категории производственных схем. Таким образом она состоит из двух обязательных компонент: управляющей и управляемой. В качестве управляющей выступает работник производства или рабочая производственная группа. Управляемая – технические устройства (машины, механизмы, оборудование), которые помогают реализовать задачи производства в определённом технологическом порядке [1,2]. Основными особенностями таких систем являются социально-психологические аспекты, которые формируют как преимущества, так и недостатки.

К неоспоримым преимуществам эргатических систем можно отнести их логичное построение, эволюционирование, возможность принятия решений в критических ситуациях [1,2].

В настоящее время эргатические системы широко распространены. Примером таких систем являются: управляемые блоки атомных и электростанций; системы управления летательными аппаратами; диспетчерские службы аэропорта, вокзала. На этих объектах эргатические системы– необходимое условие их надёжной работы.

Классифицирование данных систем позволяет оптимизировать их уровень. Эргатичекские системы классифицируют по целевому назначению и по характеру деятельности человека. Выделяют следующие группы систем «человек-машина»:
– управляющие, обслуживающие, обучающие, информационные.

Управляющая группа полагает своей основной задачей управление производственником или группойпроизводственников техническим устройством или машиной.

Обслуживающая группата,что определяет задачей человека контроль за состоянием производства или машины. Система включает в себя поиск неисправностей, причин сбоя процесса производства и т.п.

Обучающая группа сосредоточена на применении курсов и тренингов, способствующих выработке у производственника эффективных инновационных навыков работы в системе.

Информационная группа обеспечивает поиск и накопление, получение и применение необходимой для производственника информации.

Наиболее распространена эргатическая система управления и человек-оператор. Под человеком-оператором подразумевается работник, основа трудовой деятельности которого определяется взаимодействием с предметом труда, техническим устройством или внешней средой, посредством информационной и управляющей моделей.

Для нормального функционирования абсолютно все системы, в том числе и эргатическая нуждаются в поддержании оптимальных условий труда, его комфортностью. Комфортные условия характеризуются определёнными температурой производственного помещения, влажностью воздуха, парциальным давлением, освещённостью, вибрационными воздействиями и рабочими перегрузками [3].

К особенностям развития строительных эргатических систем на современном этапе можно отнести следующее.

Активное внедрение цифровых технологий (BIM, цифровые двойники, ИИ) [2, 4].

Переход от ручного труда к автоматизированному управлению машинами [3, 5].

Развитие гибких и адаптивных систем, способных работать в нестабильных условиях строительной площадки [3].

Повышение требований к профессиональной подготовке персонала и цифровой грамотности [4, 6].

Эффективность функционирования строительных эргатических систем в значительной мере зависит от ряда проблем, связанных с их внедрением и развитием.

1. Кадровый дефицит: нехватка специалистов, способных работать с новыми технологиями.
2. Высокая стоимость модернизации оборудования и обучения.
3. Низкая степень стандартизации интерфейсов человек-машина [1, 7].
4. Технические ограничения современных роботизированных комплексов (точность, устойчивость к внешним условиям) [5].
5. Консерватизм строительной отрасли, замедляющий инновации.
6. Риски в сфере эргономики и безопасности взаимодействия человека с машиной [3, 7].

Результат

Развитие эргатических систем в строительстве является перспективным направлением, способным повысить эффективность и безопасность строительных процессов. Однако реализация потенциала этих систем требует комплексного подхода – технологического, организационного и образовательного. Обеспечение эффективности систем связано с решением проблемы обновления и перенасыщения активной части основных фондов строительных организаций, а, следовательно, и созданием новых технологий, приростом интеллектуального потенциала, повышением уровня инвестиций в эту отрасль народного хозяйства и стабильностью производственных условий.

REFERENCES

1. Архипов В.П., Лебедев А.И. Человеко-машинные системы: теория и практика. – Москва. Изд-во МГТУ им. Н.Э. Баумана, 2019.
2. Егоров Ю.М. Информационные технологии в строительстве. – СПб.: Питер, 2020.
3. Хазанов А.Н., Литвиненко А.С. Эргономика и безопасность в строительстве. – Москва. Академия, 2018.
4. Eastman C., Teicholz P., Sacks R., Liston K. BIM Handbook: A Guide to Building Information Modeling. – Wiley, 2018.
5. Bock T., Linner T. Construction Robots: Elementary Technologies and Single-Task Construction Robots. Cambridge University Press, 2016.
6. Сафин Р.Г. Цифровизация строительной отрасли: вызовы и решения. Вестник строительства. 2021. №2. с. 10–15.
7. ISO 9241-210:2019. Ergonomics of human-system interaction. Part 210: Human-centred design for interactive systems.

FEATURES AND PROBLEMS OF DEVELOPMENT OF ERGATIC CONSTRUCTION SYSTEMS

Aliyar Balarza Oglu Hasanov[1]
Viktoriia Alekseevna Haievska[1]
aliargasanov57@gmail.com
Kharkiv State University of Biotechnology[1]

The paper discusses current trends in the development of construction ergatic systems. These systems enable the optimization of production processes and ensure a significant increase in the efficiency, safety, and cost-effectiveness of construction activities. The implementation of BIM models, digital twins, and artificial intelligence facilitates the transition from traditional methods to modern automated approaches. The study identifies key challenges such as a shortage of qualified personnel, high costs of equipment modernization, and the lack of unified human-machine interaction standards.

Keywords: ergatic systems, oversaturation of fixed assets, intellectual potential, industrialization of construction, environmental requirements, man-machine.

DƏMİR YOLU NƏQLİYYATINDA BAŞ VERƏN FÖVQƏLADƏ HALLAR, ONLARIN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI.

[1]İ.Ş. Elyazov
[2]F.F.Şahgəldiyev
sahgeldiyev55@gmail.com
[1]Azərbaycan Memarlıq və İnşaat Universiteti
[2]Bakı Mühəndislik Universiteti

Azərbaycan Respublikasının (AR) dəmir yolu nəqliyyatı yol-nəqliyyat kompleksində aparıcı sahələrdən biridir. Dəmir yolu nəqliyyatında baş verən hadisələrin əsas səbəbləri ən çox hərəkət vaqonlarının relsdən çıxması, toqquşmalar, keçidlərdə maneələrlə toqquşma, yanğınlar və bilavasitə vaqonlarda baş verən partlayışlardır. Təhlükəli yüklərin (TY) daşınması zamanı maye qazlar, tez alışan, partlayıcı, zəhərli maddələr, sızmalar və partlayışlar baş verir ki, bu da ərazinin çirklənməsi ilə nəticələnir. [1].

Araşdırmalar göstərir ki, ən təhlükəli qəzalar yanğınla müşayiət olunan qəzalardır, yalnız yanğın lokallaşdırıldıqdan sonra qəzanın nəticələrinin aradan qaldırılması və qatarların hərəkətinin bərpası üçün bütün işlər görülə bilər.

İşin əsas məqsədi dəmir yolu nəqliyyatında baş verə biləcək fövqəladə hallar, onların səbəbləri, aradan qaldırılması zamanı görülən xilasetmə və təxirəsalınmaz işlərin təşkili, mövcud vəziyyəti və xüsusiyyətlərinin araşdırılmasından ibarətdir.

FH-da qəza-xilasetmə işlərinin planlaşdırılması və təşkili aşağıdakılardır:–iri hərəkətli vaqonların kütləsi;–vaqonun yüksək sürəti (200 km/saata qədər), təcili əyləc məsafəsi isə yüzlərlə metrdir;–marşrut boyunca təhlükəli yol hissələrinin olması (körpülər, tunellər,

enişlər, yoxuşlar, keçidlər);–yüksək gərginlikli elektrik cərəyanının olması (30 kV-a qədər);–qəzanın səbəblərinə insan amilinin təsiri (lokomotiv idarəetmə, qatarların yığılması, göndərilməsi);–müxtəlif zərərverici amillər və onların birləşməsinin təhlükəsi; –qəza yerinin xilasedicilər, yanğınsöndürənlər və mütəxəssislər üçün əlçatmazlığı (bataqlıqlar, kolluqlar, hündür bəndlər; böyük stansiya və qovşaqlarda xeyli sayda dəmir yolu relsləri və s) [2].

Terror aktları zamanı DYN-da qəzalar baş verir: körpülərin, dəmir yollarının, vaqonların, elektrik xətlərinin dayaqlarının və digər obyektlərin, tikililərin partladılması və s. Təcili bərpa əməliyyatlarını təhlükəsiz həyata keçirmək üçün ilk növbədə döyüş sursatı, partlayıcı maddələrin axtarışı və zərərsizləşdirilməsi xüsusi istehkamçılar tərəfindən həyata keçirilir. Ərazinin, hərəkət vaqonunun, yükün qazsızlaşdırılması və zərərsizləşdirilməsi üçün ixtisaslaşmış kimyəvi və radiasiyadan mühafizə bölmələrinin cəlb edilməsi planlaşdırılır. Məlumatlarda, FH-nin baş vermə tarixi, vaxtı və yeri, qatarın məlumatları, ölənlərin və xəsarət alanların sayı, hərəkət vaqonlarına, obyektlərə və tikililərə dəymiş ziyanın dərəcəsi, vəziyyətlərin təsviri, meteoroloji şərait, ərazi və qəza yerinə giriş şəraiti, yükün və qəza-bərpa əməliyyatlarının məlumatları göstərilir. Relsdən çıxmış vaqonda təhlükəli yük olarsa və əhali üçün təhlükə yaranarsa, onda yerli hakimiyyət orqanlarına və FHN-nın regional orqanlarına dərhal məlumat verilməlidir ki, təhlükəsizlik qaydalarına uyğun olaraq təhlükəli yüklərlə baş vermiş nəqliyyat qəzalarının nəticələrinin aradan qaldırılması üçün ixtisaslaşdırılmış bölmələr cəlb edilsin. Xilasetmə işləri təşkil edilərkən: –qəza və fəlakətlər marşrut boyu, bir qayda olaraq, qəflətən, əksər hallarda yüksək sürətlə baş verir, bu da zərərçəkmişlərin bədən xəsarətlərinə, şok və ölüm hallarının baş verməsinə səbəb olur;–qəza və ya fəlakət haqqında etibarlı məlumatın vaxtında alınmaması yardımın göstərilməsində gecikmələrə, qurbanların sayının artmasına, o cümlədən qurbanlar arasında sağ qalma bacarıqlarının olmamasına səbəb ola bilər;–xilasetmə işlərinin ilkin mərhələsində, bir qayda olaraq, xüsusi texnikanın, zəruri yanğınsöndürmə vasitələrinin olmaması və qəza yerindən səmərəli təxliyə tədbirlərinin təşkilində çətinlik;–qəza və ya fəlakət yerində zərərçəkənlərin sayının müəyyən edilməsinin çətinliyi, müalicənin xüsusiyyətləri nəzərə alınmaqla onların bölüşdürülməsi və tibb müəssisələrinə göndərilməsi zərurəti;–təhlükəli yüklərin daşınması zamanı qəza və ya fəlakət zamanı vəziyyətin mürəkkəbləşməsi;–ölənlərin qalıqlarının və təbii fəlakətin maddi sübutlarının axtarışını təşkil etmək zərurəti, əksər vaxtlarda geniş ərazilərdə;–həlak olanların gələn qohumlarının qəbulunun, yerləşdirilməsinin və xidmətlərinin (yemək, rabitə xidmətləri, nəqliyyat və s.) təşkili, mərhumun dəfn olunduğu yerə aparılması;–zədələnmiş marşrutlarda hərəkətin bərpa edilməsi zərurəti və s. nəzərə alınır. İdarəetmənin səlahiyyətlərinə: –yanğının söndürülməsinin təşkili;–insanların, avadanlıqların və hərəkət vaqonlarının təhlükəli qəza zonalarından təxliyəsi;–obyektlərin və hərəkət vaqonlarının mühafizəsi;–təhlükəli hadisənin baş verdiyi yerin kəşfiyyatı;–təhlükə zonasının sərhədlərinin müəyyən edilməsi və əhaliyə xəbərdarlıq edilməsi;–qurbanlara tibbi yardımın təşkili;–qəza-bərpa işləri zamanı zəruri təhlükəsizlik tədbirlərinin görülməsi;–qəzanın nəticələrinin aradan qaldırılması; qatarların hərəkətinin bərpası;–yanğın bölmələrinin hərəkətlərinin təmin edilməsi;–dəmir yolu bölmələrinin və birləşmələrinin işə cəlb edilməsi kimi vəzifələr aiddir [1,3].

Nəticələr. DYN-da təhlükəli yüklərin daşınması zamanı baş verən qəzaların səbəblərinin əksəriyyəti vaqonlarının nasazlığı və köhnəlməsi**,** həm də təhlükəsizlik tələblərinin pozulması hallarıdır. Qəza-bərpa işlərinin təşkili və aparılması-nəqliyyat hadisələrinin təhlükəsi və baş verməsi barədə xəbərdarlıq sistemini daha da təkmilləşdirməyi, onların nəticələrinin aradan qaldırılmasına operativ reaksiya verməyi, habelə fövqəladə halların qarşısının alınması və ya aradan qaldırılması üçün qüvvələrin əlaqələndirilməsinin və sıx qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi mühüm şərtlərdəndir.

ƏDƏBİYYAT

1. Elyazov İ., Həsənli E., Həsrətova L. Dəmir yolları (Ali məktəblər üçün dərslik, Kooperasiya nəşriyyatı, Bakı, 2014, 280 s
2. Jianxi Xu, Zhao Tang, Xiaolin Yuan, Yinyu Nie, Zong Ma, Xihui Wei, Jian J. Zhang. A VR-based the emergency rescue training system of railway accident. Entertainment Computing, 2018, Vol. 27, pp. 23,31
3. Wang D., Zhang T. Engineering accidents in society: A comparison of Chinese and American railway accident investigation. Technology in Society, 2015, Vol. 43, pp. 69-74.

EMERGENCIES OCCURRING IN RAILWAY TRANSPORT, THEIR CAUSES AND ELIMINATION OF THEIR CONSEQUENCES.

I.Sh.Elyazov [1]
F.F.Shahgeldiyev[2]
sahgeldiyev55@gmail.com
[1]Azerbaijan University of Architecture and Construction
[2]Baku Engineering University

The presented work is devoted to the investigation of emergencies that may occur in railway transport, their causes, rescue and urgent work carried out during their elimination, as well as the current state and characteristics of emergency recovery work. Studies show that the main causes of accidents occurring in railway transport are mainly derailments of moving wagons, collisions, collisions with obstacles at crossings, fires and explosions directly in wagons. It is noted that the warning system for the threat and occurrence of traffic accidents should be further improved, an operational response should be provided to eliminate their consequences, as well as coordination of forces and improvement of close interaction to prevent or eliminate emergencies are important conditions. Improving the elements of the transportation process, such as organizational-technical, technological, information, personnel, etc., can create conditions for qualitatively improving the safety of train traffic that meets modern requirements.

Keywords: railway transport, emergencies, dangerous goods, accident signs, transportation, emergency recovery work.

LOGISTIK NƏQLIYYAT KOMPKELSINDƏ NƏQLIYYAT MÜƏSSISƏLƏRININ IŞINDƏ YARANAN PROBLEMLƏRIN TƏHLILI

Bəhram Zülfi oğlu Verdiyev
verdiyevb@mail.ru
Həsən Məmməd oğlu Fərzəlizadə
ferzelizadehesen@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Logistikanın ayrılmaz tərkib hissələrindən biri nəqliyyat müəssisələridir. Nəqliyyat müəssisələri yük və sərnişin daşımalarının təşkili, nəqliyyat axınlarına nəzarət edilməsi, logistika xidmətlərinin göstərilməsi kimi prosesləri icra edir.

Nəqliyyat müəssisələrinin səhfsiz və sistemli şəkildə iş görməsi nəticəsi , sərnişin və yüklərin təyinat yerinə çatdırılması, bununla yanaşı ticarətin, istehsalatın fasiləsiz işinin təmin olunmasına gətirib çıxarır.

Müəssisə və firma hazır məhsulun bölüşdürmə xətlərini həyata keçirərkən daşınma ilə əlaqəli məsələləri yoluna qoymalıdır, bu məsələlərə ilk növbədə : daşınmanın necə təşkil olunacağı üsullarını və nəqliyyat vasitələrinin növünü seçməlidir. Müəssisə nəqliyyat vasitələrini seçərkən həmin bu istifadə olunacaq nəqliyyat vasitəsinə daşınacaq yükün xüsusiyyyəti və yaxud da əksinə daşınacaq yükə görə nəqliyyat vasitəsinin uyğunluğu prosesləri həll olunmalıdır.

Nəqliyyat vasitələrinin seçilməsində rol oynayan göstəricilər var ki bunlar : yükün nəqliyyat vasitsəsinə verəcəyi zərər , yəni yükün təhlükəsiz olması , nəqliyyat vasitəsinin yük götürmə və daşıma qabiliyyətindən maksimum şəkildə istifadə edilməsi daşınma zamanı çəkilən xərclər aşağı salacaqdır.

Müəssisənin effektiv şəkildə idarəedilməsi nəqliyyat vasitələri, yanacaq, işçi qüvvəsi və müəssisənin infrastrukturu kimi qaynaqlardan münasib şəkildə istifadə olunmasını təmin edir.

Müəssisədə məhsuldarlığın artmasına aşağıdakı proseslər təsir edə bilər :

- daşımanın təşkili və nəqliyyatın idarə edilməsi üzrə proseslər mütəxəssislər tərəfindən idarə olunmalı ;
- daşıma qrafikini əvvəlkindən daha məhsuldar hala gətirmək;
- daşınma zamanı yüklərin təhlükəsizliyi və mühafizəsinə nəzarət etmək ;
- malların seçilməsi və çatdırılması üçün müəssisəyə faydalı ola biləcək əlavə xidmətlərin olması ;
- marşrut xəttini diqqətlə planlaşdırmaq vaxta qənaət etmək üçün yaxşı bir yoldur ;
- GPS-dən istifadə etmək yoldakı tıxaclarla ilə bağlı təcrübəni artırmağa kömək edəcəkdir bununla yanaşı yanacaq xərclərini azaldmaq üçün yaxşı bir yoldur ;
- daşımaya ən uyğun nəqliyyat növünü seçməklə, müəssisələr daşınma xərclərini ən münasib hala gətirə və daşınmaya sərf olunan vaxtlarını minimuma endirə bilərlər. Həm də bu proseslər müəssisənin ümumi əməliyyat səmərəliliyini artırmaqa kömək edəcəkdir.
- müştərilər və sifarişlər bağlı məlumat toplamanı, idarəetməni təkmilləşdirmək : bu yol məhsuldarlığın yüksəldilməsi üçün ən az istifadə edilən strategiyalardan sayılır . Bu strategiyadan istifadə kağız, yazı işləri ilə bağlı itirilən vaxtı aradan qaldırmaq deməkdir.
- müşdəri xidmətlərini daha faydalı hala gətirmək : Nəqliyyatın doğru idarə edilməsi müştəri xidmətinin keyfiyyətinə təsir göstərən mühüm amildir. Güvənilir və sürətli şəkildə çatdırılma şirkət haqqında ümumi təsəvvürü müsbət yönlü gücləndirərək müştəri məmnuniyyətinə töhfə verir.
- müəssisənin göstərdiyi texniki xidməti təkmilləşdirə və müştərilərə məhsul daşımalarla bağlı gecikmələr üçün məlumat vermək .
- müəssisə işçilərinin çatışmayan ixtisas səviyyəsi, məhsuldarlığa mənfi təsir göstərə bilər.

Yuxarıda sadalanan bütün bu təkmilləşdirmələr gəlirliliyə birbaşa təsir edir , bununla yanaşı müəssisənin işinin gedişatına rol oynayır.

Logistik nəqliyyat kompkelsində nəqliyyat müəssisələrinin işində yaranan problemlərin təhlili onu göstərir ki, müəssisə məhsul bölüşdürməsi ilə bağlı məsələləri həll edərkən , müəssisənin effiktiv şəkildə idarəedilməsində göstərilən yollardan istifadə edilməlidir.Yəni müəssisə daxili sadalanan prosesləri təkmilləşdirmək müəssisənin məhsuldarlığına təsir edən vacib şərtdir.

Analysis of problems arising in the work of transport enterprises in the logistics transport complex

Bahram Zulfi Verdiev
verdiyevb@mail.ru
Hasan Farzalizadeh
ferzelizadehesen@gmail.com

A research study was conducted to analyze the problems arising in the work of transport enterprises in the logistics transport complex. At this time, the problems arising in the work of transport enterprises and their solutions were analyzed.

Keywords: transport enterprise, enterprise problems, customer, transportation, service

AZƏRBAYCANDA TƏHLÜKƏLİ YÜKLƏRİN DAŞINMASININ MÜASİR VƏZİYYƏTİ

Həcər Siyavuş qızı Hüseynzadə
kh.guseynzade@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Bu gün müasir dünyada yüklərin təhlükəsizliyinə diqqətin artması müşahidə olunur. Təhlükəli yüklər fövqəladə halların yüksək riski ilə əlaqəli olduğundan xüsusi diqqət tələb edir [4]. Təhlükəli yüklərin daşınması ilə bağlı qəzaların nəticələrinin ağırlığı təhlükəli yüklə əlaqəli olmayan yol qəzalarından dəfələrlə böyükdür [7]. Onların daşınmasında pozuntular nəticəsində yarana biləcək əsas təhlükələrə zəhərli maddələrin sızması, yanğın, partlayış və s. daxildir. Texniki zədələnmələrlə yanaşı, ətraf mühitə də ziyan dəyir. Buna görə də təhlükəli yüklərin daşınması xüsusi diqqətə layiqdir və daha sərt daşıma qaydaları tələb edir.

Bu məsələ ilə bağlı təhlükəli yüklərin daşınmasına dair vaxtaşırı yenidən baxılan və düzəlişlər edilən respublika və beynəlxalq səviyyəli qaydalar hazırlanıb və müqavilələr qəbul edilibdir. Bunlardan "İATA Təhlükəli yüklərin daşınması Qaydaları"nı, "Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə beynəlxalq daşınmasına dair Avropa Sazişini (ADR)", Azərbaycan Respublikasının «Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları»nı, "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"nı, «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları"nı göstərmək olar.

Təhlükəli yüklərin daşınması məsələsinin aktuallığını nəzərə alaraq Azərbaycanda belə daşımaların mövcud vəziyyətinin təhlili aparılmışdır.

Aparılan təhlillərlə müəyyən edilmişdir ki, respublikamızda təhlükəli yüklərin daşınmasının təhlükəsizliyinin yüksəldilməsi yollarından biri daşıma qaydalarının pozulmasına görə cərimələrin artırılmasıdır. Belə ki, Azərbaycanda hava nəqliyyatı ilə təhlükəli yüklərin daşınmasına nəzarətin gücləndirilməsi məqsədilə bu nəqliyyat növü ilə təhlükəli yüklərin, silah və sursatların daşınması qaydalarının pozulmasına görə cərimələr artırılıb. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi təklif olunub [3].

Təklif olunan qanun layihəsinə əsasən, daşınma şərtləri pozulduqda təhlükəli yüklər, silah və sursatlar müsadirə olunacaq, fiziki şəxslər 250 manat, vəzifəli şəxslər 500 manatdan 1500 manatadək məbləğdə, ekoloji cəhətdən təhlükəli maddələrdən olan radioaktiv tullantıların, təkrar istifadəyə yararlı işlənmiş nüvə yanacağının, qanunla müəyyən edilmiş siyahıya uyğun olaraq zəhərli və digər təhlükəli tullantıların hava ilə daşınmasına görə isə fiziki şəxslər 4000 manat, vəzifəli şəxslər- 8000 manat, hüquqi şəxslər 15000 manat məbləğində cərimə ediləcəklər. Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınmasına müvafiq hazırlığı olmayan kadrlar cəlb edildikdə fiziki şəxslərə 1500 manat, vəzifəli şəxslərə 3000 manat, hüquqi şəxslərə 10000 manat məbləğində cərimə tətbiq edilməsi təklif edilir.

Təhlükəli yüklərin daşınması zamanı vacib məsələlərdən biri də təyyarənin göyərtəsində şəxsi heyətin davranışıdır. Buna görə də qanun layihəsində cərimələrin artırılması nəzərdə tutulur. Məsələn, hava gəmisinin kapitanının gəminin göyərtəsində olan şəxslərin və əmlakın təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş qanuni göstərişlərinə əməl edilməməsinə görə cərimələr 100 manatdan 1000 manatadək artırılacaqdır [3].

O da müəyyən edilmişdir ki, son vaxtlara qədər respublikamız təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınmasına icazə sertifikatı ilə xaricə çıxarılmasında problemlər yaşayırdı [6]. Azərbaycan dilində bir il müddətinə verilən sənədin beynəlxalq standartlara cavab verməməsinə görə təhlükəli yükü olan nəqliyyat vasitələri xarici dövlətlərlə sərhəddən keçə bilmirdi və ya avtomobil nəqliyyatı ilə təhlükəli yüklərin beynəlxalq daşınmasını Azərbaycan daşıyıcıları deyil, beynəlxalq ADR müqaviləsinə qoşulmuş ölkələrin şirkətləri həyata keçirirdi.

Bu şəhadətnamənin digər çatışmazlığı ondan ibarət idi ki, burada təkcə müvafiq yükü daşıyan nəqliyyat vasitəsinin nömrəsi deyil, həm də onu idarə edəcək sürücünün adı qeyd

olunmalıydı, bununla da başqa bir şəxs həmin nəqliyyat vasitəsini istifadə edə bilməzdi. Sürücü təcili dəyişdirildikdə isə ona yenidən icazə almaq və yeni sənəd vermək lazım idi. Bu vəziyyət lüzumsuz vaxt itkisinə və istənilən nəqliyyat şirkətinin bütün avtonəqliyyat parkının tam şəkildə istifadə etməməsinə səbəb olurdu.

Məlumdur ki, təhlükəli yükləri olan avtonəqliyyat vasitələrinin sərhəddə gecikməsi gözlənilməz hadisələrə gətirib çıxartma ehtimalını artırır. Buna görə də bu məsələnin tez bir zamanda öz həllini tapması vacibiydi. Nəhayət keçən il məsələ həll olundu. Agentlik beynəlxalq tələblərə cavab verən yeni formada sertifikatların verilməsinə başladı. Sertifikatın yeni forması yuxarıda qeyd olunan problemi təkçə həll etmədi, eyni zamanda milli qanunvericiliklə beynəlxalq müqavilə arasındakı uyğunsuzluğu aradan qaldırdı, eləcə də yerli daşıyıcıların potensial müştərilər qarşısında nüfuzunu artırıb, yeni biznes imkanları yaratdı [8].

Aparılan təhlillərlə o da müəyyən edilmişdir ki, Azərbaycanda təhlükəli yüklərin daşınması sertifikatlaşdırılır və sertifikat verən yeganə qurum ABADA-dır (Azərbaycan Avtomobil Daşıyıcılarının Beynəlxalq Assosiasiyası). Daşıyıcılar ABADA-nın tədris mərkəzində təhlükəli yüklərin (yanan, partlayıcı maddələr, kimyəvi yüklərin) daşınması üzrə təlimlər keçir və 5 il müddətinə müvafiq beynəlxalq sertifikatlar alırlar[5].

Digər araşdırılan məsələ Azərbaycan Respublikasının mülki hava gəmiləri ilə təhlükəli yüklərin daşınmasına icazənin verilməsi məsələsi olmuşdur. Məlum olmuşdur ki, Azərbaycan Respublikasının "Aviasiya haqqında" Qanununun 47.4-cü maddəsində nəzərdə tutulmuş qaydada təsnifləşdirilməmiş, sənədləşdirilməmiş, sertifikatlaşdırılmamış, qablaşdırılmamış, markalanmayan və ya etiketlənməmiş təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması qadağan edilir[1]. Hal-hazırda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 mart 2025-ci il tarixli qərarı ilə "Təhlükəli yüklərin mülki hava gəmilərində daşınması Qaydaları" təsdiq edilmişdir [2]. Bu Qaydalarla mülki hava gəmisi ilə təhlükəli yüklərin göndərilməsi, qəbulu, saxlanması, yüklənib-boşaldılması və daşınması ilə məşğul olan hüquqi və fiziki şəxslərin, mülki hava gəmilərinin istismarçılarının hava limanlarının, təhlükəli yüklərin poçt vasitəsilə göndərilməsi ilə məşğul olan poçt operatorlarının, həmçinin təhlükəli yüklərin mülki hava gəmiləri ilə təhlükəsiz daşınmasına nəzarət edən müfəttiş heyətinin fəaliyyəti tənzimlənir.

Beləliklə, Azərbaycanda təhlükəli yüklərin daşınmasının hazırkı vəziyyətinin təhlili əsasında aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Təhlükəli yüklərin bütün nəqliyyat növləri ilə daşınması müvafiq idarəetmə orqanlarından və struktur bölmələrdən diqqətin artırılmasını tələb edir.
2. Təhlükəli yüklərin daşınmasının təhlükəsizliyi bütün nəqliyyat növləri ilə təhlükəli yüklərin daşınması qaydalarının sərtləşdirilməsi, zəruri sənədlərin hazırlanması qaydalarının beynəlxalq tələblərə uyğunlaşdırılması, təhlükəli yüklərin daşınmasının beynəlxalq və dövlət standartlarının tələblərinə uyğunluğunun sertifikatlaşdırılması yolu ilə təmin edilir.
3. Təhlükəli yüklərin daşınmasına diqqətin artırılması fövqəladə hallar riskini aşağı salır, ətraf mühitə zərərli təsirləri azaldır, ictimai təhlükəsizliyi və respublika iqtisadiyyatında sabitliyi qoruyur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respubliksasının «Aviasiya haqqında» Qanunu.-Bakı, 2023.
2. Azərbaycan Respubliksasının "Təhlükəli yüklərin mülki hava gəmilərində daşınması Qaydaları".-Bakı, 2025.-29 s.
Tökmə zamanı metalların daxili strukturlarında yaranan nöqsanlar, məhsulun keyfiyyətini və davamlılığını pisləşdirə bilər. Bu nöqsanları aşkar etmək və tədqiq etmək üçün müxtəlif müasir metodlardan istifadə edilir. Aşağıda tökmə zamanı metalların daxili strukturlarında yaranan nöqsanları tədqiq etmək üçün istifadə olunan əsas metodlar haqqında məlumat. Vizual təhlil, ən sadə və ilkin mərhələdə istifadə olunan metoddur. Bu metodla metalın səthindəki qüsurlar, çatlar, porozluq və digər xarici nöqsanlar aşkar edilə bilər. Lakin vizual yoxlama yalnız makroskopik nöqsanları aşkarlamağa imkan verir və daxili nöqsanları tam olaraq müəyyən edə bilmir.

Tökmə prosesi metallarda müxtəlif nöqsanların yaranmasına səbəb ola bilər ki, bu da məhsulun keyfiyyətinə və mexaniki xüsusiyyətlərinə mənfi təsir göstərir. Müasir tədqiqat metodları, xüsusilə mikroskopiya, rentgen difraksiya, ultrasəs və kompyuter modelləşdirməsi kimi texnologiyalar, bu nöqsanların təhlilində böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1.D. Kaniki, "Döküm məhsuldarlığının cari vəziyyəti," AFS əməliyyatları, cild 106, 1998

2. R.C. Creese, "Benchmarking and Lead Time Reduction," AMC Benchmarking Project Report, West Virginia University, Oct 1996, s.1-137

3. AFS, "Tökmə Modelləşdirmə Proqramının Mənbələri", Müasir Döküm, Cild 87, №10, 1997, səh.27-29

RESEARCH OF DEFECTS IN METALS DURING CASTING USING MODERN RESEARCH METHODS

Nazila Farman Alverdiyeva
Jamala Javanshir Islamova
nazilaa@mail.com
cemale.islamova1@mail.ru
Azerbaijan State University of Economics

Defects that occur in the internal structure of metals during casting are a topical topic and constitute an extensive area of research in metalworking. Factors such as metal melting, flow dynamics and cooling time during casting can lead to the formation of defects. These defects negatively affect the quality, strength and durability of the material. The study of these defects is of decisive importance not only from the point of view of improving the quality of metal products and ensuring compliance with safety standards, but also from the point of view of developing new technologies, reducing production costs, and optimizing production processes.

Keywords: Metal, corrosion, quality, defects, quality indicators, product quality assessment methods, quality control

2-OKSİETİLHİDRAZİNLƏ ASETALDEHİDİN KONDENSLƏŞMƏ REAKSIYASI

Vəli Ə. Budaqlı
velibudaqlı73@mail.ru
B.M.Ömərov
Azərbaycan Texnologiya Universiteti

Qarışdırıcı, termometr və damcı qifi ilə təchiz olunmuş 250 ml-k reaksiya kolbasında 44 q (1 mol) asetaldehid götürülərək üzərinə intensiv qarışdırılmaq və soyudulmaq şərtilə 1-1,5 saat müddətində 76 q (1 mol) 2-oksietilhidrazin əlavə olunur. 2-oksietilhidrazinin əlavə olunması elə nizamlanır ki, reaksiya kolbasındakı temperatur 15^0C-dən yüksək olmasın. Etanolhidrazinin əlavə olunması başa çatdıqdan sonra kolbadakı qrışıq kütləsi 25-30^0C və 1 saat müddətində yenidən intensiv qarışdırılır. Bundan sonra reaksiya qarışığı 12-14 saat müddətində susuzlaşdırılmış K_2CO_3 üzərində qurudulur. Reaksiya qarışığı quruducu (K_2CO_3) ilə birlikdə filtirə köçürülərək süzülür və süzülmüş hissə vakkumda qovulur. Qovulma nəticəsində 44,9 q (44%) asetaldehidin aşağıdakı göstəricilərə malik olan 2 **-**oksietilhidrazonu alınır:

$$CH_3 - C_{-H}^{=O} + H_2N - NHCH_2CH_2OH \longrightarrow CH_3 - \underset{OH}{CH} - NH - CH_2CH_2OH \longrightarrow$$

$$\xrightarrow[-H_2O]{} CH_3 - CH = N - NHCH_2CH_2OH$$

Qay. t^0 ; 99-101^{0}C/6 mm.ç.st., d_4^{20} 0,9460 ; n_D^{20} 1,4820 . MR_D (tanılmışdır): 28,37 hesablanmışdır: MR_D -28,18.
element tərkibi: tapılmışdır % ; C 47,00; H 9,73 ; N 27,23:
element tərkibi: $C_4H_{10}N_2O$ üçün hesablanmışdır %: C 47,05 ; H 9,80 ; N 27,43.

CONDENSATION REACTION OF ACETALDEHYDE WITH 2- OXYETHYLHYDRAZINE

B.A. Budaqli
B.M.Omarov
velibudaqli73@gmail.com
Azerbaijan Technologycal University

As a result of the study, It was determined that 2-oxyethylhydrazine is converted to the corresponding hydrazine upon interaction with carbonyl (acetaldehyde) taken in an equimolar ratio.

AZƏRBAYCANDA METALLURGİYA SƏNAYESİNDƏ "İSTİXANA" QAZLARININ AZALDILMASI TƏDBİRLƏRİ

Musa Hümbət oğlu Cəfərov
dmh49@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Hazırda Azərbaycanda istehsal olunan elektrik enerjisinin təxminən 83,5%-i istilik elektrik stansiyaları hesabına əldə olunur. Azərbaycanda istilik elektrik stansiyalarında hər il 5 milyard m^3 həcmində təbii qaz yandırılır və nəzərə alsaq ki, 1000 m3 təbii qaz yandıqda 1,85 ton karbon qazı əmələ gəlir. Bunun nəticəsində 10^7 ton/il miqdarda atmosferə karbon qazı atılır."İstixana" effekti yaradan qazlardan ən çox qlobal istiləşmə karbon qazının hesabına olur.Metallurgiya sənayesi enerji tutumlu sahə olduğu üçün dünya üzrə atmosferə atılan CO_2 qazının 7-8% metal istehsalının payına düşür.

Qlobal istiləşmə və onunla əlaqədar müasir iqlim dəyişmələri yaşadığımız dövrdə bəşəriyyəti narahat edən ən vacib problemlərdən biridir. BMT-nin iqlim dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun yaydığı 6-cı hesabatına əsasən, 1850-1900-cu illər dövrü ilə müqayisədə Yer kürəsinin orta illik qlobal temperaturu 1,1 ^{o}C artıb. Lakin bu artım dünyanın hər yerində eyni deyildir. Belə ki, Arktikada temperatur artımı demək olar ki, bundan 2 dəfə çoxdur. İqlim senarilərinə əsasən yaxın on illiklərdə qlobal temperatur artımının 1,5, hətta 2,0 ^{o}C-yə çatacağı gözlənilir.

Qlobal istiləşmənin 1,5 ^{0}C olacağı halda "isti hava dalğalarının" daha da güclənməsi, isti mövsümlərin uzanması və soyuq mövsümlərin isə qısalması baş verəcək. 2,0 C-lik qlobal istiləşmədə isə havanın temperaturunun ekstremal göstəriciləri kənd təsərrüfatı və insan sağlamlığı üçün kritik ola bilər. Əgər lazımi qabaqlayıcı tədbirlər görülməzsə, 2100-cü ilə qədər temperatur artımının 3,0 ^{o}C-dən artıq olacağı ehtimal olunur.

Azərbaycan ərazisində də qlobal istiləşmə öz təzahürlərini göstərməkdədir. İqlim norması (1961-1990) ilə müqayisədə 1991-2020-ci illər dövründə havanın orta illik temperaturu orta hesabla 0,80 - 1,2 ^{o}C artıb. Lakin bu artım aylar üzrə qeyri-bərabər paylanıb. Daha böyük artım mart, iyun, avqust və oktyabr aylarında qeydə alınır. Ən böyük artım isə avqust ayında müşahidə edilir ki, bu da bir çox hallarda davamlı və intensiv "isti hava dalğaları", həmçinin ekstremal hava temperaturları ilə müşaiyət olunur. Respublikanın əksər ərazilərində atmosfer yağıntıları iqlim normasına nisbətən azalsa da, ayrı-ayrı günlərdə müşahidə olunan anomal intensivli yağıntılar və onlarla əlaqədar olan təhlükəli

hidrometeoroloji hadisələrin (leysan, ildırım, dolu, qasırğa küləyi, sel, daşğın və s.) təkrarlanması artmışdır. Temperturun artması və yağıntıların azalması səbəbindən ölkənin su ehtiyatlarının azalması müşahidə edilir.

Azərbaycanda hazırda əsasən alüminium və mis metalları istehsal olunur. Ənənəvi enerji mənbələrindən istifadə etdikdə 1,0 ton alüminium istehsalında 1,5 ton CO_2 alındığı halda, enerji tələbatını su elektrik stansiyalarının hesabına ödədikdə bu rəqəm 0,4 ton CO_2 olacaqdır.

Nəzərə alsaq ki, dağ-mədən və metallurgiya sənayesinin əsasən Gəncə və ətraf dağlıq rayonlarda mövcud olması nəticəsində son zamanlar Gəncə rayonunda havada "istixana" effekti yaradan qazların miqdarı buraxıla bilən həddən xeyli çox olmuşdur.

Ənənəvi enerji mənbələrinin ehtiyatlarının tədricən tükənməsi və onlardan istifadə zamanı ərtaf mühitə atılan külli miqdarda "istixana" qazlarının və digər zərərli maddələrin olmasını nəzərə ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilir.

Bu baxımdan Azərbaycan 2030-cu ilə qədər ölkənin enerji balansında bərpa olunan enerji üzrə qoyuluş gücü payının 30% -ə çatdırılması əsas hədəf kimi qəbul edilmişdir. Bu məqsədlə bərpa olunan enerji mənbələrinin hesabına ümumilikdə təxminən 1500 MVt yeni generasiya gücünün yaradılması nəzərdə tutulub.

Hazırda "istixana" effekti ilə əlaqədar baş verən böyük iqlim dəyişiklərinə qarşı bir çox tədbir içində CO_2 –nin miqdarının atmosferdə azaldılması məqsədilə onun digər qazlardan ayrılması və tutulması texnologiyasından istifadə edilir, lakin bu tədbir müasir dövrdə bir qədər baha başa gəlir.

Elektrik enerji istehsalı sahəsi ən çox "istixana" qazları əmələ gələn sahə olduğu üçün istilik elektrik stansiyaların təkmilləşdirilməsi, köhnə avadanlıqların istismardan çıxarılması, enerjiyə qənaət rejiminə keçilməsi və işlək yanacaq kimi təbii qaz yanacağından istifadə edilməsi tövsiyyə olunur.

WAYS TO REDUCE GREENHOUSE GAS EMISSIONS FROM THE METALLURGICAL INDUSTRY IN AZERBAIJAN

Musa Hümbət oğlu Cəfərov
dmh49@mail.ru
Azərbaycan Texnologiya Universiteti

The analysis of the causes of the greenhouse effect in the Earth's atmosphere has been carried out. Recommended ways to reduce greenhouse gas emissions into the environment.

Keywords: greenhouse effect , elektroenergy , emission.

TƏBƏQƏ ŞÜŞƏ İSTEHSALININ AYRI-AYRI MƏRHƏLƏLƏRİNDƏ KEYFİYƏTƏ NƏZARƏT ÜSULLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Azər İsmayıl oğlu Məmmədov
mammadov_azer1974@mail.ru
Elcan Bəhman oğlu Namazov
elcannmzv1@gmail.com
[1,2]Azərbaycan Dövlət İqtisad Universiteti

Şüşədən hazırlanan məhsulların o cümlədən təbəqə şüşələrin keyfiyyətinin formalaşmasına istehsal prosesinin mərhələləri və texnoloji parametrlər əhəmiyyətli dərəcədə təsir edir. Təbəqə şüşələrin istehsalını bir sıra ardıcıl mərhələlərdən ibarətdir və onlardan ümumiləşdirilmiş olaraq aşağıdakıları qeyd etmək olar: xammalın zənginləşdirilməsi, qarışdırılması, xammalın sobaya verilməsi, əritmə, soyutma, formayasalma və tavlandırma. [1]

Hal-hazırda şüşə sənayesində təbəqə şüşə istehsalının ən müasir üsulu float texnologiyasıdır. Burada şüşə, ərimiş qalay hamamında üzdürülməklə əldə edilir. Ərimiş şüşə, səthi gərginliklə cazibə qüvvəsi arasında tarazlıq yaranana qədər yayılır və nazikləşir. Bu tarazlıq əldə edildikdə, yaranan qalınlığa tarazlıq qalınlığı deyilir. Soda-əhəng-silisium şüşəsi üçün tarazlıq qalınlığı 7 mm-dir. Bu float prosesinin nəzəriyyəsidir. Qalay hovuzuna şüşə giriş

temperaturu 1050 °C, çıxış temperaturu isə 600 °C-dir. Şüşə zolağının eni vannaya axan şüşə miqdarından və soyutma sürətindən asılıdır Prinsipcə sadə olsa da, müxtəlif qalınlıqda şüşə lövhələrin istehsalı çox iş tələb edir. Float prosesində itki digər proseslərdən daha azdır. Zərərin baş verdiyi yeganə yer tavlama prosesindən sonra şüşə zolağının qeyri-müntəzəm kənarlarının kəsilməsidir.

Ərinmiş qalay şüşə lent üçün ideal dayaqdır, lakin qalay yüksək temperaturlarda və oksigenin iştirakı ilə sürətlə oksidləşir. Qalaydakı çirklər şüşəyə mənfi təsir göstərir.

Şüşə zolağının örtülməsi və hidrogen-azot atmosferinin saxlanması qalayın oksidləşməsi nəticəsində yaranan problemləri aradan qaldırır. Float xəttindən həftədə 1000-5000 ton şüşə əldə etmək olar. Ən çox istehsal olunan plitənin eni 3,4 m-dir [2].

Şüşə istehsalında müvəffəqiyyətli olmaq üçün bütün mərhələlər nəzarət altında saxlanılmalıdır. Nəzarətin məqsədi əməliyyatın hər hansı bir hissəsinin hədəf standartdan kənara çıxmasının qarşısını almaqdır. Cədvəl №1-də şüşə istehsalı zamanı nəzarətin tətbiq olunması vacib olan sahələr və onları nəzarətdə saxlamaq üçün daha optimal hesab edilən əsas sınaq üsulları verilmişdir.

Cədvəl 1

Təbəqə şüşə istehsalı zamanı nəzarətin tətbiq olunduğu sahələr və sınaq üsulları

Nəzarət bölgəsi	Nəzarət edilən ünsür	Nəzarət üsulu
Xammallar	Xammalların keyfiyyəti	Fiziki və kimyəvi kompozisiya nəzarətləri
Xammalların qarışdırılması və nəql edilməsi	Xammalın çəkilməsi; Xammalın daşınması; Düzgün nisbətlərdə əritmə və şəffaflaşdırma maddələri də daxil olacaq şəkildə qarışıq kompozisiyası	Daimi çəki və tərəzi maşınları nəzarəti. Şüşə tərkibi, sıxlığı,yumşalma nöqtəsi vəhomojenliyin müntəzəm təyini. Düyünlərin sayı, şüşə sıxlığı və homogenlik Şüşə tərkibi, sıxlığı, rəngi,yumşalma nöqtəsi və nöqsanları saymaq
Soba	Sobanın istiliyi Şixta qarışığı ilə bəsləmə Şüşə səviyyəsi	Qabarcıq və bərk hissəciklərin sayı Cihaz və gözlə nəzarət. Şəkilləndirmə qurğularına davamlı və doğru miqdarda şüşə kütləsinin ötürülməsi.
Soyutma	Şüşə kütləsinin temperaturu və özlülüyü	Gözlə nəzarət, temperaturun ölçülməsi, formayasalma nöqsanlarının analizi
Formayasalma qurğularının şüşə kütləsi ilə bəslənməsi	Şüşə kütləsi	Məhsulların kütləsinin və qalınlığının ölçülməsi
Formayasalma	İstehsal prosesi	Məhsulların keyfiyyətinə nəzarət və nöqsanların analizi
Tavlama	Tavlama prosesi	Gərginlik ölçən çihazlarla nəzarət

Cədvəldən göründüyü kimi istehsal prosesinin ayrı-ayrı sahələrində keyfiyyətinə nəzarət, müxtəlif yollarla əl ilə və ya avtomatik olaraq müxtəlif vasitələrlə həyata keçirilə bilər. İstənilən prosesi nəzarətdə saxlamaq üçün birinci şərt proses dəyişənlərinin (temperatur və ya axın kimi) ölçülməsi və onların arzu olunan dəyərlərlə müqayisəsini aparmaqdır. Ölçülmüş dəyərlər tələb olunan dəyərlərə uyğun gəlmədikdə, problemi aradan qaldırmaq üçün onu yaradan səbələr müəyyənləşdirilməli və tədbirlər görülməlidir.

ƏDƏBİYYAT

1.Маневич В.Е., Субботин К.Ю., Ефременков В.В. Сырьевые материалы, шихта и стекловарение, М.: РИФ «Стройматериалы», 2008.

2.Макаров Р. И. Управление качеством листового стекла: флоат-способ / Р. И. Мака ров, В. В. Тарбеев, Е. Р. Хорошева, Ю. М. Попов ; под ред. Р. И. Макарова. — Москва : Издательство Ассоциации строительных вузов, 2004.152 с.

IMPROVING QUALITY CONTROL METHODS AT DIFFERENT STAGES OF SHEET GLASS PRODUCTION

Azer Ismail oglu Mammadov
Eljan Bahman oglu Namazov
mammadov_azer1974@mail.ru
elcannmzv1@gmail.com
Azerbaijan State Economic University

The article analyzes the impact of production processes on the quality of sheet glass. As is known, in order to obtain a quality product, in addition to using quality raw materials, processes should be controlled at different stages of the production process. In the study, the stages where quality control is important in the production of sheet glass by the float method were identified and more optimal control methods were proposed, which ensures fewer defects in the products produced.

Keywords: sheet glass, raw materials, float technology, production processes, quality control.

RULONLU ARMATURLAR ÜÇÜN İSTEHSALÇILARIN İMKANLARINI NƏZƏRƏ ALMAQ PRİNSİPİNDƏN İSTİFADƏNİN XÜSUSİYƏTLƏRİ

Zabit Yunus oğlu Aslanov
aslanov.zabit@mail.ru
Mədinə Camal oğlu Məmmədova
whitenohra@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Standartlaşdırma ilə bağlı bir sıra işlərin nəticələrinin ümumiləşdirilməsi aşağıdakı kimi tərtib edilə bilər: sənayelərarası istehsal fəaliyyətini həyata keçirərkən standart istehlakçı və məhsula olan tələblər arasında ziddiyyətlərin olmamasını təmin etməlidir. Öz fəaliyyəti zamanı istehlakçıya lazım olan məhsul xassələrinin müvafiq səviyyəsini istehsalçı təmin etməlidir. Bu baxımdan, haddelenmiş armatur üçün standartlaşdırılmış parametrlərin siyahısını seçərkən, dəmir-beton konstruksiyalarda armaturun iş şəraitini başa düşmək və qiymətləndirmək lazımdır. Yayılmış armatur əsasən tikinti konstruksiyalarının xüsusiyyətlərini müəyyənləşdirir, buna görə də dəmir-beton konstruksiyaları yaratarkən armaturun istismar xüsusiyyətlərini nəzərə almadan və qiymətləndirmədən keyfiyyət göstəricilərini müəyyən edən parametrlərinin seçimi mümkün deyil.

Quruluşların yanğına davamlılığı dizayn mərhələsində hesablama ilə təmin edilir. Dəmir-beton konstruksiyaların yanğına davamlılığının hesablanmasının əsas müddəaları STO 36554501-006-2006 [1]verilmişdir. Dəmir-beton konstruksiyasının yanğına davamlılığının hesablanması (əslində bu, yanğından sonra strukturun gücüdür) armaturun hesablanmış dartılma gücünə əsaslanır. Dəmir-beton konstruksiyaların yanğına davamlılığını hesablayarkən, qızdırıldıqdan sonra armaturun soyudulmuş vəziyyətdə iş şəraitinin əmsallarından istifadə olunur. Dəmir-beton konstruksiyaların yanğına davamlılığının təmin edilməsi mövcud tikinti məcəllələri [3] ilə tənzimlənmir, lakin hündürmərtəbəli binalar, çoxfunksiyalı komplekslər, tunellər və digər yüksək məsuliyyətli obyektlər üçün aktualdır, çünki Bu ərazilərdə yanğından sonra dəmir-beton konstruksiyaların son həddə çatmasına yol vermək olmaz, çünki yanğınların nəticələri böyük sosial və iqtisadi itkilərə səbəb ola bilər. Bu baxımdan standartda haddelenmiş armaturun yanğın təhlükəsizliyinin tənzimlənməsi obyektlərin etibarlılığını və təhlükəsizliyini əhəmiyyətli dərəcədə artıra bilər [2].

Hal-hazırda, şərti möhkəmləndirmənin profilinin effektivliyini qiymətləndirmək üçün beynəlxalq standartlar armaturun nominal diametrindən, eninə çıxıntıların ölçüsündən, həmçinin daşıyıcı sahədən asılı olan nisbi daşıyıcı sahə istifadə edir. profilin eninə proyeksiyalarının çubuqun oxuna perpendikulyar olan müstəviyə proyeksiyası kimi müəyyən edilir. Haddelenmiş möhkəmləndirici çubuqların həndəsi profili üçün parametrlərin seçimi, mövcud normativ sənədlərə uyğun olaraq eyni diametrli haddelenmiş məhsullar üçün dəyəri aşan bir yapışan qüvvəni təmin etməlidir. Bu halda, anker zonasının uzunluğu və ön gərginliyin ötürülməsi zonasının uzunluğu standart dəyərlərdən çox olmamalıdır. Həndəsi profilin parametrlərini seçərkən yerinə yetirilməli olan vacib şərt, statik yük altında mexaniki xüsusiyyətləri, dayanıqlıq həddini və qövslü poladın korroziyaya davamlılığını maksimuma çatdırmaq ehtiyacıdır.

Hazırda tikinti sənayesi dəmir-betonun əllə möhkəmləndirilməsinin, xüsusən də monolit karkaslı binaların tikintisində zavod istehsalı qaynaqlı torla möhkəmləndirilməsi ilə əvəz edilməsi üçün innovativ kurs keçir. Monolit çərçivə ilə binaların möhkəmləndirilməsi vəziyyətində 90% -ə qədər və ya daha çox möhkəmləndirici çərçivə bu gün birbaşa tikinti meydançasında əl ilə toxunur. Belə istehsalın ciddi mənfi iqtisadi və əməliyyat nəticələri məlumdur: armaturun keyfiyyəti və etibarlılığı aşağı düşür, əmək məsrəfləri bir neçə dəfə artır, məhsuldarlıq on dəfə azalır, obyektlərin təhvil müddəti artır. Bu nöqteyi-nəzərdən, haddelenmiş armaturların istismar xüsusiyyətlərinə onun birbaşa tikinti meydançasında işlənməsinin istehsal qabiliyyəti daxil edilməlidir[3].

Metallurgiya istehsalı müəssisələrindən rulonlarda tədarük edilən rulonlu armaturlardan istifadənin rahatlığı birbaşa sarım növü ilə bağlıdır. Şəkil 1 aparıcı metallardan biri olan Stelmo xəttindən rulonlu armaturların rulonlarını göstərir.



Şəkil 1 - Xətt sarğısının (solda) və Stelmor xəttindən (sağda) görünüşü

İstehlakçının emal zamanı Stelmor xəttindən qaynar yayılmış möhkəmləndirici çubuqlar ilə müqayisədə bir sıra sarğıdan istifadə edərək malik ola biləcəyi aktivlər Bu yanaşma təkcə materialın özünün keyfiyyətinin yaxşılaşdırılmasından (bu məsələ də vacibdir) deyil, həm də sonrakı emal üçün haddelenmiş məhsulların tədarükünün müxtəlif formaları üçün mümkün kommersiya üstünlüklərini qiymətləndirmək və həyata keçirmək üçün başlanğıcdır. Cədvəldə təqdim olunan məlumatlar müxtəlif müəssisələr üçün bu və ya digər istiqamətdə dəyişə bilər. Lakin onların qiymətləndirilməsinə məhəl qoyulmadıqda, şübhəsiz ki, itkilərə çevrilirlər və emal müəssisələrinin təchizat siyasəti marketinq qiymətləndirməsini aşağı salmır. Bu, digər şeylər arasında, məlumat çatışmazlığı və rəqabətli həllərin yüksək keyfiyyətli monitorinqi səbəbindən təchizat zamanı nəzərə alınmayan problemlərin miqyası haqqında rulonlu armaturların istehlakçılarını xatırlatmaq üçün vacibdir və onlardan mövcud itkilər hesablanmır və ya susdurulur.

Beləliklə, həm bütövlükdə tikinti sənayesinin inkişafını, həm də dəmir-beton konstruksiyaların möhkəmləndirilməsi üçün prokat istehsalını təmin edən uyğunlaşdırılmış tələblərin təmin edilməsi mümkünlüyü, yeni standartın qurulması üçün əsas ola biləcək ümumi prinsiplərin mövcudluğunu nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Харитонов, В. А. Обработка бунтовой арматурной стали по схеме «растяжение знакопеременный изгиб» (технология, теория, оборудование) // В.А. Харитонов, А.Б. Иванцов, Вик.А. Харитонов // Металлург. 2010. - №4. С. 78-83.
2. Харитонов, В. А. Обработки проволоки растяжением/В.А. Харитонов, А.Б. Иванцов, Т.А. Лаптева. Магнитогорск : Изд-во Магнитогорск. гос. техн. ун-та им. Г.И. Носова, 2012. 162 с.
3. Aslanov Z.Y. Qarşılıqlı əvəzetmənin əsasları. Dərslik. Bakı: Elm, 2017. 282 səh.

FEATURES OF USİNG THE PRİNCİPLE OF TAKİNG İNTO ACCOUNT MANUFACTURERS' İNCONSİSTENCİES FOR ROLLED FİTTİNGS

Zabit Yunus Aslanov
aslanov.zabit@mail.ru
Medina Jamal Mammadova
whitenohra@gmail.com
Azerbaijan State University of Economics

The features of using the principle of taking into account the manufacturers' preferences for rolled reinforcement have been studied. The results of a number of works on standardization can be summarized as follows: when carrying out inter-industry production activities, the standard should ensure the absence of contradictions between the requirements of the consumer and the product. The manufacturer must ensure the appropriate level of product properties necessary for the consumer during its activities.

The methods of strengthening steel should be determined by the manufacturer, and the formation of a set of strength properties of rolled reinforcement with a uniform distribution of stresses without gradients along the cross-section and length of the roll were analyzed.

Key words: rolled reinforcement, strength, standard, manufacturer, industry, principles

ZƏRGƏRLİK DAŞLARI BAZARININ EKSPERT QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MARKETİNQ ARAŞDIRMASI

Sevinc Məhəddin qızı Abbasova
uzeirqasimli@yandex.ru
Səid Elçin oğlu Məmmədzadə
seeid2002@gmail.com
[1,2]Azərbaycan Dövlət İqtisad Universiteti

"Zərgərlik daşları bazarının ekspert qiymətləndirilməsi və marketinq araşdırması" mövzusu, zərgərlik daşlarının beynəlxalq bazarda necə qiymətləndirildiyini, bu bazarda olan tələbləri və təklifləri araşdıran, eyni zamandada bu daşların ixracını artırmaq üçün marketinq strategiyalarını nəzərdən keçirdən bir mövzudur. Zərgərlik daşları bazarı, qiymətli və yarı qiymətli daşların ticarətini əhatə edir. Bu bazar, həm də daşların emalı, satış və tədarük zəncirini idarə edən müxtəlif sahələri özündə birləşdirir. Zərgərlik daşlarının qiymətləndirilməsi, bazar qiymətlərinə, daşın növünə, keyfiyyətinə, ölçüsünə və emal səviyyəsinə əsaslanır. Marketinq araşdırması zərgərlik sahəsində istifadə edilən qiymətli və yarıqiymətli daşlar üçün, istehlakçı tələblərini, bazar tələblərini, rəqabəti, qiymət siyasətini öyrənmək məqsədilə aparılan bir prosesdir. Zərgərlik daşları bazarı, qiymətli və bəzək əşyalarının istehsalı və ticarəti sahəsində mühim bir yer tutur. Bu sahə, yalnız estetik və bəzək məqsədli deyil, həm də iqtisadi baxımdan mühüm bir rol oynayır. Zərgərlik daşları, həm milli, həm də beynəlxalq bazarlarda yüksək tələbatla qarşılanır və onların ticarəti böyük iqtisadi dəyərə malikdir. Bu daşlar, təbiət tərəfindən təqdim edilən nadir və qiymətli resurslardan ibarət olub, xüsusilə almaz, zümrüd, sapfir və rubin kimi daşlar ilə tanınır.

Zərgərlik daşlarının bazar qiymətlərini müəyyənləşdirən bir çox amil vardır ki,bu təbii ehtiyatların miqdarı, istehsal prosesinin mürəkkəbliyi, daşların nadirliyi və tələbin artması kimi amillər qiymətləri formalaşdırır. Həmçinin, bazarda dəyişən istehlakçı tələbləri və bazar

şərtləri, zərgərlik daşlarının qiymətinə birbaşa təsir edir. Bu səbəbdən, bazarın ekspert qiymətləndirilməsi, yalnız iqtisadi göstəricilər əsasında deyil, həm də istehlakçı davranışlarını, bazar tendensiyalarını və xarici təsirləri nəzərə alaraq həyata keçirilməlidir. Zərgərlik daşları bazarının ekspert qiymətləndirilməsi və marketinq araşdırması mövzusunun məqsədi, bazarda olan qiymətli daşların iqtisadi dəyərlərinin düzgün müəyyənləşdirilməsi və bazar dinamikalarının təhlilidir. Bu mövzu, həmçinin bazarda fəaliyyət göstərən şirkətlərin, istehsalçıların və ticarətçilərin bazar şərtlərinə uyğunlaşmalarına kömək edəcək strateji qərarların qəbul edilməsini təmin etmək məqsədi daşıyır.

Qiymətli daşların ekspertizası, daşların qiymətini və keyfiyyətini müəyyən etmək üçün aparılan peşəkar bir qiymətləndirmə prosesidir. Bu ekspertiza prosesi, daşın tərkibini, rəngini, şəffaflığını, kəsilməsini, ölçüsünü və digər xüsusiyyətlərini qiymətləndirir. Ekspertizanın əsas məqsədi, daşın əsl qiymətini müəyyən etməkdir, çünki qiymətli daşların bazar qiyməti çox dəyişkəndir və buna müxtəlif amillər təsir göstərir.

Qıymətli daşların ekspertizasını aparan mütəxəssislər (gemoloqlar), aşağıdakı meyarlara əsaslanaraq qiymətləndirmə aparırlar.

1. Daşın növü - brilyant, safir, zümrüd, yaqut və s. kimi qiymətli daşlar fərqli qiymətləndirilir.
2. Rəng - rəngin intensivliyi, bərabərliyi və tonları qiyməti təsir edir.
3. Şəffaflıq -daşın içindəki "daxili"və "xarici" qüsurlar, daşın dəyərini azalda bilər.
4. Kəsmə - daşın necə kəsildiyi və forması, işıqların necə əks edildiyini təsir edir.
5. Çəkisi - Qıymətli daşların qiyməti adətən onların çəkisinə əsaslanır və karatla ölçülür. Ekspertizanın nəticələri, daşın bazar qiymətini müəyyən etmək və onun alqı-satqısında düzgün qiymət təyin etmək üçün vacibdir. Ekspertlər, öz sahələrində təcrübəli və məlumatlı şəxslər olduğundan, bazarın qiymətləndirilməsi və marketinq strategiyalarının inkişafı sahəsində düzgün qərarların alınmasına dəstək verirlər. Digər metodlardan biridə sorğu metodur. Sorğu metodu zərgərlik daşları bazarının qiymətləndirilməsi və marketinq araşdırmasında geniş istifadə olunan effektiv yanaşmalardan biridir. Bu metod, istehlakçıların, bazar iştirakçılarının və mütəxəssislərin fikirlərini, davranışlarını və ehtiyaclarını öyrənmək məqsədilə müxtəlif növ suallar və anketlər vasitəsilə məlumat toplamağa imkan verir. Sorğular bazar trendlərinin, müştəri tələblərinin və bazar strategiyalarının təhlilində mühüm rol oynayır.

Zərgərlik daşlarının qiymətləndirilməsi, istehlakçıların bu məhsullara yanaşmalarını, hansı növ daşların daha çox tələb olunduğunu və alıcıların əsas seçim meyarlarını anlamaq üçün mühüm bir vasitədir. Sorğular və anketlər vasitəsilə əldə edilən məlumatlar, zərgərlik daşları istehsalçılarına və pərakəndə satıcılarına bazar tələblərinə uyğun məhsul təklif etməkdə əvəzsiz rol oynayır. Əldə edilən nəticələrə görə, istehlakçılar əsasən estetikaya deyil həmçinin daşın keyfiyyətinə və qiymətə böyük əhəmiyyət verirlər. Alıcılar həmçinin daşların uzun ömürlü və zədələnməyən olmasına da diqqət edirlər, bu da zərgərlik daşlarının davamlılıq xüsusiyyətlərinin önəmini göstərir. Bütün bu məlumatlar, zərgərlik daşları istehsalçılarına və pərakəndə satış müştəri tələblərinə cavab verən məhsul təklif etmək və bazar ehtiyaclarına uyğun yeni məhsul çeşidləri yaratmaq imkanı verir.

ƏDƏBİYYAT

1. Çiftçi, E., Selim, H. H., ve Şendir, H. (2019). Türkiye'nin Otantik Yarı Değerli ve Değerli Taşları: Tespih Yapımında Tercih Edilenlere Özel Vurgu.
2. Uluslararası Uygulamalı Mineraloji Kongresi (14thICAM), Belgorod, Rusya.
3. Hatipoğlu, M. (2007). Türkiye'de Mücevher Taşı Madenciliği. Sapphire Dergisi, 20, 136-141
4. Selim, H. H. (2015a). Türkiye'nin Değerli ve Yarı Değerli Mücevher Taşları. İstanbul: İTO Yayınları.

EXPERT EVALUATION AND MARKETING RESEARCH OF THE GEMSTONE MARKET

Sevinj Mahaddin gizi Abbasova
Said Elchin oglu Mammadzade
uzeirqasimli@yandex.ru
seeid2002@gmail.com
Azerbaijan State University of Economics

The topic "Expert Evaluation and Marketing Research of the Gemstone Market" is a topic that studies how gemstones are valued in the international market, supply and demand in this market, and also considers marketing strategies to increase the export of these stones. The gemstone market covers the trade of precious and semi-precious stones. This market also covers various sectors that manage the processing, sale and supply chain of stones. The evaluation of gemstones is based on market prices, type, quality, size and level of processing of the stone. Expert evaluation takes into account, in particular, the natural characteristics of the stone (color, cut, clarity) and market demands. The dynamics of the world market and fluctuations in exchange rates are also factors that affect the price.

Keywords. Precious stones, semi-precious stones, quality, expertise. Laboratory testing,

METALLAŞDIRILMIŞ DİSPERS QEYRİ-METAL QATIŞIQLARA MALİK OLAN FE ƏSASLI MATERİALLARIN YARADILMASI VƏ ONLARIN ANTİFRİKSİON XASSƏLƏRININ TƏDQIQI

İslam Gündüz Həmzəzadə
Arif Zülfiqar oğlu Əsgərov
hcrislam@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Materialların yaradılması, şübhəsiz, elmi-texniki prosesin inkişafında mühüm yer tutur. Bu sahə, xüsusən sürətli neytronlar əsasında enerji reaktorlarının yaradılması, daxili yanma mühərrikləri, qaz turbinləri, hesablama texnikası, radioelektronika və maşınqayırma sahələrindəki tədqiqatlarla sıx əlaqəlidir. Materialşünaslıq həmçinin bərk cisimlərin fizikası və kimyası ilə bağlı fundamental tədqiqatları da əhatə edir, bu isə yeni materialların sürətlə inkişafını təmin edir.

Ovuntu metallurgiyasının texnologiyası, materialların struktur və xassələrinin idarə edilməsində böyük imkanlar yaradır. Bu texnologiya, yeni, yüksək keyfiyyətli keramik, amorf və kompozit materialların yaranmasına təkan verir və müstəqil bir materialşünaslıq sahəsinin inkişafına səbəb olmuşdur. Ovuntu metallurgiyasının üsulları, müxtəlif detalların hazırlanmasında məhsuldarlığı və istehsalın səmərəliliyini artırır. Əlavə olaraq, bu texnologiya, tullantıların təkrar emalı və metal itkisinin azaldılması üçün əhəmiyyətlidir. Beləliklə, metal və maşınqayırma sənayesindəki tullantılardan qiymətli materiallar istehsal etmək mümkündür.

Ovuntu metallurgiyasının əsas üstünlüyü odur ki, burada metallurji tullantılarının yenidən işlənməsi mümkündür. Bu, dəmir tozu və yonqar kimi tullantıların effektiv şəkildə istifadə oluna bilməsi deməkdir. Əgər tullantılarda 20%-ə qədər dəmir və legirlənmiş elementlərin itgisi ola bilərsə, ovuntu istehsalı prosesində itki praktiki olaraq sıfıra bərabər olur.

Ovuntu materialları, xüsusilə tökmə detallarından fərqli olaraq, məsaməli olurlar. Bu məsaməlilik, materialın strukturunu dəyişdirərək, həm kiçik məsaməli, həm də yüksək məsaməli materialların istehsalını mümkün edir. Məsaməli materialların istehsalı, materialın xüsusiyyətlərinə görə fərqli tətbiq sahələrində istifadə oluna bilər, məsələn, metal "penoplast" şəklində yüksək məsaməli materiallar mühəndislik sahələrində, xüsusilə maşınqayırmada mühüm rol oynayır.

Son zamanlarda ovuntu materiallarının istehsalında keyfiyyət və kəmiyyət baxımından ciddi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər, ovuntu materiallarının tətbiq sahəsinin genişlənməsinə və müxtəlif mürəkkəb şəraitdə işləyə bilən materialların istehsalına səbəb

olmuşdur. 15-20 il əvvəl ovuntu materialları əsasən xırda detalların hazırlanmasında istifadə edilirdisə, indi isə bu materiallardan mürəkkəb, yüksək temperaturda və aqressiv mühitdə işləyən mühəndislik komponentləri hazırlanır.

Ovuntu metallurgiyasının gələcək inkişafı, maşın detallarının tullantısız texnologiya ilə istehsalına yönəlir. Bu prosesdə ikiqat presləmə və bişmə üsullarından istifadə edilir. Həmçinin, dəmirin müxtəlif metallarla legirlənməsi və əvvəlcədən legirlənmiş ovuntu materiallarının istifadəsi tədqiq olunmuşdur. Bu inkişaflar, daha möhkəm və uzunmüddətli materialların istehsalını təmin edir.

Bundan əlavə, metal-şüşə kompozit materialların yaradılması da ovuntu metallurgiyasının inkişafının növbəti mərhələsidir. Bu materiallar, şüşənin daxil edilməsi ilə materialın davamlılığını artırır və xüsusilə kənd təsərrüfatı maşınları və texnikasında istifadə üçün faydalıdır.

Paslanmayan poladın istehsalı, yüksək temperaturda və aqressiv mühitlərdə işləyən materialların hazırlanmasına imkan verir. Lakin, bu cür materialların istehsalı bahalı olduğu üçün kütləvi istehsalı məhdudlaşdırılır. İsti vakuum ştamplama və dinamik presləmə üsulları, bu materialların istehsalını daha səmərəli edir.

Ovuntu materiallarının inkişafı, müxtəlif legirləyici elementlərin əlavə edilməsi ilə həm korroziyaya qarşı dayanıqlılığın, həm də mexaniki gücün artırılmasına yönəldilmişdir. Bu, xüsusilə aqressiv mühitlərdə işləyən detalların korroziyaya qarşı dayanıqlılığını təmin edir. Lakin, məsaməli materiallar bəzən bu cür xüsusiyyətləri təmin etməyə bilməz. Bu səbəbdən, materialın məsaməsiz əldə edilməsi üçün yüksək temperatur və yüksək effektiv üsulların tətbiqi tələb olunur.

Materialların yaradılması və ovuntu metallurgiyasının inkişafı mühüm texnoloji irəliləyişlərə səbəb olmuşdur. Bu sahə, müxtəlif mühəndislik və sənaye sahələrində daha effektiv və dayanıqlı materialların istehsalına imkan yaratmışdır. Gələcəkdə, bu materialların daha da təkmilləşdirilməsi və müxtəlif tətbiqlərdə istifadəsi üçün yeni metodlar inkişaf etdiriləcəkdir.

CREATION OF FE-BASED MATERIALS WITH METALLIZED DISPERSED NON-METALLIC IMPURITIES AND STUDY OF THEIR ANTIFRICTION PROPERTIES

İslam Gunduz Hamzazadeh
hcrislam@gmail.com
Arif Zulfugar Asgarov
Azerbaijan Technological University

The paper discusses the development of iron (Fe)-based materials that are designed with metallized, dispersed non-metallic impurities. These materials are studied for their antifriction properties, which are essential for applications where reduced wear and friction are crucial, such as in mechanical components.

In the study, the authors investigate how the incorporation of non-metallic impurities in a metallized form affects the material's frictional behavior. By carefully dispersing these impurities within the iron matrix, the goal is to enhance the material's ability to resist wear and maintain its mechanical performance under frictional stress. The findings of the paper include insights into the optimal dispersion of these impurities and their influence on the overall performance, providing valuable information for the design of advanced materials with improved durability in engineering applications.

This research is significant for industries where high-performance materials are necessary to reduce energy loss due to friction, extend the lifespan of mechanical parts, and improve efficiency.

Keywords: Fe, universal, temperature, carbide.

POLİMER KOMPOZİTLƏRİN FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİ VƏ NÖVLƏRİNİN ÖYRƏNİLMƏSİİ

Ələmdar Aslan oğlu Əlbəndov
Alemdar.albendov2020@mail.ru
Əli Nəsrulla oğlu Muradov
İbrahim Həbib oğlu Hacızadə
Şənel Elşən oğlu Həsənzadə
Azərbaycan Texnologiya Universiteti

Polimer kompozitlər (PK) müxtəlif doldurucularla armaturlaşmış makromolekulyar birləşmələr (plastiklər) əsasında hazırlanan iki və ya çoxkomponentli materialların ümumi adını ifadə edirdır.PK-də matris birləşdirici əlaqə rolunu oynayır, əlavələr isə zəruri fiziki parametrləri təmin edir.

Xassələrinə görə, PK ənənəvi analoqlarindan nəinki geri qalmır, hətta bir çox hallarda onları üstələyir. Eyni zamanda PK daha yüngül olurlar.Bu isə onların dekorativ sənətkarlıqdan tutmuş aviasiya və kosmik sahələrə qədər geniş tətbiqini təmin edir.

Maddələrin tərkibini və bu maddələrin faizlə miqdarlarını dəyişdirməklə müxtəlif möhkkəmlik, sərtlik, istilik keçiriciliyi, elektroizolyasiya, kimyəvi və temperatura davamlılığı ilə xarakterizə olunan çox sayda yeni törəmə polimer kompozit materiallar əldə etmək mümkündür.

PK-ın sıxlığı geniş diapazonda dəyişir (400-dən 2800 kq/m3-ə qədər) və orta göstərici olaraq 1400 kq/m3 təşkil edir ki, bu da istehsalatda tez-tez istifadə olunan qara və əlvan metallarla müqayisədə 5-6 dəfə azdır. Müqayisə üçün qeyd edək ki, dəmirin sıxlığı 7800, misin sıxlığı 8900 kq/m3 təşkil edir. Hətta sıxlığı 2700 kq/m3 olan alüminium bu parametrdən demək olar ki, 2 dəfə aşağıdır.

Kiçik bir kütlə halında belə PK əla fiziki və mexaniki xüsusiyyətlərə malik ola bilirlər. Onların möhkəmlik həddi 70-1800 MPa aralığında dəyişir. PK içərisində ən möhkəmi karboploastikdir. Karbonlu poladlar üçün oxşar göstərici 240 MPa, alüminium ərintiləri üçün - 50-440 MPa təşkil edir.

PK-in istilik genişlənmə əmsalı (İGƏ) onların tərkibindən və quruluşundan asılı olub metallar və armatursuz plastiklərdən əhəmiyyətli dərəcədə kiçikdir. Karbplastiklərin İGƏ kvarsın İGƏ ilə müqayisə edilə bilər

. Doldurucusu şüşə və bazalt lifi olan bir sıra PK əla dielektrikl xassələri ilə xarakterizə olunurlar. Digər tərəfdən karbplastiklərin xüsusi müqavimətinin aşağı olması onlardan elektrotexnikada keçirici kimi istifadə etməyə imkan verir.

PK tərkibinin variativliyi müəyyən kimyəvi mühit üçün lazımi müqavimətə malik material seçməyə imkan verir. Məsələn, şüşə- və bazalt plastikləri elektrolitlərdə parçalanmırlar, bəziləri isə hətta 80°S-də 24% sulfat turşusu mühitində öz xassələrini saxlamış olur.

PK aşağı istilik keçiricilik əmsalına malik materiallardır. Belə ki, şüşə plastiklər üçün bu parametr 0,75 W/m °C təşkil edir. Müqayisə üçün, dəmirin istilik əmsalı 64 W / m ° C, alüminium ərintiləri 150-200 W / m °C-dir.

PK-in təsnifatı matrisə və doldurucuya əsasən aparılır. Matrisdə istifadə olunan polimerlərin çeşidinin olduqca böyük olmasına baxmayaraq əsas təsnifat termoreaktiv (reaktoplastlar.) və termoplastik polimer kompozitlər növü üzrə ararılır.

Reaktoplastlar. Reaktoplastlklara kiçik molekullu oliqomerlər: fenolformaldehid, poliefirlər, epoksidlər, silisiumüzvi birləşmələr, poliefir qatranları, bismaleinimidlər, imidəmələgətirici monomerlərin qarışıqları daxildir. Otaq temperaturunda matris maye vəziyyətdə olur.. Reaktoplastlar yüksək möhkəmliyi, istiliyə davamlılığı, hopdurcu və adgeziyə qabliyətinə malik olmaları və aşağı özlüllükləri ilə xarakterıə olunurlar.Onların çatışmayan cəhətlərinə kövrəklik, materialların yüksək məsaməliliyi, istifadə olunan həlledicilərin zəhərliliyi və qəlibləmə prosesinin əlavə zaman tələb edən termiki işləməsi daxildir ki, bu da zaman baxımından əlverişli deyildir.

Termoplastiklər.Termoplastiklərə yüksək molekullu birləşmələ (polifenollar, alifatik və aromatik poliamidlər, flüoroplastiklər) daxildir. Təbii şəraitdə matrislər bərk halda olur və onların saxlanılma müddəti praktiki olaraq qeyri-məhduddur.

Quruluşundan asılı olaraq termoplastik polimerlər amorf və qismən kristal polimer materiallara bölünür. Birincilər izotrop xassələri, elastikliyi və yüksək səth sürtünməsi ilə fərqlənirlər. Kristal materiallar isə zərbəyə və istilikyə davamlılığı və kimyəvi inertliyi ilə xarakterizə olunur. Termoplastiklərin çatışmayan cəhətlərinə ətraf mühitin təsirindən sürətli yaşlanması daxildir.Bu çatışmazlıq təkrar emal yolu ilə kompensasiya edilir.

PK-in ikinci ümumi təsnifatı doldurucuların növünə əsaslanır. Bu növlərə armaturlaşdırılmış və dispers-doldurulmuş kompozit materiallar daxildirlər. Öz növbəsində armaturlşdırılmış polimer kompozitlər lifli və təbəqli materiallara bölünür. PK-ın tərkibində doldurucunun miqdarını geniş diapazonda dəyişmək mümkündür, hətta onun miqdarını 98%-ə qədər çatdırmaq olar.

Şüşəplastiklər. Şüşəplastiklərə qeyri-üzvi şüşənin əriməsi nəticəsində alınan liflərlərlə armaturlaşmış PK. Əsas kimi həm reaktoplastlar, və həm də termoplastlar iştirak edə bilər. Şüşəplastiklər plastiklər möhkəmlik və aşağı elektrik keçiricilik ilə xarakterizə olunur.Bu materialların radio dalğalarını buraxması onların ilk praktik istifadənə səbəb olmuşdur.

Karboplastiklər. Karboplastiklərdə armaturlaşdırılmıa funksiyasını karbon lifləri və ya, toxunmuş təbəqələr yerinə yetirir. Matris olaraq həm reakktoplastlardan, ya da termoplastiklərdan istifadə olunur. Karbon liflərinin istehsalı üçün xammal sintetik və ya təbii materiallarr: selüloza, viskoz, akrilnitril sopolimerləri, fenol qatranları, neft və kömür qatranları və s.tətiq olunur.

Borplastiklər. Bor plastiklərinə tərkiinə armaturlaşdırıcı doldurucusu monolif, lent və təbəqələr şəklində ola bilən bor lifləri podaxil olan polimer kompozit materiallar daxildir.

Üzviplastiklər Üzviplastiklərdə əsasən aromatik poliamidlər, sərt zəncirli polimerlər, alifatik poliamidlər, yüksək molekullu polietilen təşkil edən üzvi sintetik liflərdən istifadə edirlər.

Tekstolitlər Tekstolitlərə isti presləmə yolu ilə alınan müxtəlif tərkibli polimer kompozit materiallar daxildir. Doldurucu kimi təbii və ya süni parçalardan (pambıq, şüşə, karbon, asbest, bazalt parçaları).istifadə olunur.

ƏDƏBIYYAT

1.Кербер М.Л. и др. Полимерные композиционные материалы: структура, свойства, технология. - СПб.: ЦОП Профессия. 2018.

2.Перепелкин К.Е. Армирующие волокна и волокнистые полимерные композиты - СПб.: ЦОП Профессия. 2015. 380 стр. ISBN: 978-5-91703-009-8

3.Михайлин Ю.А. Конструкционные полимерные композиционные материалы. 2-е изд - СПб.: ЦОП Профессия. 2015

STUDY OF PROPERTIES AND TYPES OF POLYMER COMPOSITES

Alamdar Aslan oglu Albendov
Ali Nasrulla oglu Muradov
Ibrahim Habib oglu Hajizade
Shanel Elshan Hasanzade
Alemdar.albendov2020@mail.ru
Azerbaijan Technological University

The main physical and mechanical properties of polymer composite materials, their classification by matrix and fillers, types (thermoplastics, thermoplastics; fiberglass, carbon fiber, boron plastic, organoplastic, textolite) and their properties were studied.

ALUNİT FİLİZİNİN SULFİT TURŞUSU İLƏ EMALI ÜÇÜN İŞLƏNİB HAZIRLANMIŞ REAKTORUN QARIŞDIRMA MEXANİZMİNİN DİNAMİKASI

Cəmil Səfərov[1]
Jamil.Safarov@azeraluminium.com
Ramil Həsənov[2]
ramil.hasanov@mdu.edu.az
Azərbaycan Texnologiya Universiteti[1]
Mingəçevir Dövlət Universiteti[2]

Alüminium çağdaş zəmanəmizdə ən populyar və təkrar emal edilə bilən metallardan biridir. Müasir həyatı alüminiumsuz təsəvvür etmək belə mümkün deyil. Dünyada onun istehsal həcmi digər əlvan metalların istehsal həcmlərini nəzərəçarpacaq dərəcədə qabaqlayır və yalnız poladın istehsal həcmindən geri qalır. Alüminium kimyəvi aktiv metal olduğundan, əsasən təbiətdə müxtəlif mineralların tərkibində kimyəvi birləşmə şəkilində olur.

Ədəbiyyat mənbələrindən məlumdur ki, alüminium tərkibli mineralların sayı 250-yə çatır və onların 40%-dən çoxu alümoslikatlardır [1,2]. Ən geniş yayılmış alüminium tərkibli ilkin minerallar olan alümosilikatlara misal olaraq çöl şpatlarını (*ortoqlaz, albit, anortit*) göstərmək olar. İlkin minerallar xarici mühitin (karbon qazı, temperatur, turşu və qələvi məhlullarının) təsirindən parçalanaraq ikinci minerallara çevrilirlər. İkinci mineralların tərkibində alüminium ***hidroksid (boksit)***, ***kaolinit (gil, kaolin)***, ***alunit*** şəklində olur. Bir qayda olaraq alüminium filizlərindən əvvəlcə texniki alüminium oksidi (gil-torpaq) istehsal olunur, sonra isə ondan metal alüminium alınır.

Ümumiyyətlə, xarici tədarüklər siyasi, iqtisadi və ya digər səbəblərə görə hər zaman etibarsız ola bilər. Son bir neçə il ərzində bəzi boksit filizi hasil edən ölkələr öz sənayelərini milliləşdirmiş, digərləri hasil edilmiş boksit və ya xam alüminiuma görə vergiləri və qonorarları artırmış, hətta bəzi ölkələrdə siyasi ab-hava elə bir həddə çatmışdır ki, tədarükün kəsilməsi gerçəkləşdirilmişdir. Elə bu səbəbdəndir ki, suveren respublikamızda alüminium istehsalı üçün alternativ yerli xammal mənbələrinin axtarılması və həmin mənbələrdən hasil olunan xammalların müasir emal texnologiyalarının işlənib hazırlanması aktual bir məsələ kimi meydana çıxır. Bu baxımdan alunit respublikamızda mövcud olan və gələcəkdə alüminium istehsalında boksiti əvəz edə biləcək ən perspektivli daxili resursdur və alunit filizinin müasir tələblərə cavab verən kompleks emalı texnologiyasının işlənib hazırlanması yaranmış çətin durumdan çıxış yolu kimi dəyərləndirilməkdədir.

Hal-hazırda alunit filizinin kompleks emalı sahəsində müəlliflər tərəfindən yeni prinsipial texnoloji sxemlər və bu sxemlər üzrə həm laboratoriya, həm də sənaye tətbiqi sahələrində araşdırmalar həyata keçirilərək müsbət nəticələr əldə edilmişdir. Əsasən sənaye sınaqlarının həyata keçirilməsi məqsədilə müxtəlif xüsusi qurğular işlənib hazırlanmışdır ki, bunlardan da ən önəmlisi reaktordur. Bu məqalədə müəlliflər tərəfindən işlənib hazırlanmış alunit filizinin kompleks emalı texnologiyasının həyata keçirilməsi vaxtı istifadə olunan original reaktorun qarışdırma qurğusunun dinamikası araşdırılmışdır.


Hal hazırda reaktorda baş verən fiziki-kimyəvi prosesləri intensivləşdirmək üçün mexaniki qarışdırma qurğularından geniş istifadə olunur. Ötürücünün tipindən asılı olaraq isə qarışdırıcı qurğular fırlanan və ya irəli-geri hərəkət edən ola bilirlər. Tədqiqat işinin yerinə yetirilməsi üçün işlənib hazırlanmış reaktorda fırlanma tipli qarışdırıcı qurğu tətbiq olunmuş və bu qurğuda fırlanma hərəkəti yaratmaq üçün standart elektrik mühərriki və tipik reduktordan istifadə olunmuşdur.

Ümumiyyətlə, reaktordakı əsas mexanizm qarışdırma qurğusudur. Belə qurğuların konstruksiyalarının sadəliyi onların yüksək etibarlılığını və səmərəliliyini təmin edir. Aparılmış çoxsaylı araşdırmalar deməyə əsas verir ki, bu tipli konstruksiyalarda işçi orqanlarda perforasiya olunmuş taxma lövhələrdən (şəkil 1) istifadə etmək daha


məqsədəuyğundur. O da məlumdur ki, perforasiya olunmuş işçi orqanların hesablanması mürəkkəb riyazi modellərin istifadəsini tələb edir.

Reaktorlarda qarışdırılaraq homogenləsdirilmiş dispers sistemlərdə fiziki-kimyəvi texnoloji proseslər daha səmərəli şəkildə gedir. Bu isə, aşağıda qeyd olunan iki amilin təsiri nəticəsində əldə edilir: - *qarışığın istiqamətləndirilmiş* və *rəqsi hərəkəti.* İstiqamətləndirilmiş hərəkətin köməyi ilə prosesdə iştirak edən məhlul (suspenziya) homogen tərkib əldə edir, rəqsi hərəkət isə faza hüdudlarında mübadilə proseslərinin intensivləşməsinə kömək edir.


Bir çox müəlliflərin [3,4] işlərində müxtəlif növ ucluqları olan qarışdırıcı qurğuların çoxlu konstruksiyaları təqdim olunur. Bu konstruksiyalar içərisində ən çox tətbiq olunanları isə konusvari deşikləri olan taxma ucluqlara malik qarışdırma qurğularıdır. Bu forma, işçi orqanın hərəkəti zamanı, sürət fərqinə görə, qarışığın intensiv qarışdırılmasına kömək edən turbulent axınların meydana gəlməsi ilə əlaqədardır. Qarışdırma mexanizminin taxma ucluğundakı perforasiya edilmiş deşiklərdən maye axınının simulyasiyası üçün biz ANSYS hesablama paketi ilə birlikdə özünü yaxşı təsdiq etmiş sonlu elementlər metodunu tətbiq edirik.




Şəkil 1. Taxma lövhədəki deşiklərin forması




Şəkil 2. Perforasiya olunmuş konik deşikli taxma lövhənin hesabat sxemi




Şəkil 3. Mütləq sürətlərin paylanması epürü



Şəkil 4. Konik deşikdə təzyiqin paylanması epürü



Şəkil 5.Perforasiya olunmuş qeyri-simmetrik deşikli taxma lövhədə təzyiqin paylanması epürü



Şəkil 6. Perforasiya olunmuş qeyri-simmetrik deşikli taxma lövhədə mayemin hərəkət sürətinin paylanması epürü

Beləliklə, aparılan tədqiqatlar qarışdırma qurğusunun hesablanması üsulunu işləyib hazırlamağa imkan verir. Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, perforasiya edilmiş hissədəki deşiklərin forması qarışdırma prosesinin təbiətinə əhəmiyyətli dərəcədə təsir göstərir, çünki mayedə burulğan meydana gəlməsi tamamilə taxma lövhənin sürəti və deşiklərin forması ilə müəyyən edilir. Aparılan təcrübələr və hesabat nümunələri əsasında müəyyən edilmişdir ki, asimmetrik deçikli taxma lövhələr qarışdırma məsələsinin həllində daha effektivdir. Qarışdırma qurğularının inkişafı üçün çox vacib məsələ müəyyən bir texnoloji proses üçün keyfiyyət meyarları məsələsidir. Aydındır ki, qarışığın tam homogenliyinin minimum vaxt ərzində əldə edildiyi bir proses ideal proses hesab edilə bilər.

ƏDƏBİYYAT

1. İsrafilov T.İ. Alüminium. –Bakı: "Maarif" nəşriyyatı, 1991. -592 s.
2. Mudd, Gavin M. "Assessing the availability of global metals and minerals for the sustainable century: from aluminium to zirconium." *Sustainability* 13.19 (2021): 10855.
3. Раскин Х.И. Применение методов физической кинетики к задачам вибрационного воздействия на сыпучие среды. ДАН СССР. -1975.- 220 с., № 1.- С.54-57.
4. Сафаров Д.И. Система очистки сточных вод, выполненная на основе вибрационного фильтра-коагулятора. ЭКОЛОГИЯ Центрально Черноземной Области Российской Федерации. –Липецки: 2000. №2. -С.49-52.

DYNAMICS OF THE STIRRING MECHANISM OF THE REACTOR DESIGNED FOR THE SULPHUROUS ACID PROCESSING OF ALUNITE ORE

Jamil Safarov[1]
Jamil.Safarov@azeraluminium.com
Ramil Hasanov[2]
ramil.hasanov@mdu.edu.az
Azerbaijan Technological University[1]
Mingachevir State University[2]

The article investigates the dynamics of the stirring mechanism of the reactor, which is the main component of the industrial installation developed for the implementation of the complex processing technology of alunite ore. Based on these investigations, a calculation methodology for the reactor's stirring mechanism has been developed. The results show that the shape of the holes in the perforated section significantly affects the nature of the mixing process.

Keywords: aluminium, reactor stirring mechanism, technology, mechanics, metallurgy.

TARA ŞÜŞƏLƏRININ ISTEHSALINDA TƏTBIQ OLUNAN MAQNEZIUM TƏRKIBLI XAMMALLARIN TƏDQIQI

Azər İsmayıl oğlu Məmmədov
mammadov_azer1974@mail.ru
Qənirə Zərgər qızı Cabbarova
genire.cabbarova@mail.ru
İlhamə Fəxrəddin Allahverdiyeva
allahverdiyeva.ilhame@inbox.ru
Şəfa Şahid Manafova
manafovaelgül@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Şüşə tara istehsalı üçün standart xammaldan istifadə olunur - turşu və qələvi birləşmələr - silisium dioksid (SiO_2), bor anhidridi (B_2O), alüminium oksid (Al_2O_3), natrium sulfat (Na_2SO_4), soda (Na_2CO_3), kalium (K_2CO_3), əhəngdaşı ($CaCO_3$), dolomit ($CaCO_3 \cdot Mg\ CO_3$) və şüşə əritmə texnologiyasında zəruri olan digər köməkçi komponentlər [1].

Hazırkı tədqiqat işində "Glassica" şüşə tara müəssisəsində istehsal olunan şüşə taraların kimyəvi tərkibinin təyini həyata keçirilmişdir. Bu məqsədlə öncə müəssisədə tətbiq edilən bəzi xammalların kimyəvi və qranulometrik tərkibləri analiz edilmişdir.

Maqnezium oksidi (MgO)- şüşənin kimyəvi və mexaniki davamlılığını artırmaq, bişmə zamanı şüşə kütləsinin kristallaşmasını azaltmaq üçün şixtanın tərkibinə daxil edilir.Dolomit tara şüşələrinin istehsalında vacib xammal olub tərkibə MgO daxil etmək üçün daxil edilir ki, bu da materialın həm kimyəvi həm də mexaniki davamlılığını yaxşılaşdırır [2]. Müəssisədə əldə rəhbər tutulan sənədə əsasən dolomitin tərkibində kalsium-maqnezium birləşmələrinin miqdarı yüksək, alüminium və silisium birləşmələrinin miqdarı isə aşağı olmalıdır [3].Dəmir oksidinin miqdarı isə 0,1%-i aşmamalıdır (cədvəl№1).

Cədvəl 1.

Şüşə tara istehsalında tətbiq olunan dolomitin standart üzrə tələb olunan tərkib göstəriciləri


Materialın təsviri	Ölçü vahidi	Qiymət
Kimyəvi birləşmə		
MgO az olmamalıdır	%	19
CaO az olmamalıdır	%	29
Fe2O3 çox olmamalıdır	%	0,1
Al2O3	%	1,5
SiO2	%	2

Tədqiqat üçün dolomitin tərkib analizi quruducu şkafdan və mufel peçindən istifadə edilməklə XRF cihazında aparılmışdır. Ələk analizlərinin aparılmasında isə vibrator ələkdən istifadə olunmuşdur. Müəssisədə tətbiq olunan dolomitin kimyəvi və dənəvər fraksiya tərkibinin analiz nəticələri 2№-li cədvəldə və şəkil1-də verilmişdir.

Cədvəl 2

Tara şüşələrinin istehsalında tətbiq olunan dolomitin kimyəvi və dənəvər tərkibi

Kimyəvi tərkib nəticələri				
Əsas oksidlər				
MgO, % (>20 ±1,0)	CaO, % (>31 ±1,0)	Fe_2O_3, % (≤0,1)	Al_2O_3, % (≤1,5±0,15)	SiO2, % (≤2,0)
22,101	30,115	0,022	0,031	0,132
İkinci dərəcəli oksidlər				
Na_2O, %	SO_3, %	K_2O, %	TiO_2 %	
0,016	0,062	0,060	0,015	
Ələk analizinin nəticələri				
3350 µm (0%)	2000 µm (<0,5%)	1000 µm (<12%)	100 µm	Pallet (<30%)
0	0	16,605	74,95	8,6



Şəkil 1. Dolomit xammalının qranulometrik fraksiya tərkibi.

Nəticə təhlilləri göstərir ki, dolomitin kimyəvi tərkibində CaO-nin miqdarı normadan bir qədər az, dənəvər tərkibdə isə 1000 µm ölçülü fraksiyanın miqdarı isə normadan 4,6% yüksəkdir

ƏDƏBİYYAT

1. Wallenberger F. T., Bingham P. A. Fiberglass and Glass Technology: Energy-Friendly Compositions and Applications. Springer. 2009. 474 p.
2. Маневич В.Е., Субботин К.Ю., Ефременков В.В. Сырьевые материалы, шихта и стекловарение, М.: РИФ «Стройматериалы», 2008.
3. HORN170210. Требование к материалом, 2017.

RESEARCH ON MAGNESIUM-CONTAINING RAW MATERIALS USED IN THE PRODUCTION OF CONTAINER GLASS

Azer Ismayil Mammadov
Ganira Zargar Jabbarov
Ilhama Fakhraddin Allahverdiyeva
Shafa Shahid Manafova
Azerbaijan State University of Economics

The current research work investigated the composition of magnesium-containing raw materials used in the production of container glass and studied their effects on properties. For this purpose, the chemical and granular composition of dolomite used in a local enterprise was analyzed and compared with the standard requirements for raw materials.

Keywords: container glass, dolomite, chemical composition, properties, standard requirements.

YERLI ISTEHSAL MÜƏSSISƏSINDƏ ISTEHSAL OLUNAN TARA ŞÜŞƏLƏRININ XAMMAL VƏ KIMYƏVI TƏRKIBININ TƏDQIQI

Nazilə Fərman qızı Alverdiyeva
nazila.a@mail.ru
Ülkər Vaqif qızı Neymətova
ulker-1975@mail.ru
İlhamə Fəxrəddin qızı Allahverdiyeva
allahverdiyeva.ilhame@inbox.ru
Qənirə Zərgər qızı Cabbarova
genire.cabbarova@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti


Şüşənin tərkibi təxminən oksidlərə əsaslanan dəyişkən tərkibli silikat düsturu ilə ifadə edilir; R_2O RO $6SiO_2$, burada R_2O monovalent ionlardır (kalium, natrium); RO - ikivalentli ionlardır (kalsium, maqnezium). Alüminium, dəmir, xromun üçvalentli ionları əhəmiyyətli dərəcədə az miqdarda olur. Əsasən, şüşə taraların istehsalı üçün silisium, kalsium və natrium ionlarının üstünlük təşkil etdiyi soda-əhəng şüşəsi istifadə olunur. Standart tara şüşələrinin tərkibi (%-lə) aşağıdakı kimidir: SiO2 – 71,5-71,97; Al_2O_3 - 2,52-3,3; CaO – 5,2-6,03; MgO - 3,2-3,96; Na_2O - 14,97-16; C_2O_3 - 0,1-0,2; Fe_2O_3 - 0,21-0,6 [1,2].

Hazırkı tədqiqat işində "Glassica" şüşə tara müəssisəsində istehsal olunan şüşə taraların kimyəvi tərkibinin təyini həyata keçirilmişdir. Bu məqsədlə öncə müəssisədə tətbiq edilən dolomitin, çöl şpatının və natrium sulfatın kimyəvi və qranulometrik tərkibləri analiz edilmişdir. Çöl şpatı xammalının analiz nəticələri 1№-li cədvəldə verilmişdir.

Cədvəl1.

Çöl şpatının kimyəvi tərkib və ələk analizinin nəticələri

Kimyəvi tərkib nəticələri				
Əsas oksidlər				
Na_2O, % (≥10,5)	Fe_2O_3, % (≤0,3)	Al_2O_3, % (≥18±1)	K_2O, %	SiO_2, % (≤68±1)
7,722	0,163	22,163	8,798	58,710
İkinci dərəcəli oksidlər				
MgO, %	P_2O_5,%	CaO, %	TiO_2 %	Na_2O+K_2O, %
0,416	0,084	0,579	0,026	16,52
Ələk analizinin nəticələri				
≥1000μm (0%)	≥125 μm (>45%)	≥ 100 μm	≥63μm (<1 %)	Pallet
0,00	55,64	12,09	17,275	15,005



Şəkil 1.Çöl şpatı xammalının qranulometrik fraksiya tərkibi.

Çöl şpatının analiz təhlilləri xammalın tərkibində Na_2O-nin miqdarının normadan aşağı, dənəvər tərkibdə isə ≥63µm ölçülü fraksiyanın normadan çox yüksək olduğunu göstərir.

Məlum olduğu kimi şüşə taralar qida və içkilərlə birbaşa təmasda olan şüşə məmulatlarıdır. Bu səbəbdən də şüşə taraların lazımi mexaniki möhkəmliyi liə yanaşı kimyəvi maddələrə kimyəvi dayanıqlı olması onların keyfiyyətinə qoyulan əsas tələblərdəndir. Bir material kimi şüşənin demək olar ki, bütün fiziki-kimyəvi xassələri onların kimyəvi tərkibi ilə birbaşa əlaqəlidir [3]. Bu amili nəzərə alaraq "Glassika" şüşə tara zavodunda istehsal olunan şüşə taraların kimyəvi tərkibi götürülən nümunələr əsasında öyrənilmişdir. Şüşə tara nümunələrinin kimyəvi tərkibinin analizləri 4 mərhələli cilalama və hamarlama prosesindən sonra XRF cıhazında aparılmışdır. Tədqiqatın nəticələri 4№-li cədvəldə verilmişdir.

Cədvəl2

Tədqiqat üçün seçilmiş tara şüşə nümunələrinin tərkib analizinin nəticələri

s№	SiO_2 % (71,5-71,97)	Na_2O % (14,97-16)	CaO % 5,2-6,03)	MgO % (3,2-3,96)	Al_2O_3 % (2,52-3,3)	K_2O % (0,5-2,5)	Fe_2O_3 % (0,21-0,6)	Cr2O3 % (0,1-0,2)	SO_3 % (0,15-2,5)
1.	68,11	13,34	9,65	2,06	1,94	0,59	0,316	0,153	0,160
2.	69,01	13,25	9,63	2,06	2,01	0,61	0,315	0,154	0,159
3.	68,13	13,33	9,55	2,05	1,96	0,58	0,314	0,156	0,163
4.	68,12	13,35	9,62	2,07	1,95	0,62	0,316	0,155	0,162

Tədqiqat üçün götürülmüş şüşə nümunələrinin tərkib analizinin nəticələrinin təhlili göstərdi ki, məhsulların tərkibində SiO_2, MgO, Al_2O_3-ün miqdarının tələb olunan ümumi standart göstəricilərindən bir qədər az, CaO-nin miqdarı isə yüksəkdir.

ƏDƏBİYYAT

1. Власова С. Г.Основы химической технологии стекла: учебное пособие / С. Г. Власова; [науч. ред. В. А. Дерябин]. – Екатеринбург: Изд-во Урал. ун-та, 2013. – 108 с. – ISBN 978-5-7996-0930-6.
2. Земляной, К. Г.; Павлова, И. А Фазовые равновесия в оксидных системах: учебник. Издательство Уральского университета 26-окт-2021.
3.Wallenberger F. T., Bingham P. A. Fiberglass and Glass Technology: Energy-Friendly Compositions and Applications. Springer. 2009. 474 p.

Nazila Farman Alverdiyeva
Ulkar Vagif Neymatova
Ilhama Fakhraddin Allahverdiyeva
Ganira Zargar Jabbarov
Azerbaijan State University of Economics

In the present research work, the raw materials and chemical composition of container bottles produced at the "Glassika" glass container plant were studied and the effect of the results on the properties of the finished product was studied.

Keywords: container bottles, raw materials, chemical composition, feldspar, properties.

TƏBƏQƏ ŞÜŞƏ ISTEHSALINDA TƏTBIQ OLUNAN MAQNEZIUM VƏ KALSIUM TƏRKIBLI XAMMALLARIN TƏDQIQI

Nigar Oqtay Məmmədova
nika.mamedova.75@mail.ru
Afət Məstan qızı Cəfərova
afa.jafarova@mail.ru
Şəfa Şahid qızı Manafova
manafovaelgül@gmail.com
Aynurə Fəxrəddin qızı Həsənova
aynure.hesen@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti

Şüşə qarışığındakı komponentlər prosesdəki rollarına görə isə beş kateqoriyaya bölünə bilər: şüşəyaradanlar, ərimə temperaturunu aşağı salan maddələr, xassələri tənzimləyən birləşmələr, rəngləyicilər və şəffaflaşdırıcılar.

İstehsal olunmuş hazır məhsulun keyfiyyəti yuxarıda qeyd olunan komponentlərin nisbətinin düzgün seçilməsindən,və bu məqsədlə istifadə olunan xammalların kimyəvi tərkibindən əhəmiyyətli dərəcədə asılıdır [1].

Lazımi xassələrə malik şüşə materiallarının əldə edilməsində xassə tənzimləyici oksidlərin rolu çox böyükdür ki, bunların içərisində də CaO və MgO xüsusi əhəmiyyət kəsb edir. Bu oksidlər şüşənin kimyəvi və mexaniki davamlılığını artırmaq, bişmə zamanı şüşə kütləsinin kristallaşmasını azaltmaq üçün şixtanın tərkibinə daxil edilir. Ölkəmizdə istehsal olunan təbəqə şüşənin tərkibində MgO 4-5% təşkil edir və bu oksid tərkibə dolomit vasitəsilə daxil edilir [2].

Təbəqə şüşə istehsalında əsas xammallardan biri də əhəngdir ki, onun vasitəsiylə şüşənin tərkibinə 8-9% aralığında CaO daxil edilir. Bu oksid şüşənin xassələrinin tənzimlənməsində mühüm rol oynayır. "Azerfloat" müəssisəsində istifadə olunan əhəngin tərkib göstəriciləri HORN normaları üzrə tənzimlənir (CədvəlN№1).

HORN üzrə tətbiq olunan əhəngin tələb olunan kimyəvi tərkib göstəriciləri

Materialın təsviri	Ölçü vahidi	Qiymət
Kimyəvi birləşmə		
MgO çox olmamalıdır	%	0,5
CaO az olmamalıdır	%	53
Fe_2O_3 çox olmamalıdır	%	0,1
Al_2O_3		0,5
SiO2	%	1
$CaCO_3$ + $MgCO_3$ az olmamalıdır	%	90


Göründüyü kimi tələb olunan əhəngin tərkibində CaO-nin miqdarı 53%-dən az olmayaraq normalaşdırılır. Arzuolunmaz komponent kimi dəmir-oksidinin miqdarı 0,1-dən çox olmamalıdır [3].

Hazırkı tədqiqat işində kalsium tərkibli xammal kimi istifadə olunan yerli əhəng tozunun kimyəvi tərkibi və qranulometrik tərkibi müəsisədə rəhbər tutuln standartlara uyğunluq baxımından tədqiq edilmişdir. Tədqiqatın nəticələri 2№li cədvəldə və şəkil1-də verilir.

Cədvəl 2

Əhəng tozunun kimyəvi tərkib və ələk analizinin nəticələri

Kimyəvi tərkibin analiz nəticələri					
Əsas oksidlər					
MgO, % (≤0,5)	CaO, % (≥53,0±0,5)	Fe_2O_3, % (≤0,1)	Al_2O_3, % (≤0,5±0,15)	SiO_2, % (≤1,0±0,3)	
0,876	54,040	0,068	0,101	0,497	
İkinci dərəcəli oksidlər					
SO_3 %	Na_2O %	K_2O %	TiO_2 %		
0,057	0,063	0,019	0,007		
Ələk analizinin nəticələri					
4750 µm (0%)	3350 µm (0%)	2000 µm (0%)	1000 µm (<25%)	100 µm	Pallet (<30%)
0	0	0,00	0,07	78,33	21,61



Şəkil 1. Əhəng tozunun dənəvər fraksiya tərkibinin diaqramı.

Təhlillərdən göründüyü kimi əsas xammallardan biri olan əhəngin tərkibində MgO-nin miqdarı 0,376% normadan çoxdur ki, bu da əldə edilən materialın xassəsində ciddi dəyişikliklərə səbəb olmur. Bu xammalın dənəvər fraksiyası isə 100 µm ölçülü hissəciklərdən və paletdən təşkil olunmuşdur ki, bu da tələblərə uyğundur.

ƏDƏBİYYAT

1.Кручинин, Д. Ю.; Фарафонтова, Е. П. Физическая химия стеклообразного состояния : учебное пособие Издательство Уральского университета. 23-июл-2021.
2. Маневич В.Е., Субботин К.Ю., Ефременков В.В. Сырьевые материалы, шихта и стекловарение, М.: РИФ «Стройматериалы», 2008.
3.HORN170210. Требование к материалом, 2017.

STUDY OF MAGNESIUM AND CALCIUM-CONTAINING RAW MATERIALS USED IN THE PRODUCTION OF SHEET GLASS

Nigar Ogtay Mammadova
Afet Mastan giziJafarova
Shafa Shahid Manafova
Aynura Fakhraddin Hasanova
Azerbaijan State University of Economics

The article analyzes the standard requirements for calcium-containing raw materials used in the "Azerfloat" glass plant, and studies the chemical and granular composition of the lime used. The results obtained are compared and considered important in the selection of calcium-containing raw materials.

Keywords: sheet glass, calcium oxide, magnesium oxide, standard requirements, chemical composition

ZƏRGƏRLİKDƏ İSTİFADƏ OLUNAN QİYMƏTLİ METALLAR VƏ ONLARIN ÖZ ƏYARLARINA UYĞUNLUĞUNUN EKSPERTİZASI

Nazilə Fərman qızı Alverdiyeva
nazila.a@mail.ru
Nail Mail oğlu Xudaverdiyev
nail.xudaverdiyev123@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Qiymətli metallar minilliklər boyu zərgərlik dizaynının və mədəni irsin ayrılmaz hissəsi olmuşdur. Onların nadirliyi, parlaqlığı və işləmə qabiliyyəti onları həm dekorativ, həm də funksional məqsədlər üçün seçim materialına çevirmişdir. Bununla belə, bu metalların fiziki və kimyəvi xüsusiyyətləri onların müxtəlif şəraitlərdə istifadə edilməsinə böyük təsir göstərir. Metal və onun quruluşu arasındakı uyğunluq təkcə zərgərlik məmulatının uzunömürlülüyünü deyil, həm də qiymətli daşları etibarlı şəkildə saxlamaq və zamanla aşınmaya qarşı müqavimət göstərmək qabiliyyətini müəyyənləşdirir.

Qızıl parlaq sarı çalarlarına, korroziyaya qarşı yüksək davamlılığı, elastikliyi səbəbindən zərgərlikdə əsas qiymətli metallardan sayılır. Bu keyfiyyətlər zaman keçdikcə oksidləşmə və ya ləkələnmə riski olmadan mürəkkəb dizaynları formalaşdırmağı asanlaşdırır. Saf qızıl (24K və ya 99,9%) yumşaqdır və deformasiyaya meyllidir. Bu da qiymətli daşların ona etibarlı şəkildə bərkidilməsi üçün yararsızdır. Mexanik xüsusiyyətlərini artırmaq üçün qızıl mis, gümüş, nikel, sink və ya palladium kimi digər metallarla qarışdırılır. Bu ərintilər qızılı estetik xüsusiyyətləri ilə balanslaşdırır və metalın sərtliyini, aşınma müqavimətini və rəng dəyişkənliyini artırır.

Qızıl ərintilərinin əyarlarına görə müqayisəsi

Karat dəyəri	Qızıl tərkibi	Qarışdırılmış metallar	Rəng tonu	Sərtlik	Əsas xüsusiyyətlər
24K	99,9%	Heç biri	Parlaq sarı	~30–40 HV	Çox yumşaq, ən yüksək təmizlik, asanlıqla deformasiya olunur
22K	~91,6%	Mis, gümüş	Sarı	~60–70 HV	Daha yumşaq, yüngül parçalar üçün uyğundur
18K	75.0%	Mis, gümüş, nikel	Sarı/ağ	~120–150 HV	Təmizlik və gücün yaxşı balansı
14K	58,3%	Mis, nikel, sink	Açıq sarı, ağ	~150–200 HV	Davamlı, üzüklərdə və gündəlik geyimlərdə geniş istifadə olunur
10K	41,7%	Daha yüksək əsas metallar	Ağımtıl, sarı	~200+ HV	Çox güclü, ən az təmiz, ləkələnməyə daha çox meyllidir

Zərgərlikdə qızıl ərinti elementlərinin nisbətindən asılı olaraq, müxtəlif karat dəyərlərinə bölünür və nəticədə 18K, 14K və ya 10K qızıl əldə olunur.

►24K qızıl yumşaqlığına görə qiymətli daşlar üçün ümumiyyətlə tövsiyə edilmir.

►18K və 14K davamlılıq və lüks arasında yaxşı bir keçid təmin edir və əsasən nişan üzüklərində, mürəkkəb dizaynlarda istifadə olunur.


►10K qızıl isə kişi üzükləri və ya ağır bilərziklər kimi zərgərlik məmulatları üçün ən uyğun əyardır.

Ağ parlaq parıltısı, mükəmməl əks etdirmə qabiliyyəti və yüksək elektrik və istilik keçiriciliyinə görə *gümüş* zərgərlikdə ən qədim və ən çox istifadə edilən metallardan biridir. Xalis qızıl kimi saf şəklində olan gümüş (99,9%) zərgərlik tətbiqləri üçün çox yumşaqdır. Gümüş yaxşı işləmə qabiliyyəti və parlaq bitirmə təklif etsə də, digər qiymətli metallarla müqayisədə qaralmağa və mexaniki aşınmaya daha çox meyllidir. Mexaniki xassələrini yaxşılaşdırmaq üçün gümüş adətən digər metallarla qarışdırıldırılır. Tərkibi 92,5% gümüş və 7,5% mis (və ya bəzən az miqdarda sink və ya germanium kimi digər metallar) olan qarışım gümüşün möhkəmliyini və iş qabiliyyətini artırır, eyni zamanda estetik cəlbediciliyini qoruyur. Lakin ərintidəki mis hava, nəm, kükürd və ya turşu şəraitə məruz qaldıqda metalda səthin oksidləşməsi və qaralması baş verir.

Platin zərgərlikdə istifadə edilən ən prestijli və qiymətli metallardan biridir. O, təbii ağ parıltısı, yüksək sıxlığı və əla korroziyaya davamlılığı ilə qiymətlidir. Qızıl və gümüşdən fərqli olaraq, platin demək olar ki, təmiz formada istifadə olunur, çünki o, ərinti olmadan belə struktur bütövlüyünü qoruyur (adətən 95% platin (Pt950 kimi qeyd olunur).

Platin aşınmaya və deformasiyaya yüksək davamlıdır. Qızıldan fərqli olaraq, aşınma nəticəsində platin zamanla kütləsini itirmək əvəzinə yerini dəyişdirir, yəni parametrlər daha uzun müddət etibarlı qalır. Platin təbii olaraq biouyğundur və metallara qarşı allergiyası olanlar üçün idealdır. Həmçinin platin normal şəraitdə oksidləşmir və qaralmır, bu onu gündəlik istifadə üçün əla seçim edir.

Qiymətli metalların sıxlıq və güc müqayisəsi qrafiki



Platini formalaşdırmaq qızıl və ya gümüşdən daha çətindir. O, daha yüksək temperatur və xüsusi alətlər tələb edir. Buna görə də platin həm xammal, həm də əmək baxımından qızıl və ya gümüşdən daha bahadır.

Zərgərlik məmulatlarının dizaynında qiymətli metalların istifadəsi təkcə estetik cəlbedicilik deyil, həm də funksional dayanıqlıq və müxtəlif parametrlərlə uyğunluq baxımından mühüm rol oynayır. Zərgərlikdə qiymətli metalların seçilməsi estetik, funksional və iqtisadi amillərin mürəkkəb qarşılıqlı təsiridir. Metalların xassələri və onların müxtəlif parametrlərlə qarşılıqlı əlaqəsini elmi şəkildə başa düşmək davamlı, təhlükəsiz və vizual olaraq cəlbedici zərgərlik yaratmaq üçün çox vacibdir. Dizaynerlər qiymətli metalların mexaniki və kimyəvi xüsusiyyətlərini xüsusi parametrlərin tələbləri ilə uyğunlaşdırdıqda, onların uzunömürlülüyü və performansı artmış olur.

ƏDƏBİYYAT

1.Романовский И. Р. Учебное пособие - «Драгоценные металлы и сплавы: свойства, стандарты, применение»; 2017; Россия
2. Смирнов А. В., Кузнецов С. А. "Контроль качества и стандартизация ювелирных изделий"; Научная статья, журнал Технологии и материалы; 2016; Россия
3. G.Hultgren, M.L.Cohen «Qiymətli metal ərintilərinin quruluşu və xassələri» elmi məqalə; ABŞ; "Science" jurnalı; 2020

PRECIOUS METALS USED IN JEWELRY AND EXAMINATION OF THEIR COMPATIBILITY WITH THEIR SETTINGS

Nazila Farman Alverdiyeva
Nail Mail Khudaverdiyev
Azerbaijan State Economic University

The use of precious metals in the design of jewelry plays an important role not only in terms of aesthetic appeal, but also in terms of functional stability and compatibility with various parameters. The choice of precious metals in jewelry is a complex interaction of aesthetic, functional and economic factors. A scientific understanding of the properties of metals and their interactions with various parameters is critical to creating durable, safe, and visually appealing jewelry. When designers match the mechanical and chemical properties of precious metals to the requirements of specific parameters, their longevity and performance are enhanced.

Keywords: precious metals, parameters of precious metals, corrosion resistance, jewelry design

İNGILIS, AMERIKA VƏ AVROPA QAYDALARINA UYĞUN OLARAQ FLANŞ BIRLƏŞMƏLƏRININ LAYIHƏLƏNDIRMƏ METODUNUN TƏDQIQI

[1]Azər İsmayıl oğlu Məmmədov
mammadov_azer1974@mail.ru
[2]Gülçin Aqil Baxışova
baxisovagulcin@gmail.com
[3]Gültəkin Musa qızı İmanova
gultakin_imanova@unec.edu.az
[1,2,3]Azərbaycan Dövlət İqtisad Universiteti

Flanş birləşmələri sənaye sistemlərində (məsələn, boru kəmərləri, təzyiqli qablar və s.) mühüm rol oynayır. Bu birləşmələr yüksək təzyiq, temperatur və digər mexaniki təsirlərə məruz qalaraq etibarlı və davamlı əlaqə təmin etməlidir. Bu səbəbdən layihələndirmə zamanı ingilis, amerikan və avropa standartları nəzərə alınaraq hesablama metodlarının tətbiqi zəruridir. Məqsəd – hər bir metodologiyanın özünəməxsus üstünlüklərini, məhdudiyyətlərini və tətbiq sahələrini araşdırmaqdır.

Flanş birləşmələrinin layihələndirilməsində əsas diqqət aşağıdakılara yönəlir:

- **Yüklərin qiymətləndirilməsi:** Daxili təzyiq, xarici qüvvələr, temperatur dəyişiklikləri və dinamik təsirlərin analizi.
- **Material xüsusiyyətləri:** Flanşın, möhürün və birləşmənin qaldırdığı elementlərin material dayanıqlığı və plastiklik limitləri.
- **Qayda və standartlar:** Mövcud kodların, standartların və mühəndislik praktikalarının təhlili.
- **Çəkilmə və burulma hesablamaları:** Birləşmənin mexaniki davranışının təhlili, elastiklik, dayanıqlıq və yorulma hesablamaları.

Bu ümumi prinsiplər ingilis, amerika və avropa yanaşmalarında spesifik tələblər şəklində öz əksini tapır.

İngilis texniki standartları (məsələn, BS (British Standards) seriyası) flanş birləşmələrinin layihələndirilməsində aşağıdakı məqamlara üstünlük verir:

Layihələndirmə Metodologiyası

- **Hesablama prinsipləri:** Əsasən səliqəli mexanika qanunlarına söykənir, burada elastiklik nəzəriyyəsi və həddən artıq yükləmə vəziyyətləri nəzərə alınır.
- **Ətraflı hesablama modelləri:** Birləşmənin dəqiq analizini təmin etmək üçün sonlu elementlər metodundan (FEM) istifadə edilə bilər.
- **Əlavə təhlükəsizlik faktorları:** Flanş və möhür elementlərinə əlavə yük təhlükəsizlik əmsalları tətbiq edilir ki, bu da qeyri-müəyyənlikləri və potensial zəif nöqtələri aradan qaldırmağa kömək edir.

İngilis standartları, xüsusilə sənaye sektoru, neft-qaz sektoru və yüksək təzyiqli avadanlıqların layihələndirilməsində geniş istifadə olunur. Hesablama metodologiyaları daha çox praktiki tətbiq və sənədləşdirilmə tələblərinə cavab verir.

Amerika Birləşmiş Ştatlarında flanş birləşmələrinin layihələndirilməsi əsasən ASME (American Society of Mechanical Engineers) standartlarına və API (American Petroleum Institute) tələblərinə əsaslanır.

Layihələndirmə Metodologiyası

- **ASME Kodu:** Flanş dizaynında "ASME Boiler and Pressure Vessel Code" kimi sənədlər geniş istifadə olunur. Bu kod tam hesablama qaydalarını, cərəyanda baş verən hər hansı növ təzyiqin təsirini və materialın davranışını müəyyən edir.
- **Load və stress analizi:** Mexaniki yüklərin və təzyiqin dəqiq hesablanması, həmçinin flanş və vidaların dizaynında elastik analizlər aparılır.
- **Həssas dizayn yanaşması:** Amerika metodlarında dizayn prosesi təhlil və optimallaşdırma ilə müşayiət olunur; nəzəri modellər və təcrübi məlumatların birləşməsi ilə hesablama dəqiqliyi artırılır.

Amerika standartları yüksək təhlükəsizlik əmsalları və yenilikçi hesablama texnikaları ilə seçilir. Bu metodologiya daha çox enerji sektorunda və yüksək riskli sənaye obyektlərində üstünlük təşkil edir.

Avropa metodları əsasən EN standartları (European Standards) əsasında formalaşır. Avropa ölkələrinin harmonizə olunmuş layihələndirmə yanaşmaları multidisipliner təhlillərə əsaslanır.

Layihələndirmə Metodologiyası

- **Harmonizasiya və inteqrasiya:** Avropa standartlarında təhlükəsizlik, keyfiyyət və davamlılıq parametrləri arasında balans qurulur.
- **Kombinə edilmiş hesablama metodları:** Avropa yanaşması həm praktik hesablama, həm də nümunəvi təcrübəyə əsaslanır. Hesablama prosedurları, xüsusilə flanş birləşmələrinin material yorulması, vibrasiya və temperatur dəyişikliklərinə davamlılıq sahəsində geniş müzakirə olunur.
- **Regulyativ uyğunsuzluqların aradan qaldırılması:** Avropa metodları flanş dizaynında mövcud risk faktorlarını qiymətləndirərək riskin minimal səviyyəyə endirilməsini təmin edən tənzimləyici tədbirləri əhatə edir.

Avropa standartları əsasən maşınqayırma, avtomobil və energetika sənayesi kimi sahələrdə istifadə olunur. Layihələndirmə prosesində təcrübəyə əsaslanan hesablama metodları və tənzimləmə müddəaları flanşların təhlükəsiz və etibarlı işləməsini təmin edir.

Hər üç metodologiya özünün spesifik yanaşmalarına malik olsa da, onların əsas məqsədi flanş birləşmələrinin təhlükəsiz və etibarlı işləməsini təmin etməkdir. Aşağıdakı cədvəl əsas fərqlilikləri və oxşarlıqları ümumiləşdirir(cəd. 1.):

Cədvəl 1.

Üç yanaşmanın müqayisəsi və nəticələr

Aspekt	İngilis Standartları	Amerika Standartları	Avropa Standartları
Hesablama Prinsipləri	Elastiklik nəzəriyyəsi və FEM-in istifadəsi	ASME/API əsaslı, yüksək təhlükəsizlik və elastiklik analizi	Harmonizasiya olunmuş, multidisipliner yanaşma
Təhlükəsizlik	Əlavə təhlükəsizlik	Yüksək təhlükəsizlik	Risk qiymətləndirmə və

Əmsalları	faktorları və optimallaşdırma	əmsalları, risk minimallaşdırma	düzgün tənzimləmələr
Tətbiq Sahələri	Neft, qaz və yüksək təzyiqli sənaye	Energetika, təzyiqli sistemlər və yüksək riskli obyektlər	Maşınqayırma, avtomobil sənayesi və energetika

Ümumilikdə, flanş birləşmələrinin layihələndirilməsi metodları ingilis, amerika və avropa standartlarına əsaslanaraq müxtəlif yanaşmaları təklif edir. Hər bir metodun öz üstünlükləri və tətbiq sahələri nəzərə alınaraq, mühəndislər layihələrin konkret tələblərinə uyğun ən optimal yanaşmanı seçməlidirlər.

- **İngilis metodologiyası** daha çox ənənəvi mexanika və optimallaşdırma əsaslı yanaşmanı təklif edir.
- **Amerika metodologiyası** isə ASME/API kimi güclü regulyativ çərçivə və hesablama dəqiqliyi ilə seçilir.
- **Avropa yanaşması** isə harmonizasiya olunmuş standartlar və multidisipliner təhlil metodları ilə layihələrin təhlükəsizliyini və davamlılığını təmin edir.

Bu geniş tədqiqat metodologiyaları flanş birləşmələrinin etibarlı dizaynı üçün mühüm əhəmiyyət kəsb edir və hər biri özünəməxsus texniki xüsusiyyətləri ilə sənayedə uğurla tətbiq olunur.

Bu nəzəri və praktiki müqayisə vasitəsilə flanş birləşmələrinin layihələndirilməsində beynəlxalq standartlara uyğun yanaşmanın əhəmiyyəti, eləcə də fərqli metodologiyaların imkan və məhdudiyyətləri daha dərindən başa düşülə bilər.

ƏDƏBİYYAT

1. Shigley, J. E., & Mischke, C. R. (2021). Mechanical Engineering Design (9th ed.). New York: McGraw-Hill. (səh. 301-350)
2. Sokolov, V., & Skvortsov, V. (2017). Sealing Performance of Metal Flange Joints Under Extreme Conditions. Journal of Structural Engineering, 143(10), 04017096. (səh. 04017096)
3. Steel Construction Institute (SCI). (2017). Design of Structural Joints to Eurocode 3 (2nd ed.). Berkshire, UK: SCI. (səh. 98-132)
4. Timoshenko, S. P., & Gere, J. M. (2019). Theory of Elastic Stability (2nd ed.). New York: Dover Publications. (səh. 600-640)
5. Wong, J. Y., & Leung, P. Y. (2022). Design of Structural Steelwork (4th ed.). New York: Taylor & Francis. (səh. 345-390).

STUDY OF THE DESIGN METHOD OF FLANGE JOINTS IN ACCORDANCE WITH ENGLISH, AMERICAN AND EUROPEAN STANDARDS

Azer Ismail ogly Mammadov
Gulchin Aqil Bakhishova
Gultekin Musa Imanova
Azerbaijan State Economic University

Flange joints play an important role in industrial systems (for example, pipelines, pressure vessels, etc.). These joints must provide a reliable and durable connection, being exposed to high pressure, temperature and other mechanical influences. Therefore, it is necessary to apply calculation methods taking into account English, American and European standards during design. The goal is to investigate the specific advantages, limitations and areas of application of each methodology.

Keywords: rules, flange joints, design method.

POLAD VƏ PLASTİK BORULARIN İSTEHSALINDA TƏTBİQ OLUNAN XAMMALLARIN NÖVLƏRİ

Cavid Atakişiyev
cavidatakisiyev1006@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Dəmir filizi polad boruların istehsalında istifadə olunan əsas xammaldır. Daha sonra polad halına gətirilən çuqun istehsalında vacibdir. Dəmir filizi ilk növbədə dəmirlə zəngin olan və poladqayırmada dəmirin əsas mənbəyi kimi xidmət edən hematit (Fe_2O_3) və maqnetit (Fe_3O_4) kimi dəmir oksidlərindən ibarətdir. Proses mədənlərdən dəmir filizinin çıxarılması, daha sonra isə onun domna sobasına daşınması ilə başlayır. Burada dəmir filizi kimyəvi reduksiya prosesindən keçir, burada yüksək temperaturda koks və əhəngdaşı ilə birləşərək ərinmiş çuqun alınır. Tərkibində karbon, silisium və kükürd kimi çirkləri olan bu çuqun daha sonra artıq karbon və digər çirkləri çıxarmaq üçün əsas oksigen sobasında (BOF) və ya elektrik qövs sobasında (EAF) təmizlənir və onu polad halına gətirir [1].

Koks polad boruların istehsalında mühüm xammaldır, ilk növbədə poladqayırma prosesində yüksək sobada yanacaq və reduksiya agenti kimi istifadə olunur. O, kömürdən kokslaşma kimi tanınan bir proses vasitəsilə əldə edilir, burada kömür uçucu maddələri çıxarmaq üçün hava olmadıqda qızdırılır. Bu proses yüksək enerji tərkibinə malik və domna sobasının daxilində həddindən artıq temperaturlara tab gətirə bilən sərt, karbonla zəngin material olan koksun yaradılması ilə nəticələnir. Domna sobasında koks iki vacib funksiyanı yerinə yetirir. Birincisi, o, yanacaq rolunu oynayır, dəmir filizinin ərimiş dəmirə salınması üçün lazım olan yüksək temperatura çatmaq üçün lazımi istiliyi təmin edir. Koksun tərkibindəki karbon oksigenlə reaksiyaya girərək karbon qazı və istilik əmələ gətirir, lazımi temperaturları (təxminən 1700°C və ya 3092°F) asanlaşdırır. İkincisi, koks azaldıcı maddə kimi xidmət edir.

Əhəngdaşı, polad emalı zamanı ərimiş metaldan çirkləri çıxarmaq üçün bir axın agenti kimi çıxış edərək polad boruların istehsalında mühüm rol oynayır. Bu, əsasən kalsium karbonatdan ($CaCO_3$) ibarət olan təbii çöküntü süxurudur. Poladqayırma prosesində ərinmiş çuqun istehsalına kömək etmək üçün dəmir filizi və koks ilə birlikdə əhəngdaşı domna sobasına əlavə edilir [3]. Əhəngdaşı domna sobasının yüksək temperaturlu mühitinə daxil edildikdə, parçalanma kimi tanınan kimyəvi reaksiyaya məruz qalır. Əhəngdaşı tərkibindəki kalsium karbonat 800°C-dən yuxarı temperaturda kalsium oksidinə (CaO) və karbon qazına (CO_2) parçalanır. İstehsal olunan kalsium oksidi daha sonra ərimiş dəmirdə olan silisium oksidi (SiO_2), kükürd və fosfor kimi çirklərlə reaksiya verir. Bu reaksiyalar metal oksidləri və digər qeyri-metal çirkləri qarışığından ibarət əlavə məhsul olan şlak əmələ gətirir. Şlak ərimiş metalın üstündə üzür və asanlıqla çıxarıla bilər və daha təmizlənməyə hazır olan daha təmiz dəmiri geridə qoyur. Bu təmizləmə prosesi çox vacibdir, çünki o, istehsal olunan poladın keyfiyyətini və mexaniki xüsusiyyətlərini yaxşılaşdırmağa kömək edir. Zərərli çirklərin çıxarılması, müxtəlif tətbiqlərdə istifadə olunan yüksək keyfiyyətli polad boruların istehsalı üçün vacib olan daha az qüsurlu, daha çox möhkəmlik və təkmilləşdirilmiş davamlılıq ilə nəticələnir.

Ərinti elementlər polad boruların istehsalında xassələrini və performansını artırmaq üçün istifadə olunan kritik xammaldır. Xrom, nikel, molibden və vanadium daxil olan bu elementlər korroziyaya davamlılıq, möhkəmlik və istilik müqaviməti kimi xüsusiyyətləri yaxşılaşdırmaq üçün poladda xüsusi nisbətlərdə əlavə edilir. Bu elementlərin əlavə edilməsi poladı hər biri xüsusi tətbiqlər və şərtlər üçün hazırlanmış müxtəlif ərintilərə çevirir. Xrom korroziyaya davamlılığı yaxşılaşdırmaq qabiliyyəti ilə tanınan əsas ərinti elementidir. O, ilk növbədə paslanmayan polad istehsalında istifadə olunur, burada səthdə passiv oksid təbəqəsi əmələ gətirir, poladı pasdan və oksidləşmədən qoruyur. Bu, polad boruları korroziyalı mühitlərə, xüsusən neft və qaz və ya kimyəvi emal kimi sənayelərə davamlı edir [4]. Nikel poladın möhkəmliyini, çevikliyini və korroziyaya davamlılığını artırır. Tez-tez paslanmayan polad və digər yüksək performanslı ərintilərə əlavə olunur, poladı ekstremal temperaturlarda və sərt mühitlərdə daha davamlı edir.

Molibden poladın yüksək temperaturda gücünü artırır və korroziyaya, xüsusən də çuxur və yarıq korroziyasına qarşı müqavimətini artırır.

Oksigen müasir poladqayırma proseslərində, xüsusən də Əsas Oksigen Poladqayırma (BOS) metodunda mühüm rol oynayır. Bu prosesdə çirkləri azaltmaq və metalı yüksək keyfiyyətli polad halına gətirmək üçün ərimiş çuquna oksigen vurulur. Oksigen, dəmiri istənilən xüsusiyyətlərə malik polad halına gətirən səmərəli və idarə olunan kimyəvi reaksiyaların təmin edilməsində əsas elementdir. BOS prosesində ərinmiş çuqun əvvəlcə çevirici kimi tanınan bir qaba köçürülür. Daha sonra yüksək təmizlikli oksigen bir nizə vasitəsilə çeviriciyə üfürülür və burada çuqundakı karbon tərkibi ilə reaksiya verir. Ərinmiş metalın tərkibindəki karbon oksigenlə reaksiyaya girərək karbon monoksit (CO) və karbon dioksidi (CO_2) əmələ gətirir və qazlar şəklində xaric olur. Bu reaksiya çuqunun karbon tərkibini əhəmiyyətli dərəcədə azaldır, onu müvafiq karbon səviyyəsi ilə polad halına gətirir [2]. Oksigen həmçinin kükürd, silikon və fosfor kimi digər çirkləri yandırmaqda mühüm rol oynayır.

Karbon polad boruların istehsalında ən vacib xammallardan biridir, çünki poladın sərtliyinə, möhkəmliyinə və ümumi mexaniki xüsusiyyətlərinə birbaşa təsir göstərir. Polad istehsalında istifadə olunan karbonun böyük hissəsi kömürdən əldə edilən karbonla zəngin material olan koksdan əldə edilir. Poladqayırma prosesi zamanı karbon ilk növbədə yüksək sobada koksun istifadəsi və ya digər ərintilərin bir hissəsi kimi ərinmiş dəmirə daxil edilir. Karbon poladda sərtləşdirici maddədir. Kiçik miqdarda əlavə edildikdə, poladın sərtliyini və dartılma gücünü artırır, onu daha davamlı və mexaniki gərginliklərə tab gətirə bilir. Bu, karbonu polad boruların istehsalında vacib komponentə çevirir, çünki bu borular neft və qaz, tikinti və su nəqliyyatı kimi müxtəlif sənaye sahələrində istifadə edilmək üçün düzgün güc və elastiklik balansına malik olmalıdır. Poladda mövcud olan karbonun miqdarı onun təsnifatını və xassələrini müəyyən edir. 0,3%-dən az karbon olan aşağı karbonlu polad daha çevik və elastikdir, lakin yüksək möhkəmliyə malik deyil. Tərkibində 0,3% ilə 0,6% arasında karbon olan orta karbonlu polad güc və çeviklik arasında tarazlıq təmin edir. Karbon miqdarı 0,6%-dən çox olan yüksək karbonlu polad çox möhkəm və sərtdir, lakin daha az çevikdir, bu da onu möhkəmlik tələb edən tətbiqlər üçün, məsələn, ağır polad boruların istehsalı üçün uyğun edir [2]. Son polad məhsulun, o cümlədən boruların təyinatı üzrə istifadəsi üçün lazımi performans standartlarına cavab verməsini təmin etmək üçün poladqayırma prosesində karbon tərkibinə diqqətlə nəzarət edilir.

ƏDƏBİYYAT

1.Kellogg, M.W. Design of Piping Systems / M.W. Kellogg. New York: Wiley, 2020. 325 p.
2.McKetta, J.J. Pipeline Engineering Handbook /J.J. McKetta. New York:Marcel Dekker,2015. 520 p
3.Nayyar, M.L. Piping Systems Manual / M.L. Nayyar. New York: McGraw-Hill, 2015. 540 p.
4.Rhea, R., Perisher, P. Pipe Drafting and Design / R. Rhea, P. Perisher. Houston: Gulf Publishing, 2018. 420 p

TYPES OF RAW MATERIALS USED IN THE PRODUCTION OF STEEL AND PLASTIC PIPES

Javid Atakishiyev
cavidatakisiyev1006@gmail.com
Azerbaijan State University of Economics

This study examines the various raw materials used in the production of steel and plastic pipes, focusing on their properties, processing methods, and the impact of material selection on the quality and performance of the final product. The study covers two main categories: steel pipes, which primarily use carbon steel, alloy steel, and stainless steel, and plastic pipes made from materials such as PVC, polyethylene, and polypropylene. The work examines the advantages and limitations of each material, including considerations such as corrosion resistance, strength, ductility, and cost-effectiveness.

The scientific novelty is that the results of the study provide a valuable resource for manufacturers, allowing them to make informed decisions regarding raw material selection and processing methods to optimize the performance and durability of steel and plastic pipes.


SİNTETİK LİFLƏRİN İSTEKSAL TEXNOLOGİYASININ TƏDQİQİ

Ələmdar Əlbəndov
Aledar.albendov2020@mail.ru
İbrahim Hacızadə
Şənel Elşən oğlu Həsənzadə
Azərbaycan Texnologiya Universiteti

Sintetik liflər sintetik polimerlərdən alınan kimyəvi liflər olub yüksək möhkəmliyi, suya, aşınmaya, kimyəvi reagentlərə qarşı davamlılığ və, elastikliyi ilə xarakterizə olunurlar.

Toxuculuq sənayesində parça istehsalı üçün istifadə edilən sintetik liflərin ən mühüm qruplarına poliamidlər, poliesterlər, poliakrillər, polipropilenlər və xloridli liflər daxildirlər Sintetik liflər ya ərimiş halda olan polimerdən (poliamid, poliester, poliolefir) və ya polimer məhlulundan (poliakrilnitril, polivinilxlorid, polivinil spirti) quru və ya yaş üsulla hazırlanır. Sintetik liflər toxuculuq və kord sapları, monolif və həmçinin ştapel lifləri şəklində istehsal olunur. İlkin sintetik polimerlərin xassələrinin müxtəlifliyi müxtəlif xassələrə malik sintetik liflər almağa imkan verir, halbu ki, süni liflərin xassələrini dəyişmək imkanları çox məhduddur, çünki onlar praktiki olaraq bir polimerdən (selüloz və ya onun törəmələri) alınırlar.Sintetik liflərin istehsalı üç əsas istehsal mərhələsini əhatə edir:1.Polimerin kimyəvi sintezi, 2. Lifin formalaşdırılması və qurudulması, 3.Tekstil emalı


Poliamidlər əsas zəncirdə amid qrupları olan xətti sintetik yüksəkmolekullu birləşmələrə əsaslanan polimerlərdir. Poliamidlərə həm təbii (peptidlər), həm də kapron (kaproamid) və tərkiminə amid qrupu olan sintetik polimerlər, məsələn kapron (kaproamid), heylon daxildir. Makromolekullar çevik metilen zəncirlərindən və zəncir boyunca nizamlı şəkildə yerləşən amid qruplarından ibarətdir. Hidrogen rabitəsi əmələgətirmə qaqbiliyyətinə malik olan amid qruplarının olması bütün poliamidlər üçün ümumi olan fiziki-kimyəvi xassələri müəyyən edir.





Şək.1. Poliamidin quruluşu

Poliamidlərdən maşınqayırmada (konstruksiya materialları), toxuculuq sənayesində (parçalar və liflər), tibbdə (protezlər, cərrahi saplar), qida sənayesində və digər sahələrdə geniş istifadə olunur.


Alifatik poliamidlərin istehsalı üçün ümumi üsul amin turşularının və ya dikarbon turşuların və diaminlərin polikondensləşməsindən ibarətdir:








Sintetik kapron lifi almaq üçün ən vacib yarımfabrikat kaprolaktamdır. Kaprolaktam - aminokapron turşusun dan sintez olunur.Kaprolaktam həmçinin sikloheksanonun (1) hidroksilaminlə qarşılıqlı təsiri, ardınca sxemə uyğun olaraq qatı sulfat turşusunun təsirindən sikloheksanon oksimin (2) laktama (3) çevrilməsi yolu ilə əldə edilir:



Az miqdarda su, spirt, aminlər, üzvi turşular və bəzi digər birləşmələrin iştirakı ilə qızdırıldıqda, kaprolaktam polimerləşərək poliamid qatranı əmələ gətirir ki, ondan da neylon lifi alınır:



Polyester lifi polietilentereftalat və ya onun törəmələrindən alınan sintetik lifdir..Polyester lifin üstünlükləri az qırışma, əla işıq və havayadavamlılıq, yüksək möhkəmlik, aşınmaya və üzvi maddələrə yaxşı müqavimətli olmasıdır.

Polyesterlərin istehsalında ən çox istifadə olunanlara qlikollar (etilen qlikol, 1,2-propilenqlikol, dietilenqlikol, trietilenqlikol), qliserin, bisfenollar (difenilolpropan), pentaeritritol, həmçinin iki əsaslı turşular (fumar, teraftal, adipin turşuları) və onların anhidridləridir (ftal, malein).Sənayedə polietilentereftalat almaq üçün etilenqlikol və etandioltereftalat turşu istifadə olunur:Polyester liflər yüksək istilik müqavimətinə malikdir, bu göstəricisinə görə bütün təbii və ən çox kimyəvi lifləri üstələyir. Onlar yüksək temperaturda uzunmüddətli işləməyə tab gətirə bilirlər. Polyester liflər yüksək elastikliyə və aşağı higroskopikliyə malikdir. Nəmli mühitdə onların mexaniki xüsusiyyətləri demək olar ki, dəyişməz qalır. Belə liflərdən hazırlanan parçalar çətin qırışır, formasını yaxşı saxlayır, az büzülür, tez quruyur, işığın təsirinə, mikroorqanizmlərə,xalça böcəklərinə, kiflərə davamlıdır. Hazıda dünya toxuculuq sənayesində sintetik liflər arasında polyester liflər üstünlük təşkil edir.

Poliuretanlar tərkibində əvəz edilməmiş və ya əvəz edilmiş uretan qrupları (alkil, aril və ya atsil) olan heterozəncirli polimerlərdir.lkin komponentlərin xarakterindən asılı olaraq, poliuretan makromolekullarında digər funksional qruplar: bəsit efirlər və mürəkkəb efirlər (poliester uretanlar), amidlər (poliamidouretanlar), ikiqat rabitələr (polidienuretanlar) ola bilər.

Sənayedə poliuretanların sintezinin əsas ənənəvi üsulu tərkibində izosiyanat qrupları olan birləşmələrin hidroksil qrupları saxlıyan bi- və polifunksiyalı törəmələrlə (qlikollarla) qarşılıqlı təsirinə əsaslanır. Poliuretanlar əsasında yüksək elastikliyə malik liflər istehsal edilir ki, bunlardan da yüksək keyfiyyətli parçalar hairlanır.

ƏDƏBİYYAT

1.Горин А.А.Технологи синтетиеских волокон. Изд.Политхника, С.-Петервург, 2001
2.Гасымов М.С. Основы тхнологии синтетиеских волокон. Казанский Унивеситет, Казан,, 2011

RESEARCH IN THE PRODUCTION TECHNOLOGY OF SYNTHETIC FIBERS

Alemdar Albendov
Alemdar.albendov2020@mail.ru
Ibrahim Hajizade
Shenel Hasanzade
Azerbaijan Technological University

The thesis examines the production technology and important properties of polyamides, polyesters, polyacrylics, polypropylenes and chloride fibers, which are among the most important groups of synthetic fibers used for fabric production in the textile industry.

"EUROHOME" TICARƏT ŞƏBƏKƏSINƏ DAXIL OLAN INŞAAT KERAMIKA MATERIALLARININ TƏSNIFATI VƏ ÇEŞIDI

Azər İsmayıl oğlu Məmmədov
[1]*mammadov_azer1974@mail.ru*
Əli Habil oğlu Qədiməliyev
[2]*qadimaliyevali7@gmail.com*
[1,2]***Azərbaycan Dövlət İqtisad Universiteti***

Müasir dövrdə inşaatda da yeni texnaloji rejimlərlə istehsal edilmiş inşaat malları cəlb olunur.Əhalinin artan tələbatını ödəmək üçün ticarət sferasında yeni-yeni növlərdə slikat inşaat mallarına rast gəlinir. Bu baxımdan "EUROHOME" ticarət şəbəkəsinə daxil olan inşaat keramika materiallarının təsnifatı və çeşidinin araşdırılması prioritet istiqamət təşkil edir.

"EUROHOME" ticarət şəbəkəsinə daxil olan keramika inşaat materialları tərkibinə, təyinatına, forma və quruluşuna görə təsnifləşdirilir. Keramika inşaat materialları xammalına və tərkibinə görə özündə incə və qaba keramika inşaat mallarını birləşdirir.

Keramika inşaat materiallarınn çeşidinə divar üçün keramika materialları, dam örtüyü üçün olan keramika materialları, üzlük keramika materialları, sanitar-texnika məmulatları addir. Hər bir qrupda öz daxilində müxtəlif yarım qruplara bölünərək, geniş bir çeşidi özündə birləşdirir.

Divar üçün olan keramika materialları.

Divar üçün tətbiq olunan əsas keramika materialı kərpic və daşdır. Bunların hər ikisi adi,bütöv,boşluqlu,deşikli,məsaməli-deşikli və s. kimi olur. Divar materialları çox möhkəm,şaxtaya davamlı,kiçik həcm çəkili və istiliyi yaxşı qoruyan olmalıdır.Divar üçün keramika materialları geniş çeşidlidir.Onların bəzilərini xarakterizə edək.

Adi gil kərpic. Adi gil kərpic səthi hamar olan düzbucaqlı paralelepiped şəklində olur.Bu kərpicin ölçüsü 250x120x65mm-dir. Normal bişmiş kərpic qırmızı rəngdə olur.Çəkiclə vuranda aydın cingiltili səs verir. Kərpicin rənginin açıq və yaxud al-qırmızı rəngdə olması onun yaxşı bişdiyini,tünd qırmızı olması və tillərinin ərimiş kimi olması onun yandığını göstərir.

Kərpicin mühüm keyfiyyət göstəricisi onun şaxtaya davamlı olmasıdır.Adi kərpic plastik qəlibləmə, yarımquru halda presləmə üsulları ilə hazırlanır. Plastik qəlibləmə üsulu ilə hazırlanan kərpicin səthi kələ-kötür, tilləri və küncləri bir qədər küt olur, yarımquru presləmə üsulunda kərpicin səthi hamar, forması düz, tilləri və küncləri iti olur.

Boşluqlu və deşikli kərpiclər. Bu kərpic öz yastı səthinə perpendikulyar yerləşən ikitərəfli açıq və ya birtərəfli açıq deşiklərin olması ilə adi kərpicdən fərqlənir. Tərkibində yanan əlavələr olmayan asan əriyən gilərdən plastik və yaxud yarımquru qəlibləmə üsulu ilə alınır.Bu zaman keramik kütlə səylə qarışdırılmalı və qəlibləmə üçün vakumpresddən istifadə olunmalıdır. Plastik qəlibləmə üsulu ilə hazırlanan deşikli kərpicin qalınlığından başqa,bütün ölçüləri adi kərpicdə olduğu kimidir.Deşikli kərpic birqat qalınlıqlı – 65mm, bir yarımqat – 103mm, bəzi hallarda ikiqat – 140mm qalınlıqda buraxılır.Bu kərpicin boşluğu 30%, deşiklərinin sayı 13-dən 78-ə qədər olur.

Həmçinin, divar üçün tətbiq olunan əsas keramika malları kimi məsaməli-deşikli kərpic, çoxməsaməli kərpic, boşluqlu daşlar və kərpic bloklar da satışa çıxarılır.

Üzlük keramika materialları.

İnşaatda istifadə olunan materialardan bir qrupunu da üzlük keramika inşaat malları təşkil edir.Müasir tikntidə üzlük keramika materialların geniş tətbiq olunması onların yüksək keyfiyyətli olması ilə əlaqədardır. Bu qrupa aid olan mallarda binaları atmosfer şəraitin dəyişkənliklərindən mühafizə etməklə yanaşı, binaların həm xarici, həm də daxili səthlərinə estetik görünüş verir. Üzlük materialları son zamanlar köhnə bnaların bərpasında geniş

tətbiq edilir. Onların fiziki-mexaniki xassələri bir-birindən fərqlənir. Belə ki, xarici üzlük keramika materiallarından yüksək sukeçirməməzlilik və şaxtaya davamlılıq tələb olunduğu halda, daxili üzlük materialların bu tələblərə cavab verməsi heç də vacib deyil.

Xarici üzlük materilları. Bu yarım qrupa daxil olan materiallar gözəl estetik xassələrə malik olmaqa yanaşı, möhkəm və şaxtaya qarşı davamlı olmalıdırlar.Suvaq əvəzi tətbiq olunan üzlük

materiallarıa atmosfer təsirlərinə qarşı davamlı olmaıdır. Üzlük materialı kimi əsasən üzlük kərpiclərdən, fasad daşlarından, iriqabaritli bə kiçikqabaritli tavacıqlardan istifadə olunur.

Üzlük kərpic. Bu materiallar dekorativ məmulat olmaqla yanaşı, həm də konstruktiv yükdaşıyıcı elementdir. Onlar divar högüsü ilə bir zamanda hörülür və adi kərpic kimi yük daşıyır.Tərkibinə bir sıra əlavələr qatılaraq gildən bişirilib hazırlanır. Üzlük kərpic adi kərpicdən formasının düz olması, ölçülərinini dəqiq olması, ən əsası şaxtaya davamlı olması ilə fərqlənir. Bu kərpiclərin üz səthi hamar, naxışlı, şirə çəkimiş və şirəsiz ola bilər.Adətən üzlük kərpicin rəngi tünd qırmızıdan açıq qırmızıya qədər olur.Xarici üzlük materialları eyni zamanda divar materialı kimi də işlənə bilər.

Üzlük kərpic 250x120x65mm və 90mm ölçüdə olaraq buraxılır. Üzlük kərpicin su hopma qabiliyyəti ən azı 6%, ən çoxu 145, şaxtaya qarşı davamlılığı isə ən azı 25 tsikl təşkil etməlidir.

Həmçinin, ticarətdə kiçikqabaritli fasad tavacıqları, daxili üzlük materialları, peç kaşısı və ya kafel, döşəmə tavacıqları və mozaika tavacıqları da satılmaqdadır.

Döşəmə tavacıqları. Döşəmə tavacıqları gövdəsi əyri bərkidimiş məmulatlardır.Onlar yüksək dərəcədə sıx, sürtünməyə və zərbəyə qarşı müqavimətli, kimyəvi cəhətdən dayanıqlı və suyu az hopduran olmalıdır.Döşəmə tavacıqları birrəngli, naxışlı, üz səthi hamar, basma naxışlı və yaxud kəlkötür olur. Yaxşı yapışmanı təmin etmək üçün bu məmulatların arxa tərəfi çıxıntılı olur.Forma etibarı ilə döşəmə materiaları – kvadrat, düzbucaqlı, üçbucaqlı, dörd, beş, altı, səkkiz tinli istehsal olunur. Döşəmə tavacıqarının tərfləri 170mm-dən az, qalınlığı 10-13mm olur.

Mozaika tavacıqları. Mozaika tavacıqları müxtəlif rəngli, maksimal ölçüsü 50mm olan şirəsiz məmulatdır. Bunlar forma etibarı ilə kvadrat və düzbucaqlı olur. Mozaika tavacıqları müəyyən qaydada qalın xalçavari kağız üzərinə yapışdırılmış halda buraxılır. Bunlar yapışdırılan zaman bir-birindən 1mm aralı qoyuur ki, döşəməyə düzülən zaman bura yapışdırıcı material tökülsün.

Mozaika tavacıqlarının istehsal texnalogiyaslı döşəmə tavacıqlarının istehsal rejminə uyğun gəlir.Suhopma qabiliyyətinə və kimyəvi davamlılığına görə mozaika tavacıqları iki sinfə bölünür. Suyu az hopduran – 2%, belə material sürtünməyə və kimyəvi maddələrin təsirinə qarşı davamlı olur.Bunlar əsasən çox rütubətli olan yerlərdə tətbiq olunur. İkinci qrupa daxil olan materiallar, aşağı xassəli olduğu üçün az tətbiq olunur.

ƏDƏBIYYAT

1. https://kafeller.az/blog/eurohome-kafel-metlax/
2. https://www.facebook.com/eurohome.az/posts/1630583800411023/
3. https://2gis.az/baku/firm/70000001039637176
4. Ə.P.Həsənov və başqaları "Qeyri-ərzaq mallarının ekspertizası" 2006

CLASSIFICATION AND RANGE OF BUILDING CERAMIC MATERIALS INCLUDED IN THE EUROHOME RETAIL CHAIN

Azer Ismail oglu Mamedov
Ali Habil oglu Gadimaliyev
Azerbaijan State Economic University

Recently, as in all areas of the country, there are great innovations in construction. Landscaping works are being carried out in every part of our developed republic. Construction materials are used in the construction of high-rise buildings, in the restoration of old buildings, as well as in the construction of new bridges. In this regard, the demand for construction materials is growing in our country.

Keywords: construction, ceramics, material, cladding, raw materials, bricks.

POLAD İSTEHSALININ KARBON EMİSSİYASINA TƏSİRİ

Əli Əhməd
aliahmadforwork@gmail.com
Nicat Kərimov
Bakı Mühəndislik Universiteti

Dövrü iqtisadiyyatda metalik xammədələr

Elektrikli avtomobillərdə akkumulyatorların istehsalında yenidən bərpa olunmuş alüminyumunun istifadəsi, aşağı alaşımlı CO_2 tərkibli polad məhsullarından istehsal olunan gövdənin təmin olunması metalik xammaddələrin dövrü iqtisadiyyatın avtomobil sənayesində CO_2 emissiyasının azaldılması istiqamətində təsir edici faktor kimi iştirak etdiyini göstərir. Kritik xammədələrlə əlaqəli yeni bir qanun ilə Avropa Birliyi, tədarük zəncirlərinin gücləndirəcəyi stratejik layihələri təşviq etmək istəyir. Karbon emissiyasının azaldılması istiqamətində hansı metallik xammaddələr nə üçün istifadə olunur istehsal olunan məhsullar üzrə tədarük zəncirinin qurulması həm istehsal prosesinin bu qanun əsasında tənzimlənməsini həm də istehsaldan çıxan hazır məhsullardan digər sektorların karbon emissiyasının azaldılaması istiqamətində istifadə etməsinə gətirib çıxaracaq.

Volkwagen 60 ildir ki, bugünkü **Salzgitter AG**- dən polad alır və 2025-ci ilin sonundan etibarən aşağı CO_2 polad Salzgitter AG-yə məxsus Aşağı Saksoniyadakı qərargahdan almağı planlaşdıran ilk müştərilərdən biridir.[1]

Qapalı dövriyyəli tədarük zənciri

Şirkətlər həmçinin Volfsbuqrdakı fabrikləri arasında qapalı material yığma haqlası qurublar. Qayıdış yolunda qatar, istehsal zamanı yığılan qırıntıları yenidən **Salzgitterə** nəql edir, burada istifadə olunmayan polad materiallarının yenidən emal üçün istehsalçıya qaytarılması və yenidən istifadə olaraq yeni məhsul hazırlanması sistemidir.

Dəmir yolu ilə daşınma həm sürətli, həm də karbon baxımından qənaətcildir çünki CO_2 izini azaldır. Salzgitter öz satdığı məhsulun istifadə olunmayan tərəflərini yığmaq üçün tullanılan məntəqələrə özü nəzarət edir. Salzgitter məhsul təqdim etdiyi Volkswagen şirkətin poladdan nə üçün istifadə etdiyi ilə bağlı məlumatlı olması onun getdiyi istiqamətlərdə tullanılan yerləri bilməsi yenidən bərpa üçün önəmlidir. Salzgitter yığdığı qırıntılardan yenidən emal edilmiş bu poladı yeni istehsal üçün Volkswagen-ə göndərir dövr tamamlanır və yenindən eyni sistemə qayıdır. Hər iki şirkətin məqsədlərinin bir olması və bir-birinə qarşı şəffaflığı cəmiyyətin məmnunluğuna səbəb olur.

Nəqliyyat planlanması çevik və təkrarlanan olur. Bu kimi yığımlar növbəti dövr istehsala hazırlıqdır. Tullantılarda radiasiya olunma mümkünlüyü istehsal edilməmişdən əvvəl radiasiya yoxlanma avadanlıqlarından istifadə etməyə məcbur edir. Əgər Volkswagenin cəmiyyətə təqdim etdiyi avtomobillər radiasiya olunan ərazilərdə fəaliyyət

göstərir və ya polad radiasiya ilə asanlıqla reaksiyaya girə bilirsə bu Salzgitterin tullantılar üzərindən yoxlama etməyinə səbəb olacaq.

Lakin hər iki şirkət nəyi hara nə üçün təqdim etdiklərini bilkdiklərindən istifadə olunmayan hissələridə özləri topluyub üzərində işləyib yenidən təqdim edirlər. Həmçinin məhsul istehsal edən şirkət öz məhsulunun tullantı halına gəlib nə zaman qayıdacağı vaxtını bilməlidir. Bu məhsul və sektorlar arası axınlarının rəqəmsallaşdırılılması xammaddə dövriyyəsi üçün yeni standartların tanımlanmasına gətirib çıxarır.

Metallurgiya sənayelərinin bu tip enerji qazandıran tətbiqlərə yön verməsi iqtisadiyyatın digər sektorlarları ilə qarşılıqlı əlaqəyə girməsinə, yeni instutların açılıb dövrü iqtisadiyyatın hər kəs tərəfindən faydalı olması üçün təkmilləşdirmək istiqamətində laboratoriya işlərini və ekonometrik hesablamaları tətbiq edən kadrların yetişməsinə səbəb olacaq. Əhalinin bu kimi layihələrə investisiya etməsi dövlət tərəfindən cəlb olunub ölkələr arası siyasi qərarların dəyişməsinə səbəb ola bilər.

Polad istehsal sahəsində karbon emissiyasının azaldılaması istiqamətində təkliflər

- Şirkətlər arasında qabalı dövriyyəli tədarük zəncirinin qurulması istiqamətində sənayelərin fəaliyyətlərini araşdırmaq
- Elektriklə işləyən fəaliyyətlərdən geri qazanılan istilik. Suyun elektriklikə parçalanmasından da H_2 almaq. NH_3 və H_2 ilə kimyəvi reduksiya.
- Effektiv karbon qiymətinin hesablanma düsturları
- Karbon emissiyasının azaldıması istiqamətində konsulting və beynəlxalq standartlar.[2]

ƏDƏBİYYAT

1. https://metaldunyasi.com.tr/tr/sektorel-haberler/79/maden-ve-metaller/1723/metalik-hammaddeler-dongusel-ekonominin-yapi-taslari.html
2. http://esri.gov.az/uploads/files/1.Conference%20Next%20Generation%20Economics%20Challenges%20and%20Perspectives.pdf
3. https://www.energyefficiencymovement.com/wp-content/uploads/2023/01/ABB_EE_2022-05-WhitePaper_Metals.pdf

IMPACT OF STEEL PRODUCTION ON CARBON EMISSIONS

Ali Ahmad
aliahmadforwork@gmail.com
Nijat Karimov
Baku University of Engineering

On atmospher CO2 moving avarage balance effecting our future decisions, current mental thinking and global economical balance but in this case we found carbon emission topic. I think we can learn economic situations clearly from logistics' angle views. Nowadays companies want to benefit without dealing with losses from investing cycle of raw metals and using renewable energies strategies on manufacturing machines. This article has covered direction of metallurgy industries down effection on CO2 emissions with international current informations.

Keywords: suply chain, carbon emission, metalic materials

YÜKSƏK SIXLIĞA MALİK VƏ YAXUD AŞAĞI TƏZYİQDƏ METAL ÜZVİ KATALİZATORLARIN İŞTİRAKI İLƏ POLİETİLEN POLİMERİNİN İSTEHSALININ TƏDQİQİ

Əli Nəsrulla oğlu Muradov
e.muradov@atu.edu.az
Ələmdar Aslan oğlu Əlbəndov
e.elbendov@atu.edu.az
İsgəndər Anar oğlu Baytalov
a.baytalov@atu.edu.az
İbrahim Həbib oğlu Hacızadə
i.hacizade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Yüksək sıxlığa malik və yaxud aşağı tızyiqdə metal üzvi katalizatoraın iştirakı ilə polietilenin istehsalının tədqiqi. Politielen $[-CH_2-CH_2-]_n$ 1933-cü ildə İngilis tədqiqatçıları Foseti və Çibson tərəfindən yüksək təzyiqdə alınmışdır.Əvvəllər onu yüksək təzyiqdə [150-300MPa] və 1955-ci ildə alman alimi K.Siqler və onun əməkdaşları tərəfindən üçlü etil alüminium və dəyişən valentli metal xloridləri [məsələn titanın] qarışıqlarını katalizator kimi tətbiq etməklə polietilenin alınmaüsulu işlənib hazırlanmışdır.

Etilenin polimerləşməsində istifadə edilən katalizator monomerin tərkibindəki pi(π) rabitəsini qırır, hər iki karbon atomunda sərbəst elektronlar hesabın aktiv monomer əmələ gəlir:

$$nH_2C \underset{\sigma}{=\!=} CH_2 \xrightarrow{t^0 S} n---CH_2---\xrightarrow{katalizator}$$

$$CH_2-CH_2-..\left[-CH_2-CH_2-\right]_n-CH_2-CH_2--$$

Aktiv monomerlərin birləşməsi hesabına yüksək molekula çəkisinə malik makro molekula əmələ gətirir. Zəncir böyüyür. Üçüncü mərhələdə zəncirin böyüməsi dayanır.

Tərkibində qarışığı olmayan etilen monomerinin polimerləşməsi aşağı təzyiqdə və aşağı temperaturda katalizator iştirakı ilə aparılır. Katalizator olaraq metal üzvi birləşmələrdən: trietil alüminium və titan -4 xloriddən $[C_2H_5]_3Al{\bullet}Tcl_4]$ istifadə olunur.

Polimerləşmədə istifadə olunan katalizator kimyəvi prosesdə yüksək təzyiq və yüksək temperaturun qarşısını alır:

Polimerləşmə üç mərhələdə gedir:

Reaksiyanın təxərrüsü yəni en[n] sayda monomerin aktivləşməsi.

En(n) sayda aktiv monomerin birləşərək makromolekulun yaranması [zəncirin böyüməsi] səbəb olur.

NƏTİCƏ

1. Etilenin polimerləşməsinin aşağı təzyiqdə və aşağı temperaturda aparılmasında tətbiq olunan insiatorların, metal üzvi birləşmələrin təsir edici mexanizmi verilmişdir.
2. Etilen molekulunda pi(π) rabitəsinin qırılması hesabına aktiv monomerin əmələ gəlməsi və radikal mexanizimlə poli etilendən ibarət makromolekulun əmələ gəlməsi reaksiyaları məqalədə göstərilmişdir.
3. Polietilen polimerinin (plastik kütlənin) istehsalı üçün xammal sayılan etilenin neftin katalik krekinqindən alınan qazlardan və etil spirtindən alındığı qeyd edilmişdir.

ƏDƏBİYYAT

1. F.V.Məmmədov, M.A.Zeynalova və başqaları . Bakı. Maarif nəşriyyatı 1981 280 səh
2. A.S.İbrahimov., L.M.Abbasova "Elastomerlərin kimyəvi texnologiyası." Bakı 2004. 434 səh
3. A.S.İbrahimov., L.M.Abbasova "Plastik kütllərin kimyəvi texnologiyası" Bakı, 2008. 436 səh
4. Ə.İsmayılov "Üzvi kimya" II-hissə. Dərslik Bakı 2008. 300 səh

PRODUCTION OF POLYETHYLENE POLYMER WITH THE PARTICIPATION OF ORGANOMETALLIC CATALYSTS AT HIGH DENSITY OR LOW PRESSURE

Ali Nasrulla oglu Muradov
e.muradov@atu.edu.az
Alamdar Aslan oglu Albandov
e.elbendov@atu.edu.az
Iskander Anar oglu Baytalov
a.baytalov@atu.edu.az
İbrahim Hebib oglu Hacızade
i.hacizade@atu.edu.az
Azerbaijan Technologycal University

The research aims to explain the mechanism of ethylene polymerization. In the production process, ethylene (C_2H_4), an unsaturated olefin hydrocarbon, is fed into a tubular reactor under pressure. Under the influence of the triethylaluminum $[(C_2H_5)_3Al]$ + titanium tetrachloride catalyst, the pi(π) bond in ethylene breaks, converting it into an active monomer:

$nCH_2=CH_2$ -> ...-CH_2-CH_2-...

'n' number of active monomers polymerize at low pressure and low temperature to form a polyethylene molecule:

n $CH_2=CH_2$ $(C_2H_5)_3Al_2Cl_4$ -> [-CH_2-CH_2-]n

This study investigates the mechanism of action of catalysts used in polyethylene production.

Keywords: Ethylene, Polyethylene, Catalyst, Reactor, Aluminosilicate.

METAL QABLARIN ISTEHLAK XASSƏLƏRINI FORMALAŞDIRAN AMILLƏR

Azər İsmayıl oğlu Məmmədov
mammadov_azer1974@mail.ru
Nicat Seymur oğlu Kərimli
mammadov_azer1974@mail.ru
Gültəkin Musa qızı İmanova
gultakin_imanova@unec.edu.az
Azərbaycan Dövlət İqtisad Universiteti

Metal qabların istehlak xüsusiyyətləri əsasən onların istehsalı, istehsal üsulları və dekorasiyası üçün istifadə olunan metalların və ərintilərin xüsusiyyətləri ilə müəyyən edilir.

Metallar yüksək elektrik və istilik keçiriciliyi, elektromaqnit dalğalarını əks etdirmək və deformasiyaya uğrama qabiliyyəti ilə xarakterizə olunan materiallardir. Onlar xüsusi bir "metallik" parıltıya malikdirlər, qeyri-şəffafdırlar. Bu xüsusiyyətlərə bir neçə metaldan və ya metal və qeyri-metallardan ibarət metal ərintiləri də malikdir.

Qidaların hazırlandığı materiallar çox fərqli ola bilər. Müxtəlif qidalar üçün geniş çeşidli materiallar istifadə olunur, hər birinin öz üstünlükləri və mənfi cəhətləri var.

Bütün metallar və ərintilər adətən qara və əlvana bölünür. Dəmir və onun əsasında hazırlanmış ərintilər (polad, çuğun) qara metallar, digər metallar və ərintilər isə əlvan adlanır.

Dəmir (kommersiya baxımından təmiz) gümüşü-ağ metaldır, tərkibində 99,8 - 99,9% saf dəmir və 0,1 - 0,2% qarışıqlar vardır. Bir çox elementlə dəmir bərk məhlullar meydana gətirə bilirlər: metallarla - bərk əvəzedici məhlullar, karbon, azot və hidrogen ilə - interstisialın bərk məhlulları.

Çuğun, 2,14% -dən 6% -ə qədər karbon tərkibli dəmir-karbon ərintisidir. Dəmir və karbondan başqa, çuğunda başqa elementlər (və ya qarışıqlar) da vardır. Əsasən fosfor, kükürd, manqan və silisium. Qarışıqlar həm faydalı ola bilər (yəni, istehlakçı və texnoloji xüsusiyyətləri yaxşılaşdırır), həm də zərərli ola bilərlər.Çuğunlarda olan *fosfor* faydalı bir qarışıqdır. Tərkibi 0,3 ilə 0,8% arasında dəyişir. Boz çuğunun axıcılığını artırır, sərtliyi və aşınma müqavimətini artırır.

Kükürd. Çuğunlarda kükürdün 0,1%-dən çox olmasına icazə verilmir. Kükürd çox zərərli qarışıqdır, çünki materialın axıcılığını pisləşdirir, kövrəkliyini artırır və çuğunları ağardır.

Manqan. Çuğunlarda manqanın miqdarı adətən 0,4 - 1,3% təşkil edir. Materialın sərtliyini artırır, lakin böyük miqdarda çuğunları da ağardır.

Silisium. Çuğunlarda silisiumun miqdarı 0,5 - 4,5% arasında dəyişir. Bu, çuğunun qrafitləşməsinə kömək edir, müvafiq olaraq ağ çuğun əldə edildikdə, silisium 0,5% -dən çox olmamalıdır.

Tökmə çuğunlar ağ və boz rənglərə bölünür. Boz çuğunda demək olar ki, bütün karbon qrafit daxilolmaları şəklindədir. Tərkibində 3,8%-ə qədər karbon olan boz rəngli çuğunlar kəsici alətlərlə işlənə bilər.

Boz çuğun yaxşı axıcılığa malikdir (soyutmadan kiçik boşluqlara nüfuz etmək qabiliyyəti). Sərtləşmə zamanı aşağı büzülməyə malikdir, nisbətən ucuzdur.

Kövrəkliyi azaltmaq və müvafiq olaraq gücü və çevikliyi artırmaq üçün çuğunlar dəyişdirilir, yəni ərimə zamanı əriməyə xüsusi əlavələr (maqnezium, alüminium) daxil edilir. Belə çuğunlara yüksək möhkəmlikli və ya dəyişdirilmiş çuğunlar deyilir.

Hal-hazırda, çuğun getdikcə daha çox digər materiallarla əvəz olunur, lakin bəzi növ qablara (ördək balası, qazan, güvəç qabları) hələ də tələbat vardır. Çuğun qablar qalın divarlıdır (tökmə), bərabər qızdırılır və qidanı yandırmır.

Polad tərkibində karbonun miqdarı 2,14% -dən az olan dəmir-karbon ərintisidir. Karbonun tərkibinə görə, poladlar aşağı karbonlu (0,25% -dən az), orta karbonlu (0,25-0,6%) və yüksək karbonlu (0,6 - 2,14%) olmaqla üç qrupa bölünür. Çuğunla

müqayisədə polad daha yüksək fiziki və mexaniki xassələrə malikdir, daha çox möhkəmlik və çeviklik ilə xarakterizə olunur, döyülə, yuvarlana, kəsilə bilir, tökmə yolu ilə məhsul və hissələri istehsal etmək üçün kifayət qədər axıcılığa malikdir. Poladlar kifayət qədər elastikliyə, elastikliyə, sərtliyə, yüngülliyə, yaxşı maqnit xüsusiyyətlərinə və nisbətən yüksək korroziyaya davamlılığa malikdir. Çuğunda olduğu kimi, poladda da dəmir və karbondan başqa qarışıqlar da vardır. Əsasən: fosfor, kükürd, manqan, silikat, oksigen. Qarışıqlar həm faydalı, həm də zərərli ola bilər.

Poladlardakı fosfor (çuğunlardan fərqli olaraq) zərərli qarışıqdır. Fosfor poladın elastikliyini kəskin şəkildə azaldır. Fosforun miqdarı 0,05%-dən çox olmamalıdır.

Kükürd çox zərərli qarışıq kimi tanınır, poladlarda onun miqdarı 0,05%-dən çox olmamalıdır. Yüksək kükürd tərkibinə görə, poladlar "qırmızı kövrəklik" əldə edir, yəni metal kəsici alətlə emal olunma qabiliyyəti azalır.

Poladlardakı manqan faydalı bir qarışıqdır. Manqanın tərkibi adətən 0,4 - 0,8% təşkil edir. Manqan poladın sərtliyini və möhkəmliyini artırır, kükürdün zərərli təsirlərini aradan qaldırır, yəni kövrəkliyi və "qırmızı kövrəkliyi" azaldır. "Manqan polad" (yəni yüksək manqan tərkibli polad) hətta yüksək temperaturda istifadə edildikdə də öz xüsusiyyətlərini itirmir.

Silikat. Poladlardakı silisiumun miqdarı 0,1 ilə 0,5% arasında dəyişir. Silikat poladın mexaniki xüsusiyyətlərini yaxşılaşdırır, ona möhkəmlik və sərtlik verir.

Oksigen. Poladda oksigenin miqdarı 0,05%-dən çox olmamalıdır. Bu, zərərli bir qarışıqdır - poladda nə qədər az oksigen olarsa, o, bir o qədər güclüdür. Bununla belə, oksigeni çıxarmaq çox çətindir.

Paslanmayan poladlar ilk növbədə xüsusi xassələrə malik poladlara aiddir. Xrom paslanmayan poladlarda əsas qarışıq elementidir. Poladın tərkibinə 13% -dən çox xrom daxil edildikdə, polad korroziyaya məruz qalmır, lakin 20% -dən çox xromun daxil olması ilə onun kövrəkliyi kəskin şəkildə artır. Xrom poladlarında karbon konsentrasiyasının azaldılması da korroziyaya davamlılığın artmasına kömək edir. Əsas markalar 12X18H9T, 04X18H10, 17X18H9-dur. Bu ərintilər mətbəx qablarının istehsalı üçün istifadə olunur (məsələn, məşhur Zepter şirkəti öz qabları üçün xrom-nikel ərintilərindən istifadə edir).

Buraya həm də ətraf mühitin ümumi çirklənməsinin insan sağlamlığına təsirindən az əhəmiyyət kəsb etməyən paltarlardan istifadə zamanı insan üçün təhlükəsizlik və zərərsizlik dərəcəsini müəyyən edən təhlükəsizlik tələblərini də daxil edirəm.6-cı yerdə geyimin yüksək keyfiyyəti ilə əhalinin geniş kütlələri üçün əlçatanlığını müəyyən edən iqtisadi tələblər dayanır. İqtisadi tələblər kostyumların satın alınması xərcləri, ona qulluq xərcləri və istifadə (istehlak, istismar) müddəti ilə bağlıdır.

ƏDƏBİYYAT

1. GOST 24788-2001 "Polad emallı məişət əşyaları.Ümumi texniki şərtlər"
2. GOST 27002-86 "Korroziyaya qarşı polad qablar. Ümumi texniki şərtlər"
3. Neverov A.N. Əmtəə tədqiqatı və sənaye mallarının ekspertizası.- M.: MTsFER, 2006.

FACTORS THAT SHAPE THE CONSUMER PROPERTIES OF METAL PRODUCTS

Azer Ismail oglu Mammadov
Nijat Seymur oglu Kerimli
Gultakin Musa Imanova
Azerbaijan State University of Economics

The consumer properties of metal utensils are largely determined by the properties of metals and alloys used for their manufacture, production methods and decoration.

Metals are materials characterized by high electrical and thermal conductivity, the ability to reflect electromagnetic waves and the ability to deform. They have a special "metallic" shine, they are opaque. Metal alloys consisting of several metals or metals and non-metals also have such properties.

Keywords: metal, steel, cast iron, stainless steel, iron, properties.

DƏMIRBETON ÜÇÜN POLAD ARMATURLAR

Məhəbbət Zülfiqar qızı Əzimi
az.miu1959@gmail.com
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Dəmirbetonda armatur, polad elementiər və ya bütöv karkas şəkilində yerləşdirilir. Armatur, əsasən, dəmirbeton konstruksiyaların dartılmağa məruz qalan işçi sahəsində yerləşdirilir. Armatur dəmirbetonun əsas tərkib hissəsidir, məmulatın bütün qulluq etdiyi müddətdə o betonla birlikdə etibarlı işləməlidir.

Dəmirbetonda armaturun daha rasional istifadə olunması üçün, alcaqlegirlənmiş yüksək möhkəmlikli, mexaniki möhkəmləndirilmiş və ya termik emal olunmuş armaturlardan istifadə olunur.

Poladın mexaniki möhkəmləndirilməsi - metalın deşikdən sərbəst çəkilməsi və burulması yolu ilə aparılır. Deşikdən çəkilmədə polad mil sıxaclanır və möhkəmlənir. Sərbəst çəkilmədə armatur poladın axma həddinə müvafiq olan

qüvvədən yüksək qüvvə ilə çəklməsi ilə aparılır və armatur bir qədər uzanır. Burulma ilə armaturu möhkəmləndirdikdə o, soyuq halda, uzununa oxu ətrafında burulur, bu möhkəmləndirmə texniki, həm də iqtisadi cəhətdən başqa mexaniki möhkəmləndirmələrdən üstündür.

Mexaniki möhkəmləndirmə metalın strukturunu dəyişir və onun axma həddini yüksəldir.

Möhkəmləndirmədən sonra poladın axma həddi 30% yüksəlir, bu qədərdə dəmirbetonun armaturunda gərginliyi artırmaq olar və ya milin diametrini azaltmaqla metala qənaət etmək olar.

Metalın termiki emahnda - yüksək tezlikli cərəyan ilə tablandırmadan, izotermik tablandırmadan və tabəksiltmədən istifadə etdikdə armatur poladlarımn keyfıyyəti yüksəlir. Nəticədə poladların markalarından asılı olaraq möhkəmlikləri 30-60%, axma həddləri isə 65-150% artır. Poladların termiki emalı ilə mexaniki xassələrin yüksəlməsi nəticəsində dəmirbetonda armatura 35-40% qənaət edilir.

Armatur poladlarımn təsnifatı, onlarm hazıırlanma üsullarına, milin profılinə və istifadə olunmasına görə verilir. Hazırlanmasına görə armatur poladı mil və ya soyuqyayılmış məftil formasında, adi və gərginləşmiş dəmirbeton üçün buraxılır. Səthlərin xarakterindən asılı olaraq, dövrü və hamar profılli armatur olur.

Mil armaturu qızmar yayılmış, termik və dartılma ilə möhkəmləndirilmiş olur. Mexaniki xassələrindən asılı olaraq, mil armaturu 5 sinifə bölünür: A-I, A-II, A-III, A-IV, A-V.

Termik olunmuş armatur işarə olunduqda, "T" indeksi əlavə olunur, məs. A-III.

Dartılma ilə möhkəmləndirilən polad işarəsinə isə "B" əlavə olunur, məs. A- II_B. Mil armaturların diametri 6-90 mm olur.

Hər bir sinif mil armaturu üçün müəyyən diametr təyin olunmuşdur. A-I sinifli mil armaturu hamar, A-II, A-III, A-IV və A-V sinifli armaturlar isə dövrü profılli buraxılır.

Məftil armaturunun armatur məftili və armatur məftil məmulatı növləri olur. Armatur məftili 2 sinifə bölünür: soyuqçəkilmiş B-1 sinfı (aşağı korbonlui adi armatur və B-II sinfı (karbonlu) gərginləşmiş armatur üçün. Məftil armatur məmulatları olurlar: a) "П" sinifli açılmayan hörük polad armaturu (3,7 və 19 məftilli), gərginləşmiş armatur üçündür, hörükdə məftilin sayı uyğun rəqəm ilə işarə olunur, məs. П-7 (7 məftilli hörük); b) iki və çox hörüklü polad armaturlu "K" sinifli kanatlar, gərginləşən armatur üçündür, "K" sinifli armatur kanatmm işarəsinə 2 rəqəm əlavə olunur: bunlardan birincisi hörüyün sayını, ikincisi isə hörükdə məftillərin sayını göstərir, məs. K219-ikihörüklü armatur kanatı, hər hörükdə 19 məftil var, v) qaynaqlanmış adı armatur toru.

Məftil armaturu 3-8mm diametrində buraxılır, dartılmada möhkəmlik həddi 1400,0-1900,0 MPa, axma həddi isə 1 120,0-1520,0 MPa olur. Qızmar yayılmış poladın möhkəmliyi soyuqyayılmış poladın möhkəmliyindən az olur.

Mil armaturunun möhkəmliyi 900,0 MPa, diametri 3mm olan soyuqçəkilmiş məftilin isə 1900,0 MPa olur. Lakin diametri çoxaldıqca, məftilin soyuqçəkilməsi çətinləşir. Mil armaturunun yerinə məftil armaturu istifadə olunduqda armatur işlərinə əməyin sərfı çoxalır. Armatur kimi hörük və kanatdan istifadə olunduqda əməyin sərfı azalır.

Qoyma hissələr - müxtəlif dəmirbeton məmulatların müəyyən yerlərində yerləşdirilir, yığma dəmirbeton konstruksiyalarını quraşdırdıqda qaynaq ilə məmulatları bir-biri ilə birləşdirmək üçün istifadə olunur. Qoyma C_t3 markalı poladdan hazırlanan lövhədən və ona C_t5 dövrii profılli polad armaturdan hazırlanan ankerin üst-üstə qaynaq edilməsi yolu ilə alınır.

Qoyma hissələr dəmirbeton məmulatlarında elə yerləşdirməlidir ki, lövhə məmulatın üzərində, anker isə betonun içərisində qalsın. Bəzi hallarda daha möhkəm birləşməni təmin etmək üçün anker, məmulatların armaturuna qaynaq edilir. Məmulatın qaldırılması üçün betonda yerləşdirilən ilgək A-1 sinifli hamar yuvarlaq poladdan hazırlanır. Milin diametri, ilgəyin qırılma və çıxarılmağa hesabatı ilə təyin edilir.

ƏDƏBİYYAT

1.Баженов Ю.М. Комар А.Г. Технология бетонных и железобетонных изделий. М.,Стройиздат,1984, 672 с
2.Гершберг О.А. Технология бетонных и железобетонных изделий.М.,Стройиздат,1971
3.Yusubov İ. M. Beton və dəmir-beton məmulatlarının texnologiyası .Bakı- 1998.

REINFORCING STEEL FOR REINFORCED CONCRETE

M.Z.Azimi
az.miu1959@gmail.com
Azerbaijan University of Architecture and Construction

This paper discusses the classification of reinforcing steels based on their manufacturing methods, bar profiles and applications. Wire reinforcements are classified into wire rod and wire products. Bar reinforcements are typically produced with diameters ranging from 3 to 8 mm. The quality of reinforcement steels is significantly improved by the application of thermomechanical treatment methods, such as high frequency current hardening and isothermal tempering.

Keywords: Reinforcing bar, Metal, Wire reinforcement

QƏLƏVI OKSIDLƏRINI TARA ŞÜŞƏLƏRININ TƏRKIBINƏ DAXIL ETMƏK ÜÇÜN ISTIADƏ EDILƏN XAMMALLARIN KIMYƏVI TƏRKIBININ TƏDQIQI

Vüsalə Hacı qızı Musayeva
vusala.musayeva@unec.edu.az
Ülkər Vaqif qızı Neymətova
ulker-1975@mail.ru
Aynurə Fəxrəddin qızı Həsənova
aynure.hesen@mail.ru
Samirə Sabir qızı Məhərrəmova
samiramaharramova@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Əsasən, şüşə taraların istehsalı üçün silisium, kalsium və natrium ionlarının üstünlük təşkil etdiyi soda-əhəng şüşəsi istifadə olunur. Standart tara şüşələrinin tərkibi (%-lə) aşağıdakı kimidir: SiO_2 – 71,5-71,97; Al_2O_3 -2,52-3,3; CaO – 5,2-6,03; MgO-3,2-3,96; Na_2O-14,97-16; C $_2O_3$-0,1-0,2; Fe_2O_3-0,21-0,6.

Şüşədə natrium oksidinin miqdarı şüşə əmələgəlmə prosesinin sürətlənməsinə, həmçinin şüşə kütləsinin şəffaflaşmasına güclü təsir göstərir. Bununla yanaşı, natrium-oksid istidən genişlənmə əmsalını artırır və şüşənin termiki davamlılığını aşağı salır. Şüşənin tərkibinə Na_2O daxil etmək üçün təbii soda, süni soda və natrium sulfat istifadə edilir[1].

Soda və natrium-sulfat xammallarının kimyəvi tərkibinə qoyulan tələblər istehsal edilən şüşə materiallarının növündən asılı olaraq dəyişir. Sodadan şüşəyə 58% Na_2O, sulfatdan isə cəmi 44% Na_2O daxil edilir. Başqa sözlə şüşəyə eyni miqdarda Na_2O daxil etmək üçün götürülən sodaya nisbətən daha çox miqdarda sulfatdan istifadə olunur [2].


Hazırkı tədqiqat işində "Glassica" şüşə tara müəssisəsində istehsal olunan şüşə taraların istehalında tətbiq olunan qələvi tərkibli xammalların kimyəvi və qranulometrik tərkibləri analiz edilmişdir. Xammalların tərkib analizi quruducu şkafdan mufel peçindən istifadə edilməklə XRF

cihazında aparılmışdır. Ələk analizlərinin aparılmasında isə vibrator ələkdən istifadə olunmuşdur [3]. Soda xammalının analiz nəticələri 1№-li cədvəldə və şəkil1-də verilmişdir.

Cədvəl1.

Soda xammalının kimyəvi tərkib və ələk analizinin nəticələri

Kimyəvi tərkibin analiz nəticələri			
Əsas oksidlər			
Na_2O, %	Cl, %(≤0,1)	NaCl, %(≤0,2)	Na_2CO_3,%(>99,4)
58.095	0.12	0.198	99,595
İkinci dərəcəli oksidlər			
CaO %	Fe_2O_3 %	SO_3 %	
0,015	0	0	
Ələk analiz nəticələri			
2000 µm(<1%)	1000 µm(<3%)	100 µm(>97%)	(Pallet)(<3%)
3.855	3.500	86.505	6.14



Şəkil 1. Sodanın dənəvər fraksiya tərkibinin diaqramı.

Analizin nəticələrinin təhlili tətbiq olunan sodanın kimyəvi tərkibinin tələblərə tam uyğun olduğunu göstərsə də, qranulometrik fraksiya tərkibində müəyyən kənarlaşmalar aşkar edildi.

Na_2O-ni tara şüşələrinin tərkibinə daxil etmək üçün həm də sulfat istifadə olunur ki, tədqiqat işində bu xammal nümunəsinin analiz nəticələri 2 №-li cədvəldə öz əksini tapmışdır.

Cədvəl2.

Sulfat xammalının kimyəvi tərkib və ələk analizinin nəticələri

Kimyəvi tərkibin analiz nəticələri			
Əsas oksidlər			
Na_2O, %	Cl, %(≤0,1)	SO_3, %	Na_2SO_4, % (≥99,6)
32,410	0,00	63,135	95,545
İkinci dərəcəli oksidlər			
CaO %	Fe_2O_3, % (≤0,01)		
0,00	0,00		
Ələk analiz nəticələri			
3350 µm(0%)	2000 µm (<1 %)	100 µm	(Pallet)(<35%)
0,00	0,12	70,715	29,17

Sulfat xammalının analiz nəticələri kimyəvi tərkibdə Na_2SO_4-in miqdarının nisbətən aşağı olduğunu göstərdi. Ələk analizinin nəticələri isə dənvər fraksiyada 100 µm ölçülü hissəciklərin miqdarının üstünlük təşkil etdiyi müəyyən edildi ki, bu da standart tələblərinə uyğundur.

ƏDƏBİYYAT

1. Власова С. Г.Основы химической технологии стекла: учебное пособие / С. Г. Власова; [науч. ред. В. А. Дерябин]. – Екатеринбург: Изд-во Урал. ун-та, 2013. – 108 с. – ISBN 978-5-7996-0930-6.
2. Земляной, К. Г.; Павлова, И. А Фазовые равновесия в оксидных системах: учебник. Издательство Уральского университета 26-окт-2021.
3. HORN170210. Требование к материалом, 2017.

STUDY OF THE CHEMICAL COMPOSITION OF RAW MATERIALS USED TO INCORPORATE ALKALI OXIDES INTO THE COMPOSITION OF CONTAINER GLASS

Vusala Haji Musayeva
Ulkar Vagif Neymatova
Aynura Fakhraddin Hasanova
Samira Sabir Maharramova
Azerbaijan State University of Economics

The research study investigated the alkaline-containing raw materials used in the production of container bottles produced at the "Glassica" glass container plant. For this purpose, the chemical and granular fraction compositions of soda and sodium sulfate raw materials used at the plant were analyzed. The results obtained are important in terms of optimal calculation of the raw material composition of glass containers.

Keywords: container glass, alkali oxides, soda, sodium sulfate, chemical composition.

TƏBƏQƏ ŞÜŞƏ ISTEHSALINDA ŞÜŞƏYARADAN OKSIDLƏRI TƏRKIBƏ DAXIL ETMƏK ÜÇÜN ISTIFADƏ EDILƏN XAMMALARA QOYULAN TƏLƏBLƏR

Nazilə Fərman qızı Alverdiyeva
nazila.a@mail.ru
Sevinc Məhəddin qızı Abbasova
uzeirqasimli@yandex.ru
Afət Məstan qızı Cəfərova
afa.jafarova@mail.ru
Aynurə Yadigar qızı Hüseynova
a.huseynova-0778@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti

İstənilən şüşənin əsas strukturunu təşkil edən maddələrə şüşəyaradan oksidlər deyilir. Ən çox bilinən şüşəyaradan oksid silisium dioksid və ya silisiumdur. SiO_2 formulu bizə hər silisium atomuna iki oksigen atomunun birləşdiyini bildirir. Biz silisiumu fərdi SiO_2 molekullarından ibarət hesab edə bilərik. Əslində, SiO_2 dənələri bir kristal şəbəkə yaratmaq üçün bir-birinə bağlıdır. Silisium soyuduqda digər şüşəyaradan materiallar kimi nizamsız atom şəbəkəsi strukturu əmələ gətirir, soyuduqca bərkiyir və bərk maddənin görünüşünü verir. Ancaq əslində bu, həddindən artıq soyudulmuş bir mayedir. Bu quruluşa şüşəvari silisium deyilir [1].

Digər məlum şüşə əmələ gətirən material bor metalının oksididir (bor oksidi – B_2O_3). Bor oksidi nadir hallarda tək istifadə olunur. Silisium oksidlə birlikdə istifadə edilərsə, şüşənin refraktiv xüsusiyyətlərini və genişlənməsini azaldır və kimyəvi maddələrə qarşı müqavimətini artırır.

Fosfor oksidləri, arsen və germanium oksidləri də şüşəyaradan oksidlər sinfinə daxildir. Bununla belə, böyük həcmdə istehsal olunan kommersiya şüşələrinin istehsalında ümumiyyətlə istifadə edilmir.

Şüşənin əsas komponenti silisium tərkibli xammallardır. Şüşə əmələ gətirən materiallar soyutma zamanı nizamsız atom şəbəkəsi, strukturları yaratmaq qabiliyyətinə malikdir [2].

Əsas şüşə məmulatların, o cümlədən təbəqə şüşələrin istehsalı üçün kvars qumu başlıca xammal komponenti hesab olunur. Şixtada onun miqdarı 60-70% və daha çox olur.

Kvars qumunun keyfiyyəti kimyəvi, dənəvər və mineral tərkibi ilə xarakterizə olunur. Şüşənin tərkibinə silisium oksidi daxil etmək üçün ilkin material kvars qumundan başqa tərkibində daha az dəmir oksidi olan üyüdülmüş kvars da ola bilər [3].

İstehsal olunan təbəqə şüşələrin keyfiyyəti istifadə olunan kvars qumlarının kimyəvi və dənəvər tərkibindən əhəmiyyətli dərəcədə asılıdır. Əgər kvars qumunun tərkibində əsas mineral – kvars nə qədər çox, rəngləyici maddələrlə zəngin olan minerallar nə qədər az olarsa, onun keyfiyyəti bir o qədər yüksək olar . Bütün qeyd olunanan göstəricilər həm kvars qumunun həm də digər xammalların istehsalçılar tərəfindən seçilməsinə təsir edən asas amillərdir [4].


Tədqiqat məqsədiylə "Azerfloat "şüşə zavodunda tətbiq olunan kvars qumunun kimyəvi və qranulometrik tərkibləri analiz edilmişdir. Xammalların tərkib analizi quruducu şkafdan mufel peçindən istifadə edilməklə XRF cihazında aparılmışdır. Ələk analizlərinin aparılmasında isə vibrator ələkdən istifadə olunmuşdur. Kimyəvi tərkibin analiz nəticələri 1№-li cədvəldə, qumun fraksiya tərkibinin analiz nəticələri isə şəkil1-də öz əksini tapmışdır.

Kvars qumunun tərkib göstəricilərinin lazımi tələblərə cavab verməsi həm əridilmə və formayasalma prosesinin parametrlərini təmin etmək, həm də tələb olunan xassələrə malik şüşə əldə etmək baxımından vacibdir (cədvəl№1).

Cədvəl 1.

Kvars qumunun kimyəvi tərkib və ələk analizinin nəticələri

Kimyəvi tərkib nəticələri				
Əsas oksidlər				
SiO_2 % (+99)	Fe_2O_3 % (0,04±0,005)	Al_2O_3 % ($\leq 0,6 \pm 0,1$)		
98,901	0,042	0,000		
İkinci dərəcəli oksidlər				
SO_3 %	K_2O %	CaO %	TiO_2 %	MgO %
0,000	0,026	0,021	0,032	0,335
Ələk analizinin nəticələri				
1000 µm (0%)	≥ 800 µm (≤0,5 %)	125 µm (>96%)	100 µm	palet, (≤5 %)
0	0,02	99,84	0,085	0,055



Şəkil 1. Kvars qumunun dənəvər fraksiya diaqramı.

Analiz nəticələrindən göründüyü kimi kvars qumunun tərkibində SO_2-nin miqdarı standart göstəricidən cüzi miqdarda aşağı, Fe_2O_3-ün miqdarı isə az miqdarda yüksəkdir. Qumun dənəvər tərkibinin əsasını isə qrafikdən göründüyü kimi 125 µm ölçülü fraksiya təşkil edir ki, bu da müəssisədə tətbiq edilən normativ –texniki sənədlərin tələblərinə uyğun gəlir.

.

ƏDƏBİYYAT

1. Wallenberger F. T., Bingham P. A. Fiberglass and Glass Technology: Energy-Friendly Compositions and Applications. Springer. 2009. 474 p.
2. МакаровР.И. Управление качеством листового стекла: флоат-способ/ Москва: Издательство Ассоциации строительных вузов, 2004,152с.
3. Маневич В.Е., Субботин К.Ю., Ефременков В.В. Сырьевые материалы, шихта и стекловарение, М.: РИФ «Стройматериалы», 2008.
4. Horn170210. Требование к материалом, 2017

REQUIREMENTS FOR RAW MATERIALS USED TO INCORPORATE GLASS-FORMING OXIDES INTO THE COMPOSITION IN THE PRODUCTION OF SHEET GLASS

Nazila Farman Alverdiyeva
Sevinj Mahaddin Abbasova
Afet Mastan Jafarova
Aynura Yadigar Huseynova
Azerbaijan State University of Economics

The article analyzes the chemical and granulometric composition of quartz sand used to incorporate glass-forming oxides into the composition of sheet glass at the "Azerfloat" glass plant. Meeting the necessary requirements for the compositional indicators of quartz sand is important both in terms of ensuring the parameters of the melting and molding process and obtaining glass with the required properties.

Keywords: sheet glass, glass-forming oxides, quartz sand, chemical composition, fractional composition

AZƏRBAYCANDA SİNTETİK YUYUCU VASİTƏLƏR İSTEHSALININ MÜASİR VƏZİYYƏTİNİN TƏDQİQİ

Şahbaz İbrahimov
ghost.experr@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Uzun illər Azərbaycan əsasən Türkiyə, Rusiya və Avropa ölkələrindən idxal olunan yuyucu vasitələrə böyük ümid bəsləyirdi. Bununla belə, yerli müəssisələr həm daxili, həm də regional bazarlara cavab verən istehsal müəssisələri yaratmaq üçün yuyucu vasitələr sektoruna sərmayə qoymağa başlayıblar[1].

Bu sektorda ən diqqətəlayiq inkişaflardan biri Novator HRC təşəbbüsüdür. 2024-cü ildə Novator HRC Bakının Sabunçu rayonu, Ramana qəsəbəsində yuyucu və dezinfeksiyaedici maddələr istehsalı zavodunun yaradılması planlarını açıqlayıb. Kimyəvi yuyucu vasitələrin istehsalında özünü təmin etmək və Azərbaycanın idxaldan asılılığını azaltmaq məqsədi ilə zavodun həmin ildə fəaliyyətə başlaması nəzərdə tutulurdu.

Novator HRC ilə yanaşı, digər Azərbaycan istehsalçıları da tədricən maye və toz yuyucu vasitələr istehsal edərək bazara daxil olurlar. Bu müəssisələr yerli təhlükəsizlik və ətraf mühit standartlarına riayət etməklə, sərfəli qiymətə və keyfiyyətə diqqət yetirirlər.

Yerli istehsalın artmasına baxmayaraq, hələ də Azərbaycan yuyucu vasitələr bazarının əhəmiyyətli bir hissəsində xarici brendlər üstünlük təşkil edir. Ezel Yuyucu Fabriki (Türkiyə) kimi şirkətlər Azərbaycana toz və maye yuyucu vasitələr ixrac etməyə davam edir. Bu beynəlxalq brendlər tez-tez keyfiyyətə görə köklü reputasiyaya malikdirlər və bu, onları bazarda rəqabətədavamlı edir[1].

Bununla belə, yerli istehsal genişləndikcə yerli brendlərin beynəlxalq rəqiblərə sərfəli və keyfiyyətli alternativlər təklif edərək daha böyük bazar payı qazanacağı gözlənilir[4].

Statistik məlumatlara görə, Azərbaycanın qabyuyan yuyucu vasitələr bazarının 2025-ci ildə təxmini 5,92% gəlir əldə edəcəyi proqnozlaşdırılır. Eynilə, camaşırxana baxımı bazarının 2025-ci ildə 2025-ci ildən 2029-cu ilə qədər 2,48% mürəkkəb illik artım tempi (CAGR) ilə artacağı gözlənilir.

Azərbaycanın yuyucu vasitələr bazarına müxtəlif məhsul kateqoriyaları daxildir, o cümlədən[2]:

• Toz yuyucu vasitələr – çamaşırların yuyulması üçün geniş istifadə edilən bu məhsullar qənaətcilliyi və təmizləmə gücünə görə populyar olaraq qalır.

• Maye yuyucu vasitələr – ləkələrin çıxarılmasında rahatlığı və effektivliyi ilə getdikcə daha çox üstünlük verilir.

• Qabyuyan mayelər – artan gigiyena standartlarına görə ev təsərrüfatlarında və restoranlarda yüksək tələbat.

• Çoxməqsədli təmizləyicilər – həm məişət, həm də sənaye təmizləmə tətbiqləri üçün istifadə olunur.

Azərbaycanda istehlakçılar daha seçici olurlar, bir çoxları həm ailələri, həm də ətraf mühit üçün təhlükəsiz olan ekoloji cəhətdən təmiz, hipoalerjenik və yüksək təsirli yuyucu vasitələrə üstünlük verirlər.

Azərbaycanlı istehlakçılar mədəni dəyərlərə və üstünlüklərə uyğun gələn brendlərə üstünlük verirlər. Bu, qida və moda kimi sənayelərdə özünü göstərir və yuyucu vasitələr kimi məişət məhsullarına da şamil edilir [5].

Ətraf mühit problemləri ilə bağlı artan məlumatlılıqla, istehlakçılar fosfatsız, bioloji parçalana bilən və bitki əsaslı yuyucu vasitələrə keçirlər. Gənc uşaqları olan bir çox ev təsərrüfatları və ya həssas dərisi olan şəxslər də sərt kimyəvi maddələrdən təmizlənmiş hipoalerjenik yuyucu vasitələrə üstünlük verirlər[3].

İstehlakçılar ekoloji cəhətdən daha çox şüurlulaşdıqca, davamlı təcrübələri mənimsəyən şirkətlər Azərbaycan bazarında rəqabət üstünlüyü əldə edəcəklər.

İnkişafına baxmayaraq, Azərbaycan yuyucu vasitələr sənayesi bir sıra problemlərlə üzləşir[1]:

İdxaldan rəqabət – xarici brendlər hələ də bazarda üstünlük təşkil edir, bu da yerli istehsalçıların güclü iştirakını çətinləşdirir.

Xammal xərcləri – yuyucu vasitələrin istehsalı üçün xammalın idxalının dəyəri yüksək ola bilər və qiymət strategiyalarına təsir edə bilər.

İstehlakçı güvən – bəzi istehlakçılar yerli istehsal olan yuyucu vasitələrə şübhə ilə yanaşır, müəyyən edilmiş beynəlxalq brendlərə üstünlük verirlər.

Nəticə

Azərbaycanın sintetik yuyucu vasitələr sektoru transformasiyadan keçir, idxaldan asılılıqdan yerli istehsala keçir. Artan istehlak tələbi, artan gigiyena məlumatlılığı və ciddi tənzimləmə nəzarəti ilə bazar daha dinamik və rəqabətli olur.

Yüksək keyfiyyətli, münasib qiymətə və ekoloji cəhətdən təmiz yuyucu vasitələrə diqqət yetirən istehsalçılar qarşıdakı illərdə daha böyük bazar payı ələ keçirmək üçün güclü fürsət əldə edəcəklər. Azərbaycanın yuyucu vasitələr sənayesi istehlakçı seçimlərinə və davamlılıq tendensiyalarına uyğunlaşaraq həm daxili, həm də beynəlxalq bazarlarda əhəmiyyətli irəliləyişlərə hazırdır.

ƏDƏBİYYAT

1. Ə.P.Həsənov, T.R.Osmanov, N.N.Həsənov və başqaları. «Qeyri-ərzaq mallarının ekspertizasının nəzər əsasları». Dərslik.Bakı.2010

2. Ə.P.Həsənov, T.R.Osmanov, N.N.Həsənov və başqaları. «Qeyri-ərzaq mallarının ekspertizasının praktikumu» Dərslik.Bakı.2014

3. https://www.scribd.com/presentation/761150843/Firdovsi-Quliyev-A3212-sintetik

4. https://www.anl.az/down/meqale/sdu_elm_xeber/2019/01/735411(meqale).pdf

5. https://competition.gov.az/storage/files/files/2179/Sintetik-yuyucu vasit%C9%99l%C9%99rin-v%C9%99-m%C9%99i%C5%9F%C9%99t-kimyas%C4%B1-mallar%C4%B1n%C4%B1n-t%C9%99hl%C3%BCk%C9%99sizliyi.pdf

STUDY OF THE CURRENT STATE OF SYNTHETİC DETERGENT PRODUCTİON İN AZERBAİJAN

Shahbaz Ibrahimov
ghost.experr@gmail.com
Azerbaijan State University of Economics

The synthetic detergent industry in Azerbaijan has grown significantly in recent years due to increased local production, increased consumer awareness of hygiene, and regulatory efforts to ensure product safety and environmental sustainability. Historically dependent on imports, Azerbaijan is now witnessing the emergence of local detergent manufacturers, which is helping to reduce dependence on foreign brands and boost economic growth.

This article examines the current status of synthetic detergent production in Azerbaijan, industry trends, market growth, regulatory developments, and consumer preferences.

Keywords: Azerbaijani production, synthetic detergents, current situation, production status.

FTROPLAST-QRAFİ SİSTEMLİ YEYİLMƏYƏ DÖZÜMLÜ MATERİLLARIN TRİBOLOJİ XASSƏLƏRİNİN TƏDQİQİ

Sevil Məmmədova
sevilmemmedova19961@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Sənaye sahələrində çalışan mexanizmlərin iş müddətində qarşılaşdığı əsas problemdən biri detalların aşınmasıdır. Bu səbəbdən antifriksion xüsusiyyətlərə malik materiallara ehtiyac artmaqdadır. Ftroplast kimyəvi davamlılıq və sürüşkənlik baxımından əlverişli olsa da, saf halda yeyilməyə qarşı zəif müqavimət göstərir. Bu çatışmazlığı aradan qaldırmaq üçün qrafit kimi əlavələrdən istifadə edilir. Qrafit, yüksək istilik keçiriciliyi və özünəyağlayıcı xüsusiyyətləri ilə PTFE –nin triboloji göstəricilərini yaxşılaşdırır.

Uzun illər sənayedə bir çox tərkibli sürtünmə qovşaqları istifadə olunmuş-dur. Bunlara mis əsaslı, qurğuşun əsaslı (babbitlər və s) sürtünmə yastıqlarını və s misal göstərmək olar. Polimerlərdən hazırlanmış materiallardan sürtünmə qovşaq-larında uğurla istifadə edilən bir sıra detalların hazırlanması üçün geniş tətbiq olunan bir material kimi, hələ 1930-1935-ci illərdən istifadə edilirlər. İllər keçdi və daha sonralar isə polimer əsaslı kompozisiya materillarının müxtəlif kompozisiya materialları formasında, habelə metal əsaslı ovuntuları ilə kompozitlərin istifadə olunması xüsusi marağa səbəb olmuşdur. Antikfriksion və fsriksion materiallar kimi hal-hazırda ən geniş istifadə edilən polimerlər kimi, ftor əsaslı kompozitlər hesab olunur. Ftor əsaslı ftoroplast-4 və ya adətən geniş istifadə edilən qazşəkilli (qaz formalı) tetrafmopitelinin (CF2=CF2) (poimetaftoetilen) polimerləşməsi ilə alınır. Ftor əsaslı ftoroplast-4 əsaslı kompozitlər əsasən 1938-ci ildə amerikan alimi olan Planket təsadüf nəticəsində kəşf etmiş və bunun material kimi tətbiq imkanla-rını araşdırmışdır.

Araşdırma üçün əvvəlcə PTFE və müxtəlif miqdarda (5%, 10%, 15%) qrafit hissəcikləri homagen şəklində qarışdırılmış və presləmə üsulu ilə formalaşdırılmışdır. Hazırlanmış nümunələr 360 K temperaturda sinterlənmişdir. Triboloji testlər xüsusi

ürtünmə cihazında, 2 N yük altında , 100 rpm sürətlə 10 dəqiqə ərzində aparılmışdır. Sürtünmə əmsalı və yeyilmə miqdarı ölçülmüş, həmçinin nümunələrin mikroyapısı optik mikroskop vasitəsilə analiz olmuşdur.

Kompozit materialların triboloji xüsusiyyətlərini təhlil etmək üçün sürtünmə və yeyilmə testləri aparılmışdır.

1. Belə materiallar aşağı qiymətli yük altında aqressiv mühitlərdə olduqca yaxşı

antifriksion xassələrə malik olurlar.

2. Ftor əsaslı yeyilməyədözümlü kompozt materialları, sənayedə antifriksion material kimi sənayenin bir çox sahələrində, o cümlədən maşınqayırmada, neft-kimya, neft-maşınqayırma sənayelərində geniş tətbiq edilir.
3. Ftor əsaslı kompozit materiallarının kimyəvi tərkibinə müəyyən miqdarda xüsusi

əlavəliklərin (doldurucuların) verilməsi ilə (bu əsasən qrafit, tunc, molibden desulfidi ola bilir) kompozitin tribotexniki, o cümlədən fiziki, mexaniki xassələrini lazımi səviyyədə artırmaq olur. Bir sıra elmi-tədqiqat işlərinin analizi nəticəsində aydın olmuşdur ki, ftoroplast əsaslı yeyilməyə qarşı müqaviməti yüksək olan kom-pozitlərin antifriksion xassələrinə, o cümlədən xüsusi doldurucuların təsirini tən-zimləmək mümkündür.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Əldə olunan nəticələr göstərdi ki;

1. 5% qrafit əlavə edilən nümunədə sürünmə əmsalı 0.14, yeyilmə isə orta səviyyədə olmuşdur.
2. 10% qrafit tərkibli nümunə həm ən aşağı sürtünmə əmsalı(0.11), həm də ən aşağı yeyilmə göstəricisinə malik olmuşdur.
3. 15% qrafit əlavə olunmuş nümunədə isə strukturda homogenlik pozulduğundan yeyilmə göstəricisi yenidən artmışdır.

Bu nəticələr onu göstərir ki, qrafitin optimal miqdarda istifadəsi materialın triboloji xüsusiyyətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Antikfriksion və fsriksion materiallar kimi hal-hazırda ən geniş istifadə edilən polimerlər kimi, ftor əsaslı kompozitlər hesab olunur. Ötən əsrin ortalarında qeyri- metal və ovuntu kompozisiya materialları metallik ma-terialların əvəzlənməsi məsələləri ətraflı araşdırılması üçün elmi-tədqiqat işlərində köklü dəyişiklik oldu. Böyük perspektivliyə malikdir. Bu istiqamətdə materialların fiziki, mexaniki, texnoloji xassələri, metal və onların ərintilərindən hazırlanmış konstruksiya elementlərinin xassələrinə yaxın, çox zaman isə daha da yüksək olur-lar. Təbidir ki, bu ehtiyac sənayedə istifadə edilən metalların, o cümlədən onların ərintilərindən hazırlanmış müxtəlif təyinatlı məmulatların, qeyri-metal kompozisi-ya materialları ilə əvəzlənməsini daha ön plana çıxartdı. Qeyd etmək lazımdır ki, hal-hazırda fəaliyyət göstərən müasir sənaye sahələrində metallardan xeyli yüngül olan, ucuz və emalı asan başa gələn müxtəlif kompozisiya materiallarının tətbiq edilməsi, bir çox hallarda daha müsbət nəticələrin əldə edilməsinə şərait yaradır. İnkişafda olan sənaye-nin bir çox sahələrində metal və ərintilərin qeyri-metallarla əvəzlənməsi, onların is-tifadə imkanlarının, o cümlədən xassələrini (funksiyalarını) yerinə yetirə biləcək yeni kompozit materialların axtarışı daima ön planda olmuşdur.

Tədqiqat nəticəsində məlum oldu ki, 10% qrafit əlavəsi hazırlanmış ftroplast kompozit materiallar triboloji baxımdan ən səmərəli nəticələr verir. Belə materiallar yüksək sürtünmə yükü olan detalların istehsalında istifadə edilə bilər. Gələcək işlərdə nanohissəcik miqyasında qrafit əlavələrinin təsiri araşdırıla bilər.

Ftoroplast-qtafit sistemli ovuntu kompozitlərinin istehsalında müxtəlif po- limerlərin qarşılıqlı birləşmələrindən istifadə edilir. Nəzərə almaq lazımdır ki, müxtəlif yeyilmə şəraitində işləyən qovşaqların, o cümlədən hava müqavimətinə

məruz qalan hissələrin hazırlanması zamanı ftoroplast-qrafit sistemli materiallarda, qrafitin miqdarı 10%-dən 45%-ə qədər dəyişə bilir.

Polimerləşmə nəticəsində ftoroplast-4-ün kristallaşma dərəcəsi 95-87%-ə qədər arta bilir və ftoroplast-4-dən hazırlanmış nümumələr 50-70%-lik möhkəm kristallik dərəcəsinə malik olurlar. Ftoroplast-4-dən kristallaşma dərəcəsi 80-85% olan məmulat almaq mümkündür. Lakin bu materialların kristallaşma dərəcəsi 85%-dən çox olduqda onlar kövrəkləşirlər.

Bu sistemli ovuntu kompozit materiallarının bişirmə prosesi sobada 2,5-3 saat olmaqla $370 \div 10^0$C temperaturda aparılmalıdır. Bişirmə müddəti hər 5 mm qa-lınlığa 1 saat olmaqla müəyyən edilir və bütün en kəsik boyu temperatur azalması-nın bərabərliyini təmin etməkdən ötrü məmulatlar əvvəlcə 250^0C-dək 2-2,5 saat ol- maqla, sonra 100^0C-dək 1-1,5 saat, daha sonra havada soyudulur. Bütün bu texno- loji proseslərdən, yəni presləmə və bişirmə əməliyyatları başa çatdıqdan sonra alın- mış nümunələr hazır material hesab edilir və bu materialların digər xassələrinin öy- rənilməsi üçün uyğun təcrübələr aparmaq mümkün olur.

ƏDƏBİYYAT

1.S.N.Namazov, A.T.Məmmədov, Z.Z.Şərifov, A.İ.Babayev, "Ovuntu metallurgi- yasının əsasları", Bakı Çaşıoğlu, 1999-cu il 238 səh.
2. Mohamed FA. Superplastic and interface analysis in materials. Materials Science Forum. 2001; 83:357-359.
3. СеменовА.П.,СавинскийЙ,Е.Металлофторопластовые подшивники..М. Машиностроение, 1976.
4. S.Namazov, R.K.Mehdiyev, M.Ç.Hüseynov, "Presləmə nəzəriyyəsi", Bakı 2012 221 səh

STUDY OF TRIBOLOGICAL PROPERTIES OF EAT-RESISTANT MATERIALS WITH FTROPLAST-GRAPHIC SYSTEM

Sevil Mammadova
sevilmemmedova19961@gmail.com
Azerbaijan Technologycal University

This article presents a study of the Ftroplast graphite system material. The aim is to determine the effect of different graphite amounts on the friction coefficient and wear resistance of the material. During the study, samples with 5%, 10% and 15% graphite content were prepared, and their structural and tribological properties were analyzed. The results show that the composite with 10% graphite content has optimal indicators. Such materials are promising for use in the production of antifriction parts.

The results of the experiments show that graphite addition plays an important role in improving the tribological properties of PTFE composites. Materials with a 10% graphite content both reduce friction and increase wear resistance, which requires them to have high friction and wear resistance. Future studies can be aimed at further improving the mechanical and tribological properties of the material by introducing graphite additives of specific nanoparticle size. In addition, further studies should be conducted on the long-term durability and thermal stability of these composites.